## *MÜTƏRCİMDƏN*

Allah-Təala kainatın ən üstün məxluqu sayılan insan övladına yaranışının ilk günlərindən ən dəyərli və gözəl nemətlərini əta etmişdir. Doğrusu, ətrafımıza diqqətlə baxdıqda bizi saysız-hesabsız və olduqca rəngarəng, dəyərli nemətlərin əhatə etdiyini müşahidə edirik. Belə ki, həqiqətdə, bəşər övladı dünyada ona bəxş olunan bitib-tükənməyən nemətlərdən, məhz Tanrının və ağlın hökm etdiyi şəkildə bəhrələnərək, nəfsin istismarçı və daim pisliyə doğru çağıran, doymaq bilməyən istəklərini bir kənara atıb ilahi ibadətinə pənah gətirməklə, həm bu dünyadakı və həm də Axirətdəki Behiştini qazana bilər. Elə bu məqsədlə də, mərhəmətli Tanrı insanlara xəlq etdiyi nemətlərin qədrini bilmələri və hamılıqla insani duyğular əhatəsində bərabər şəkildə ilahi nemətlərdən bəhrələnmələri üçün peyğəmbərlər və övliyalar (Allahın salam və salavatı onların üzərinə olsun) göndərdi. Bəşəriyyəti daim azğınlıqdan çəkindirən, mənəvi saflığa və pak yola dəvət edən bu müqəddəs şəxsiyyətlər insanları Allaha ibadət etməyə və Onun əmrlərinə tabe olmağa səslədi. Allah-Təala ibadət məkanı kimi Öz peyğəmbərlərinə (ə) məbədlər, məscidlər tikməyi əmr etdi. Behiştə aparan yolu məscidlərə üz tutub Tanrıya ibadət etməkdə, təfriqə və ayrıseçkilikdən çəkinməkdə gördü. İnsanın Uca Tanrıya ibadət etməsi onun yaranış fəlsəfəsindən biri sayılır. Belə ki, Allah-Təala Qurani-kərimdə buyurur: «**Mən, cinləri və insanları, yalnız Mənə ibadət etmələri üçün yaratdım!**».[1]

Diqqət etmək lazımdır ki, milli-mənəvi dəyərlərimizdən biri olan məscidlər, düzgün istifadə edildiyi zaman, təkcə Axirətimiz üçün deyil, gündəlik həyatımız üçün bir çox inkarolunmaz faydalara malikdir. Əgər insanlar məsumların (ə) göstərişlərinə düzgün və məsuliyyətli şəkildə yanaşarlarsa,

[1] «Zariyat» surəsi, ayə: 56.

insani hisslərin aşılandığı bu müqəddəs məkanda bir-birləri ilə çox rahat formada ünsiyyət yarada və qaynayıb-qarışa bilərlər. Qardaşlıq prinsipi əsasında rəftar etməyin zərurətinin çatdırıldığı bu müqəddəs məkanda, insanlara bir-birlərinin qeydinə qalmaq, qəm-qüssəsini aradan qaldırmaq, cəmiyyətdə bir fərd kimi qarşı tərəfin hüquqlarına riayət etmək və sair ilahi tövsiyələr verilir. İmam Rza (ə) buyurur: «Məscidlərdə (Allah qorxusu ilə) qılınan camaat namazı insanların bir-birlərinə kömək əli uzatmalarına, ümumi mənafelər xatirinə həmkarlıq etmələrinə, çətinlikləri birgə aradan qaldırmalarına, dindarlıqda və Allaha sitayiş etməkdə, həmçinin bir çox günahların qarşısını almaqda yardım göstərmələrinə səbəb olur».[2]

Bəli, məscid barəsində məsumlardan (ə) bizə gəlib-çatan ğöstərişləri diqqətlə mütaliə etdikdə biz bir daha «Allahın evi» adlandırılan bu məkanın insanlara hansı hiss və duyğuları əks etdirdiyinin və hansı yüksək dəyərləri öyrətdiyinin şahidi oluruq.

İslam dininin məscidlərə yüksək dəyər verdiyini, məscidə getməyə təkid etdiyini rəvayətlərdə görə bilərik: «Daima məscidə gedən insan bu səkkiz xeyirdən birinə çatar. Qurani-kərimin möhkəm və aydın ayələrindən bəhrə aparar; faydalı dost tapar; yeni elmlər öyrənər; intzarını çəkdiyi rəhmətə qovuşar; Ona yol göstərən doğru sözlər öyrənər; Onu günahdan qoruyan oyüd-nəsihətlərə yetişər; günah işlətməkdən utanar; Allah qorxusu günahının qarşısını alar.»[3]

Əziz oxucu, bu kitabı tərcümə etməkdə məqsədimiz, daim ata-babalarımızın müqəddəs saydığı və and yerimiz olan məscidlər barəsində sizə daha ətraflı və geniş məlumat verməkdir. Bu kitabın əziz xalqımıza layiqli və mənəvi bir hədiyyə olacagına ümid edirik. Amin!

---

[2] «Biharul-ənvar», c: 88, səh: 12.

[3] «Tuhəful-uqul», səh: 48 (Hədis imam Həsəndən (ə) rəvayət olunur).

## *GİRİŞ*

## *«MƏSCİD» SÖZÜNÜN MƏNASI*

«Məscid» sözü ərəb qramatikasında «ismi-məkan» sayılır və kökü, «əyilmək», «acizliyi bildirmək», «baş əymək» mənalarını bildirən «səcədə» sözüdür. İbn Faris deyir: «Sin», «cim» və «dal» hərflərindən (samitlərindən) ibarət «səcədə» sözü, əyilmək və təvazökarlıq aşılayan ümumi bir mənanı ifadə edir. Belə ki, «səcədə» (səcdə etdi) deyildikdə, kiminsə təvazökarlıq etdiyi və ya baş əydiyi anlaşılır.»[4]

Digər ərəb dilçiləri də, buna oxşar mənaları qeyd etmişlər. Deməli, ərəb dilində «sücud» (səcdə etmək) sözü kiminsə qarşısında «baş əymək», «kiçilmək» mənasındadır. Məscid də əyilmək, baş əymək və təzim etmək üçün bir məkandır.

## *MƏSCİD, QURANİ-KƏRİM VƏ HƏDİSLƏRDƏ*

Qurani-kərim və hədislərdə «sücud» (səcdə etmək) sözü «baş əymək»lə yanaşı, başı yerə qoymaq mənasında da işlədilmişdir. Elə buna görə də, səcdə, təvazökarlığın ən son həddi sayılır. Bununla da, İslam mədəniyyətində məscid, insanların orada qüdrətli və qəni Yaradan ilə acizanə şəkildə əlaqə qurmaq üçün seçdiyi müqəddəs məkan kimi tanınır.

Əlbəttə, insan hər bir yerdə Tanrının qüdrət və əzəməti qarşısında baş əyərək, onunla rabitə qura bilər. Lakin məscid, Allaha yaxınlaşmaq məqsədilə, bunun üçün müəyyən edilmiş xüsusi bir məkandır.

İslam ümmətinin məscidin xeyir-bərəkətlərindən daha çox və daha düzgün yararlanması üçün Qurani-kərimdə və hədislərimizdə olduqca mühüm və dəyərli göstərişlər mövcuddur. Onları «Məscid ensiklopediyası» və ya «Məscid mədəniyyəti toplusu» adlandırmaq olar. Dinimizi xalqa doğru-düzgün formada çatdırmaq istəyənlər bu topluya

---

[4] «Mucəmu-məqayisil-luğə», c: 3, səh: 133.

müraciət edərək, onun islahedici və qurucu yöntəmlərindən istifadə etməklə, xalq arasında məscid mədəniyyətini yaymağa, ondan daha uyğun və çoxşaxəli şəkildə bəhrələnməyə xidmət etməlidir. Bu məqsədlə sizə təqdim olunan «İslamda məscid mədəniyyəti» adlı bu kitabda Qurani-kərimin və Əhli-Beytin (ə) məscid barəsində olan göstərişləri on iki fəsildə toplanmışdır. Amma öncə, diqqətinizi bu kitabda mövcud olan bir neçə mühüm mətləblərin başlığına yönəltmək istərdik:

***1. Məscid dini-mənəvi dəyərlərin qorunmasını, idarəçiliyini və əməl olunmasını təmin edən müqəddəs məkandır***

Məscid müsəlman ümmətinin döyünən ürəyi və dini, mədəni-ictimai sahədəki islami fəaliyyətləri idarə edən dayaq nöqtəsidir. Elə buna görə də, rəvayətlərimizdə yüksək mənalı təbirlərlə – «Allahın evi», «peyğəmbərlərin məkanı», «hər təqvalı (pərhizkar) insanın sarayı» və «cənnət bağı» müsəlmanlar könüllərin qibləsi olacaq bu gözəl məkanla əlaqə saxlamağa çağırılır, maddi və mənəvi xeyir-bərəkətlərindən bəhrələnməyə doğru həvəsləndirilir.

***2. Məscid tikmək***

Məscid, dini dəyərlərin qorunub-saxlanmasını, idarəçiliyini və əməl olunmasını təmin edən müqəddəs bir məkan olduğu üçün, dəyərli islami rəvayətlərdə məscid quruculuğu, məscid tikmə mədəniyyətinin xalq arasında yayılması çox təkid edilmişdir. Bu rəvayətlərə görə, müsəlmanlara məscidə ehtiyac duyulan hər bir məkanda; şəhər, kənd, məntəqələr arası yollarda, məscid tikmək üçün imkan daxilində yardım etmələri tövsiyə olunur. Belə ki, hətta Rəsulallah (s) hədislərin birində buyurmuşdur: «Kim, daş yeyən quş yuvası ölçüsündə də olsa belə, məscid tikərsə, Allah-Təala onun üçün Behiştdə bir ev tikər.»

### 3. *Məscid memarlığı*

İslami rəvayətlərdə məscid memarlığı ünvanı altında heç bir təlimatlar toplusu mövcud deyil. Məscid tikməyin zaman-məkan çərçivəsində tələb olunan şəraitə bağlı olduğu vurğulansa da, dini rəhbərlərimizin (ə) bu barədə olan bir sıra tövsiyələrindən «İslamda məscid memarlığı mədəniyyəti» ünvanı altında bu nəticələrə gəlmək olar:

#### a. *Gələcəyin tələblərini nəzərə almaqla məscidin sahəsini müəyyənləşdirmək*

Bir sıra rəvayətlərdən anlaşılan ilk tövsiyə, məscidin tikilişi zamanı təkcə camaatın hal-hazırki ehtiyacı deyil, imkan daxilində, gələcək nəsillərin tələbləri də diqqət mərkəzində saxlanılmalıdır. Belə ki, bu yolla məscidin genişləndirmək məqsədilə sökülərək yenidən tikilməsinə çox az ehtiyac duyular. Rəvayətdə Rəsulallahın (s) özlərinə məscid tikmək istəyən bir qrup ənsara belə buyurdugu nəql edilir: *«Məscidi geniş və böyük tikin ki, gələcəkdə onu dolduracaqsınız.»*

#### b. *Məscidin tikilişində sadəliyə riayət etmək*

Allahın Rəsulunun (s) məscid memarlığı haqqında buyurduğu kəlamlar və ya onun qızılla, rəsm və şəkillə bəzəməkdən çəkindirdiyi hədislər məscidin tikilişi zamanı sadəliyə riayət etməyin zəruri olmasına işarə edir.

Başqa sözlə desək, məscidin tikilişi zamanı onun hədəflərinə və tikiliş fəlsəfəsinə uyğun olmayan şəkildə memarlıq və nəqqaşlıq sənətindən, sırf onun zahiri cazibəsini artırmaq məqsədilə istifadə etmək tənqid olunmuşdur.

#### c. *Məscidin qeyri-müsəlmanların məbədlərinə bənzədilməsi pislənmişdir*

Ümumiyyətlə, İslam dininə dörə müsəlmanların özlərini digər dini mənsubiyyəti olan şəxslərə bənzətməsi, psixoloji və

ictimai nöqteyi-nəzərdən mənfi nəticələrə səbəb olduğu üçün birmənalı şəkildə qadağan edilmişdir. Necə ki, imam Əli (ə) buyurur: «Özünü bir sıra insanlara bənzədən şəxs, sanki onlardan birinə çevrilmişdir.»[5]

Məscidin tikiliş formasına gəlincə, belə nəzərə gəlir ki, bəzi rəvayətlərdə məscidlərin (xüssi təmtəraq və cah-cəlalla inşa olunmasına qarşı çıxılmasının səbəbi, məhz onların xristian və yəhudilərin məbədlərinin tikiliş formasında bina edilməsinə görədir. Peyğəmbəri-əkrəm (s) buyurur: «Sanki, sizin məndən sonra məscidlərinizi (yəhudi məbədləri və xristian kilisələrində olduğu kimi yersiz cah-cəlal içində) eyvanlarla dolu olduğu halda ucaldılmış şəkildə görürəm.

Bundan əlavə, bir sıra rəvayətlərdə imam Əlinin (ə) yəhudilərin qurbangahlarına bənzəyən mehrabları dağıtdığına işarə olunmuşdur. Digər bir hədisdə oxuyuruq: «Həzrət Əli (ə) məscidlərdəki mehrabları müşahidə etdikdə, onları yerlə-yeksan edirdi. O, buyurur (ə): «Bu mehrablar yəhudilərin qurban kəsdikləri yerə oxşayır.»[6]

Diqqət yetirmək lazımdır ki, məscidlərin yəhudi və xristian məbədlərinə oxşamaması barəsindəki hökm, digər dinlərə məxsus olan məbədlərə də aid edilir.

---

[5] «Nəhcul-bəlağə», hik. 207; «Mizanul-hikmə», c: 5, səh: 475.

[6]«Cəvahirul-kəlam» kitabının müəllifi dəyərli fəqih, keçmiş fəqihlərin bu haqda olan nəzərlərini və onların məscidlərdə mehrab düzəldilməsinin məkruh olması haqqında olan fikirlərini şərh edərkən belə nəticə alır: «Məsciddə, yalnız aşağıdakı üç formada mehrab düzəltmək məkruhdur: Məqsurə tikmək, böyük bir ölçüdə divarın içinə doğru girmiş, məqsurəyə oxşayan mehrab və bəzi məscidlərdə xüsusi şəkildə ayrıca, müstəqil formada tikilmiş yəhudi qurbangahlarına bənzəyən mehrab... Amma divarda azca izi olan və qibləni tanıtdırmaq məqsədi ilə düzəldilən dz az bir miqdarda divarın içərisinə doğru yönləndirilmiş olan mehrab heç bir şəkildə məkruh deyil. Necə ki, yaşadığımız zamanda adət halını almış və heç bir mənfi təsirə malik olmayan mehrablar, müsəlmanlar tərəfindən məqbul sayılır. Doğrusu, çox az məscid tapılar ki, orada belə mehrablar mövcud olmasın («Cəvahirul-kəlam», c: 5, səh: 282).

### *4. Məscidin ehtiramını saxlamaq*

Məscid, insanın Tanrı ilə rabitə saxladığı məxsus bir məkan olduğuna və həmçinin, Allahın evi sayıldığına görə İslam dinində xüsusi hörmətə malikdir. Belə ibadət məkanlarına hörmət bəsləməyin İslam ümməti arasında dini bir mədəniyyət və vəzifə şəklini alması üçün çoxsaylı hədislərimizdə məscidə xas olan hökmlər və ədəb-ərkan qanunlarından əlavə, hətta bəzi rəvayətlərdə də onu«müsəycid» (kiçik məscid) adlandırmaq belə tənqid olunmuşdur. Həzrət Peyğəmbər (s) buyurur: «Heç bir vaxt məscidə «müsəycid» deməyin! Çünki məscid, Tanrıya ibadət olunan Allah evidir.»

### *5. Məscidə getmək*

Məscid tikməyin hədəfi yalnız insanların oraya gəlib, onun xeyir və bərəkətlərindən bəhrələnməsi üçündür. Elə bu səbəbdən də, dini-mənəvi dəyərlərin möhkəmlənməsi və yayılması yolunda addım atmaq istəyən hər bir kəs, insanların məscidlərə müraciət etməsinə şərait yaratmalıdır. Bu haqda dini rəhbərlərimizin göstərişləri və tövsiyələri mövcuddur.

İslami rəvayətlərdə bəhs etdiyimiz məsələyə xüsusi olaraq təkid edilmiş və hətta məscidlərin yalnız xalqın hüzuru ilə abad olduğu dəfələrlə vurğulanmışdır. Allahın Rəsulu (s) buyurur: «Hər zaman bir kişinin ardıcıl olaraq məscidə getdiyini görsəniz, onun imanlı olduğuna şəhadət verin. Allah-Təala buyurur: «Allahın məscidlərini, yalnız Ona və Qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abad edərlər.»

Şübhəsiz, işarə olunan hədis, məscidlərin təkcə təmir olunması və zahiri görünüşdə abad saxlanılması ilə deyil, yalnız xalqın oraya gəlib ibadətlə məşğul olmalarıyla birgə olduqda, həqiqətən də, abad olacağını bildirir. Əgər belə olmazsa, deməli, məscid hər nə qədər də zahiri görünüşündə mötəşəm olsa belə, həqiqətdə, abad deyildir.

İslami rəvayətlər müxtəlif ibarələr və cürbəcür ifadələrlə insanları məscidə gəlməyə həvəsləndirmiş və oraya gələn şəxslər üçün böyük savab və Cənnət hədiyyələri nəzərdə tutmuşdur:

– Məscidə tərəf yola düşən şəxs, evinə qayıdana qədər atdığı hər addımın qarşılığında on savab qazanar. Həmçinin, onun əməl dəftərindən on günah silinər və nəticədə o, on mərtəbə ucalar.

– Qaranlıq gecədə məscidə getmək, Qiyamət günü məscid əhlinə xüsusi bir nuraniyyət bəxş edər.

– Məsciddən uzaqda yerləşən məkanlardan (oraya ibadət etməyə) gələnlər daha çox savab qazanarlar.

– Hər kim hamıdan qabaq məscidə gedərsə, Allaha və Behiştə daha yaxın olar.

– Məsciddə oturmaq ibadətdir. Məscidlə ünsiyyət yaratmaq, Allah-Təala ilə ünsiyyət yaratmaq deməkdir.

– Bağışlanmaq və İslam maarifi öyrənmək məqsədi ilə məscidə getmək həcc ziyarətinin savabına malikdir. Bunlardan əlavə, müsəlmanları (evdə deyil) məsciddə namaz qılmağa və həmçinin ən fəzilətli və camaatın daha çox gəldiyi, izdihamlı məscidlərdə ibadət etməyə həvəsləndirmək üçün Məscidül-həramda namaz qılmaq (başqa məscidlərdə qılınan) yüz min namazın savabına, Peyğəmbərin (s) məscidində namaz qılmaq, on min namazın savabına, Məscidül-əqsada namaz qılmaq min namazın savabına, cümə məscidlərində qılınan namaz yüz namazın savabına, yaşadığın ərazinin məscidində qılınan namaz iyirmi beş namaza, bazar məscidində qılınan namaz isə on iki namazın savabına bərabərdir. Halbuki, (məscidə və camaat namazına etinasızlıq üzündən olmadığı halda) evdə qılınan namaz isə elə həmin namazın (bir namazın) savabını daşıyır.

Məsciddə namaz qılmağı üzrsüz səbəbdən tərk etmək qəflət və cahillik nişanəsi və təfriqə sayılmışdır. İslami

hədislərdə məscidin qonşuluğunda yaşayan şəxslərin yalnız məsciddə namaz qılması tövsiyə edilmişdir. Qonşularının orada namaz qılmadığı məscidin (Qiyamət günü) Allah-Təalaya belə şikayət edəcəyi buyurulur: «Məscidlər oraya gəlməyən qonşularından Allah-Təalaya şikayət etdi. Allah-Təala da, belə buyurdu: «And olsun izzəti-cəlalıma ki, onların heç bir namazını qəbul etməyəcəm, xalq arasında onları ədalətli tanıtmayacam, onlarla mərhəmətli davranmayacam və Behiştdə mənim qonşum ola bilməyəcəklər!»

### 6. *Məscidin ehkam və qayda-qanunlarına riayət etmək*

Məscidin ehkam və qayda-qanunlarına riayət etmək özü də bir mədəniyyətdir. Məscid Allahın evidir. Məscidə gedən şəxs, həqiqətdə, Allah-Təala ilə görüşə gedir. Elə buna görə də, məscidə xas olan bəzi qayda-qanunlara və ədəb-ərkanlara riayət etmək lazımdır. Məscidə, yalnız Allaha xatir, ilahi eşqi ilə, qəlbini günahlardan pak etdikdən, bədənini və geyimini nəcasətdən təmizlədikdən sonra getmək lazımdır. Şeytandan Allaha pənah aparmaq, məscidə daxil olduqda və oranı tərk etdikdə dua oxumaq, təhiyyət (salam) namazı qılmaq, üzü qibləyə oturmaq, oradan tez getməmək və sair... məscidin bəyənilmiş ədəb-ərkanlarından sayılır. Başqa cəhətdən isə bəzi əməllər; məsciddə namaz qılmadan oradan keçib-getmək, uca səslə danışmaq, dünyəvi işlərdən söhbət açmaq, itirdiyin malın elanını verib, onu axtarmaq, bihudə və dəyərsiz şerlər söyləmək, ticarətlə məşğul olmaq və heç bir zərurət daşımadığı halda məsciddə yatmaq bəyənilməmişdir. (Yediyi yeməklərə görə) ağzından başqalarına əziyyət edən pis qoxular gəldiyi halda məscidə getmək də məkruh sayılır. Həmçinin, məscidi nəcasətə bulamaq, haram və oranı nəcasətdən təmizləmək isə vacibdir. Cənabətli və heyzli halda məsciddə dayanmaq haramdır.

### 7. *Məscidə xidmət etmək*

Allahın evinə xidmət göstərmək böyük fəxir və çox bəyənilən bir əməldir. İbrahim (ə), İsmayıl (ə) və Məryəm (s.ə) məscidə xidmət etmək şərəfinə və iftixarına sahib olmuşlar. Peyğəmbərdən (s) rəvayət olunmuş bir hədisdə buyurulur: «Həqiqətən, Allah-Təala sevdiyi bəndəsini məscidə xidmətçi təyin edər.»

Deməli, İslam dininə görə məscidə dəyərli və ləyaqətli şəxslər xidmət etməlidir.

### 8. *Tarixi əhəmiyyəti olan məscidləri dəyərləndirmək*

Bir sıra məscidlər daha çox fəzilət və üstünlüklərə malikdir. Məsələn; bütün müsəlmanların qibləsi olan Kəbə, Məscidül-həramda yerləşir. Məscidün-nəbi (Peyğəmbərin (s) məscidi), Məscidül-həramdan sonra ən fəzilətli məscid sayılır. Məscidül-əqsa isə Kəbədən öncə müsəlmanların qıbləsi olduğu üçün xüsusi hörmətə sahibdir. Quba,[7] Kufə, Səhlə, Xəyf, Qədir, Fəth və Fəzih məscidləri çoxsaylı xeyir və bərəkətlərə malikdir ki, bu barədə müxtəlif rəvayətlər mövcuddur.

İslami rəvayətlərin belə məscidlərin fəzilət və üstünlüklərinə təkid etməsi, dinimizin peyğəmbərlərin və övliyaların xeyir-bərəkətlərindən bəhrələndiyi bu qədim və tarixi əhəmiyyət daşıyan məscidlərə dəyər verərək, müsəlmanları onları lazımınca qiymətləndirməsinə həvəsləndirməsindən xəbər verir.

### 9. *Evlərdə məscid tikmək*[8]

Şiə və əhli-sünnənin hədis mənbələrinə əsasən, evlərdə təmiz və səliqəli bir məkanın namaz qılmaq üçün ayrılması

---

[7] Məqsəd, Mədinə şəhərinin cənubunda yerləşən Quba məscididir (Mütərcim).

[8] Məqsəd, evdə ibadət etmək üçün namazxana düzəltməkdir (Mütərcim).

tövsiyə edilmişdir. Bu hədislərdən belə nəticəyə gəlmək olar ki, insan öz evində maddi ehtiyaclarını təmin etmək üçün xüsusi bir məkan ayırdığı halda, təbii ki, mənəvi ehtiyaclarını təmin etmək üçün də məxsus bir məkanı qərarlaşdırmalıdır.

Əlbəttə, dinimizin vacib namazların məsciddə qılınması haqda olan çoxsaylı göstərişlərinə və israrlarına görə, evdə qurulan namazxana məscid hökmündə deyil. Bu məkan, yalnız müstəhəbb namazların qılınması üçün daha uyğundur. Necə ki, Allahın Rəsulu (s) buyurur: «Ən fəzilətli namazlar, vacib namazlar istisna olmaqla, insanın öz evində qıldığı namazlardır.»[9]

### *10. Müqəddəs məkanlardan sui-istifadə olunmamasına diqqət etmək*

Məscid ilahi nurdur! Bu dəyərli məkan doğru yola yönəltmək və insanın Allah-Təala ilə rabitə saxlamasına ən gözəl yardımçı olduğu halda, eyni zamanda İslam müxaliflərinin siyasi, mədəni və ictimai hədəflərini də təmin edə bilər. Buna görə də, müsəlmanlar qeyri-ilahi, təfriqəçilik və fəsadla dolu məqsədlər güdən bəzi şəxslərin hiylələrinə uymamalı və bu sahədə olduqca diqqətli davranmalıdırlar.

On ikinci fəsildə «Tənqid olunmuş məscidlər» ünvanı altında mövcud olan ayə və rəvayətlər İslam müxaliflərinin bütün müqəddəs şeylərdən, hətta müqəddəs məscidlərdən belə sui-istifadə edə biləcəklərinə işarə edir. Bu səbəbdən də, İslam ümmətinin, müxalif və qərəzli qüvvələrin müqəddəs məkanlardan öz çirkin məqsədləri üçün istifadə etməmələri üçün ayıq-sayıq olması lazımdır. İslam dininin formalaşdığı ilk illərdə Zirar məscidi münafiqlərin pis hədəflərini təmin etmək üçün inşa olunsa da, Rəsulallahın (s) göstərişi ilə yerlə-yeksan edildi.

---

[9] «Səhihi-Buxari», c: 1, səh: 256, həd: 698; «Səhihi-Muslim», c: 1, səh: 540, həd: 213.

## *1-Cİ FƏSİL: MƏSCİDİN FƏZİLƏT VƏ ÜSTÜNLÜKLƏRİ*

### *MƏSCİD ALLAHIN EVİDİR*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**1.** Allah-Təala buyurdu: «Agah olun! Mənim yer üzərindəki evlərim məscidlərdir. Onlar, göylərdən yerdəki insanları nura qərq edən ulduzlara bənzəyirlər.»[10]

**2.** Məscidlər Allahın yer üzündəki evləridir. Deməli, Allah, görüşünə gələn şəxsi (qonağı özü) əzizləməlidir.[11]

**3.** Qurani-kərimə məhəbbət bəsləyən şəxs, məscidləri də sevməlidir. Çünki məscidlər ilahi dərgahın və Tanrı mülküdür. Onların (minarələrinin) ucaldılmasına icazə vermiş və bərəkətli etmişdir. Məscidlər və məscid əhli bərəkətlidir. Məscidlər və məscid əhli (ilahi gözəllik və xeyir-duası ilə) zinətlənmişdir. Məscidlər və məscid əhli (ilahi bəlalardan və günah girdablarından) amandadırlar. Məscid əhli öz namazlarının və Allah-Təala da onların ruzisinin qeydinə qalır. Onlar öz məscidlərindədirlər və Allah-Təala onlara arxa-dayaqdır.[12]

### *MƏSCİD ALLAHIN NURUDUR*

**4. Həzrət Məhəmməd (s):** «Məscidlər Tanrı nurlarıdır.»[13]

---

[10] «Səvabul-əmal», səh: 47, həd: 2; «Əl-Məhasin», c: 1, səh: 119, həd: 124 (Hər iki hədisi Abdullah ibn Cəfər atasından rəvayət edir); «Məkarimul-əxlaq», c: 2, səh: 60, həd: 2146; «Əvaliyul-ləyali», c: 1, səh: 351, həd: 5; «Biharul-ənvar», c: 84, səh: 14, həd: 92.

[11] «Əl-Mucəmul-kəbir», c: 10, səh: 161, həd: 2146 (Abdullah rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 580, həd: 20347 (Hakimin «Tarix» kitabında İbn Abbas və s... rəvayət edir).

[12] «Mustədrəkul-vəsail», c: 3, səh: 355, həd: 3766 (Qütb əl-Ravəndinin «Lubbul-əlbab» kitabından istifadə etmişdir).

[13] «Mustədrəkul-vəsail», c: 3, səh: 448, həd: 3962 (Qütb əl-Ravəndinin «Lubbul-əlbab» kitabından istifadə etmişdir).

## *MƏSCİD PEYĞƏMBƏRLƏRİN MƏCLİSİDİR*

**5. İmam Əli (ə):** «Məscidlər peyğəmbərlərin məclisi və Şeytandan qorunmaq vasitəsidir.»[14]

## *MƏSCİD İLAHİ ÖVLİYALARIN ŞƏHADƏT YERİDİR*

**6. İmam Sadiq (ə):** «Elə bir məscid yoxdur ki, Peyğəmbərin (s) qəbri və ya onun qətlə yetirilmiş canişininin qanı üzərində qurulmamış olsun. Allah-Təala belə məkanda ibadət olunmağı sevir. Buna görə də, orada həm vacib, həm də müstəhəbb namaz qıl və həmçinin (orada) qəza namazlarını da yerinə yetir.»[15]

## *MƏSCİD HƏR PƏHRİZKAR İNSANIN SARAYIDIR*

***Həzrət Məhəmməd (s) buyurmuşdur:***

**7.** Məscid hər təqvalı insanın sarayıdır.[16]

**8.** Məscid hər bir möminin evidir.[17]

## *MƏSCİDLƏR ƏN DƏYƏRLİ MƏKANLARDİR*

***Həzrət Məhəmməd (s) buyurmuşdur:***

---

[14] «Əl-Cameul-əxlaqir-ravi və adabus-same», c: 2, səh: 60, həd: 1181 (Xəsimə ibn Əbdür-Rəhman rəvayət edir); «Ədəbul-imla vəl-istimla», c: 1, səh: 256, həd: 113 (Xəsimə ibn Əbdür-Rəhman rəvayət edir); «Kənzul-ummal», c: 8, səh: 319, həd: 23097; «Mustədrəkul-vəsail», c: 3, səh: 363, həd: 3786 (Qütb əl-Ravəndinin «Lubbul-əlbab» kitabından istifadə etmişdir).

[15] «Əl-Kafi», c: 3, səh: 370, həd: 14; «Təhzibul-əhkam», c: 3, səh: 258, həd: 723; «Biharul-ənvar», c: 14, səh: 463, həd: 31.

[16] «Əl-Mucəmul-kəbir», c: 6, səh: 255, həd: 6143; «Musnəduş-şəhab», c: 1, səh: 78, həd: 73 (Hər iki hədisi Süleyman rəvayət edir.) və səh: 77, həd: 72; «Şobul-iman», c: 7, səh: 379, həd: 10657; «Hilyətul-ovliya», c: 1, səh: 214 (Hər iki hədisi Əbi Dərda rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 580, həd: 20349; «Əl-Məvaizul-ədədiyyə», səh: 17.

[17] «Hilyətul-ovliya», c: 6, səh: 176 (Süleyman rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 650, həd: 20736.

**9.** Cəbrayıl (ə) nəql edir: «Allah-Təala buyurdu: «Məscidlər ən dəyərli məkanlardır.»[18]

**10.** Allah-Təalanın yanında ən sevimli yerlər məscidlərdir.[19]

**11.** Yer üzərindəki ən dəyərli məkanlar dörddür: Kəbə, Beytül-müqəddəs, Quran oxunan ev və məscidlər.[20]

**12. İmam Sadiq (ə):** «Allah-Təala yer üzündəki altı məkanı seçmişdir: Beytullahül-həram (Kəbə), hərəm, peyğəmbərlərin məzarları, (onların) canişinlərinin qəbirləri, şəhidlərin qətlgahları və Tanrıya ibadət olunan məscidlər.»[21]

## *MƏSCİDLƏR BEHİŞT BAĞLARIDIR*

**13. Rəsulallah (s):** Məscidlər Behişt bağlarıdır.[22]

**14.** Allahın Rəsulu (s) buyurdu: «Behişt bağlarına yolunuz düşdükdə orada gəzin». Soruşdum: «Ey Allahın Rəsulu (s)! «Behişt bağları»ndan məqsəd nədir?» Buyurdu: «Məscidlər.» Dedim: «Ey Allahın Rəsulu (s)! «Gəzmək»dən məqsəd

---

[18] «Əl-Mustədrəku ələs-Səhihəyn», c: 1, səh: 168, həd: 306 və c: 2, səh: 10, həd: 2149; «Səhihi-İbn Həbban», c: 4, səh: 476, həd: 1599; «Əs-Sunənul-kubra», c: 3, səh: 92, həd: 4984 və c: 7, səh: 81, həd: 13332 (Bütün hədisləri ibn Ömər rəvayət edir); «əl-Mucəmul-əvsəd», c: 7, səh: 155, həd: 7140 (Ənəs ibn Malik rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 648, həd: 20720; «Mən la yəhzəruhul-fəqih», c: 3, səh: 199, həd: 3751 (İmam Əli (ə) rəvayət edir); «Məanil-əxbar», səh: 168, həd: 1 (Müfəzzəl ibn Səid imam Baqir (ə) vasitəsilə Peyğəmbərdən (s) rəvayət edir); «Biharul-ənvar», c: 84, səh: 11, həd: 87.

[19] «Səhihi-Muslim», c: 1, səh: 464, həd: 288; «Səhihi-İbn Həbban», c: 4, səh: 477, həd: 1600; «Səhihi-İbn Xuzeymə», c: 2, səh: 269, həd: 1293; «Əs-Sunənul-kubra», c: 3, səh: 92, həd: 4983; «Musnəduş-şəhab», c: 2, səh: 253, həd: 1301 (İbn Abbas rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 648, həd: 20719; «Tənbihul-xəvatir», c: 1, səh: 69 və c: 2, səh: 235.

[20] «Əl-Məvaizul-ədədiyyə», səh: 211.

[21] «Kamiluz-ziyarat», səh: 241, həd: 358 (Abdullah ibn Bəkir rəvayət edir); «Biharul-ənvar», c: 101, səh: 66, həd: 57.

[22] «Əl-Firdəvs», c: 5, səh: 305, həd: 8267; «Kənzul-ummal», c: 7, səh: 647, həd: 20721 (Əbu Şeyxin «Savab» kitabından istifadə edilmişdir).

nədir?» Buyurdu: «Subhənəllah vəl-həmdulilləh və lə ilahə illəl-lah vəllahu əkbər (soyləmək).»[23]

[23] «Sunəni-Tirmizi», c: 5, səh: 532, həd: 3509; «Kənzul-ummal», c: 7, səh: 651, həd: 20739.

## *2-Cİ FƏSİL: MƏSCİDİN XEYİR-BƏRƏKƏTLƏRİ*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**15.** Məscidlərə gedib-gəlmək (ilahi tərəfindən bir) rəhmət, ondan uzaqlaşmaq isə nifaqdır.[24]

**16.** Bəlaların və müsibətlərin nazil olduğu vaxt məscid əhli amanda olar.[25]

**17.** Allah-Təala bəla nazil etmək istədikdə, məscid əhlinə baxar və bəlanı onlardan uzaq tutar.[26]

**18.** Əzəmətli, qüdrət və cəlal sahibi Allah bir məntəqənin insanlarını tüğyan içində gördükdə, onların arasında üç mömin şəxs olarsa, o insanlara deyər: «Ey mənə itaət etməyənlər! Sizin aranızda bir-birləri ilə mənim əzəmətli və izzətli adıma xatir dostluq edən, namaz qılmaqla yer üzünü və mənim məscidlərimi abad edən və səhərlər mənim qəzəbimdən qorxduqları üçün bağışlanmağı diləyən şəxslər olmasaydı, şübhəsiz ki, tərəddüd etmədən öz əzabımı sizə nazil edərdim.»[27]

**19.** Daimi olaraq məscidə gedib-gələn şəxs, bu səkkiz nemətdən birini əldə edər: Allah yolunda bəhrələnə biləcəyi bir (din) qardaşı; lətif və dəyərli elm; onu doğru yola yönəldəcək kəlam və ya azğınlıqdan uzaqlaşdıran söz; onun intizarını çəkən ilahi rəhməti; (Tanrı qarşısında) xəcalət

---

[24] «Kənzul-ummal», c: 7, səh: 570, həd: 20302 (Deyləmi ibn Abbasdan nəql edir).

[25] «Əl-Cəfəriyyat», səh: 39 (İmam Kazım (ə) ata-babalarından nəql edir).

[26] «Kənzul-ummal», c: 7, səh: 285, həd: 18898 (İbn Ədi və Deyləmi, Ənəsdən nəql edir).

[27] «İləluş-şərayə», səh: 522, həd: 3 (Məsədət ibn Sədəqə imam Baqirdən (ə) və o həzrət də ata-babaları vasitəsilə imam Əlidən (ə) nəql edir); «Mişkatul-ənvar», səh: 222, həd: 616; «Biharul-ənvar», c: 73, səh: 381, həd: 3.

çəkərək günahdan uzaqlaşmaq və ya Allahdan qorxaraq pis işlərdən çəkinmək.[28]

**20. İmam Əli (ə):** «Allah-Təala yer üzündəki (günahkar) insanlara bəla nazil etmək istədikdə, buyurar: «Sizin aranızda bir-birləri ilə mənim əzəmətli və izzətli adıma xatir dostluq edən, məscidlərimi abad edən və səhərlər bağışlanmağı diləyən şəxslər olmasaydı, şübhəsiz ki, tərəddüd etmədən öz əzabımı sizə nazil edərdim.»[29]

**21. İmam Sadiq (ə):** «(Fəzl ibn Əbdül-Məlikə müraciətlə) Ey Fəzl! Hər qəbilədən yalnız seçilmiş şəxslər və hər tayfadan ancaq əsl-nəcabətli insanlar məscidə gedər. Ey Fəzl! Məscidə gedən şəxs ən azı bu üç şeyi qazanar: Ya elə dua edəcək ki, Allah-Təala ona görə onu Behiştə aparacaq, ya elə bir dua edəcək ki, Allah-Təala dünyəvi bəlaları ondan uzaq tutacaq.

---

[28] «Xisal», səh: 410, həd: 11 (Əmir ibn Məmun imam Həsəndən (ə) nəql edir); «Təhzibul-əhkam», c: 3, səh: 249, həd: 681; «Səvabul-əmal», səh: 46, həd: 1; «Əl-Əmali-Tusi», səh: 432, həd: 969 (Bütün hədisləri Əsbə ibn Nəbatə imam Əlidən (ə) nəql edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 237, həd: 713 (İmam Əli (ə)); «Tuhəful-uqul», səh: 235 (İmam Həsən (ə)); «Qurbul-isnad», səh: 68, həd: 219 (Məsədə imam Sadiq (ə) və o həzrət də ata-babaları vasitəsilə imam Həsəndən (ə) nəql edir); «Biharul-ənvar», c: 89, səh: 2, həd: 72; «Əl-Mucəmul-kəbir», c: 3, səh: 88, həd: 2750 (Əmir ibn Məmun imam Həsəndən (ə) nəql edir); «Kənzul-ummal», c: 7, səh: 570, həd: 20303.

[29] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 473, həd: 1369; «Səvabul-əmal», səh: 212, həd: 1 (Səkunu imam Sadiq (ə) vasitəsilə məsum imamlardan (ə) rəvayət edir); «İləluş-şərayə», səh: 521, həd: 1; «Məsailu-Əli ibn Cəfər», səh: 344, həd: 848 (Hər iki hədisi Əli ibn Cəfər, qardaşı imam Kazım (ə) vasitəsilə o həzrətin atasından (ə) nəql edir); «Əl-Məhasin», c: 1, səh: 126, həd: 143 (Musa ibn Sabiq imam Sadiq (ə) vasitəsilə o həzrətin atasından (ə) nəql edir); «Əl-Cəfəriyyat», səh: 229 (İsmayıl atası imam Kazım (ə) vasitəsi ilə o həzrətin ata-babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 73, səh: 382, həd: 4.

Ya da ki, Allah yolunda bəhrələnə biləcəyi bir (din) qardaşı qazanacaq.[30]

[30] «Əmali-Tusi», səh: 47, həd: 57; «Bəşarətul-Mustafa» (s), səh: 72 (Hər iki hədisi Əbu Abbas Fəzl İbn Əbdül-Məlik rəvayət edir); «Biharul-ənvar», c: 78, səh: 195, həd: 16.

## *3-CÜ FƏSİL: MƏSCİD TİKMƏK*

### *3.1 MƏSCİD TİKMƏYİN VƏ ONU ABADLAŞDIRMAĞIN FƏZİLƏTLƏRİ*

**Qurani-kərim: «Allahın məscidlərini, yalnız Allaha və Qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar təmir edə bilərlər (yalnız bu qəbildən olan şəxslərin əməlləri Allah dərgahında qəbul olunar). Məhz onlar doğru yola yetişənlərdən ola bilərlər!»**[31]

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**22.** Kim, (xırda) daşla yemlənən quşun yuvası ölçüsündə belə olsa, məscid inşa etdirsə, Allah ona Behiştdə ev hazırlayacaqdır.[32]

**23.** kim Allah yolunda bir məscid tikdirsə, Allah da, Behiştdə ona belə bir ev bina edəcəkdir.[33]

**24.** Kim Allah yolunda bir məscid inşa etdirsə, Allah onun üçün Behiştdə ondan daha geniş bir ev əta edəcəkdir.[34]

---

[31] «Tövbə» surəsi, ayə: 18.

[32] «Əmali-Tusi», səh: 183, həd: 306 (Əbu Qulabə rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 235, həd: 703 (İmam Baqir (ə)); «Əl-Məhasin», c: 1, səh: 127, həd: 147 (Hişam əl-Xilal imam Sadiqdən (ə) nəql edir); «Dəaimul-İslam», c: 1, səh: 150; «Biharul-ənvar», c: 77, səh: 121, həd: 20; «Sunəni-İbn Macə», c: 1, səh: 244, həd: 738 (Cabir rəvayət edir); «Musnədi-İbn Hənbəl», c: 1, səh: 519, həd: 2157 (İbn Abbas rəvayət edir); «Musnədi-Əbu Yəla», c: 4, səh: 221, həd: 4282 (Ənəs rəvayət edir); «Hilyətul-ovliya», c: 4, səh: 217 (Əbuzər rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 650, həd: 20731.

[33] «Sunəni-Tirmizi», c: 2, səh: 134, həd: 318; «Səhihi-Buxari», c: 1, səh: 173, həd: 439; «Səhihi-Muslim», c: 4, səh: 2287, həd: 43; «Sunəni-İbn Macə», c: 1, səh: 243, həd: 734; «Sunəni-Darəmi», c: 1, səh: 344, həd: 1364; «Musnədi-İbn Hənbəl», c: 1, səh: 135, həd: 434 (Bütün hədisləri Osman ibn Əffan rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 469, həd: 20730; «Musnədi-Zeyd», səh: 1554 (Zeyd ibn Əli babalarından (ə) nəql edir); «Rovzətul-vaizin», səh: 370.

**25.** Kim Allah yolunda halal qazancla, Tanrıya ibadət olunmaq üçün bir bina (məscid) tikdirsə, Allah-Təala da, ona Behiştdə mirvari və yaqutdan tikilmiş bir ev verər.[35]

**26.** (Merac gecəsi Behişt darvazalarına yazılmış yazılardan birində gördüm ki,) «Kim qəbir evinin geniş və rahat olmasını istəyirsə, məscid tiksin!»[36]

**27.** Ölümündən sonra möminə (savabı) çatacaq xeyir əməllərindən öyrənib öyrətdiyi elm, ... və tikdiyi məsciddir.[37]

**28.** Beş insan qəbir evində rahat, asudə olar və əməlinin savabını ardıcıl olaraq alar... və (bunlardan biri də) məscid inşa etdirən şəxsdir.[38]

**29.** Tanrı evini abab edən şəxslər Allahın ailəsi sayılır.[39]

**30.** Allah-Təala Qiyamət günü buyurar: «Mənim qonşularım haradadır?» Mələklər soruşarlar: «Kim sənin qonşun olmağa layiqdir?» Allah-Təala buyurar: «Məscidimi abadlaşdıran şəxslər.»[40]

---

[34] «Musnədi-İbn Hənbəl», c: 10, səh445, həd: 27683 (Əsma binti Yəzid rəvayət edir); «Əl-Mucəmul-kəbir», c: 8, səh: 225, həd: 7889 (Əbi Ümamə rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 650, həd: 20734.

[35] «Əl-Mucəmul-əvsət», c: 5, səh: 195, həd: 5059; «Kənzul-ummal», c: 7, səh: 654, həd: 20758.

[36] «Əl-Fəzail», səh: 129 (İbn Məsud Rəvayət edir); «Biharul-ənvar», c: 8, səh: 144, həd: 67.

[37] «Sunəni-İbn Macə», c: 1, səh: 88, həd: 242; «Səhihi-İbn Xəzimə», c: 4, səh: 121, həd: 2490; «Təfsiri-Qurtubi», c: 19, səh: 99; «Kənzul-ummal», c: 15, səh: 952, həd: 43657.

[38] «Cameul-əxbar», səh: 283, həd: 756; «Biharul-ənvar», c: 104, səh: 97, həd: 59.

[39] «Əs-Sunənul-kubra», c: 3, səh: 93, həd: 4989; «Əl-Mucəmul-əvsət», c: 3, səh: 67, həd: 2502; «Musnədi-Əbu Yəla», c: 3, səh: 376, həd: 3393; «Musnədi Əbd ibn Həmid», səh: 386, həd: 1291 (Bütün hədisləri Ənəs rəvayət edir); «Kənzul-ummal», c: 5, səh: 5, həd: 11792.

[40] «Hilyətul-ovliya», c: 10, səh: 313 (Əbu Səid Xidri rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 578, həd: 20338 (İbn Nəccar, Ənasin vasitəsilə nəql edir).

## *3.2 YOL ÜZƏRİNDƏ MƏSCİD İNŞA ETMƏK*

**31.** Əbu Qursafə nəql edir: «Həzrət Məhəmməd (s) buyurdu: «Kim Allah yolunda bir məscid tikdirsə, Allah da Behiştdə ona bir ev bina edəcəkdir.» Bir kişi soruşdu: «Ey Allahın Rəsulu! Yol üzərində qurulmuş məscidlər də buna aiddir? Peyğəmbər buyurdu: «Bəli.»[41]

**32.** Hişam ibn Həkəm, Əbu Ubeydə Həzzadan nəql edir: «İmam Sadiq (ə) buyurdu: «Kim Allah yolunda bir məscid inşa etdirsə, Allah ona Behiştdə bir ev əta edəcəkdir.»

İmam Sadiq (ə) Məkkə yolunda məni yol kənarında məscid tikmək üçün daş hazırlayarkən gördü. Soruşdum: «Sənə qurban olum! Bu məscid də sölədiyiniz savaba malikdir?» Buyurdu: «Bəli.» [42]

## *3.3 MƏSCİDÜN-NƏBİNİN PEYĞƏMBƏRİN (Ə) TƏŞƏBBÜSÜ İLƏ İNŞA OLUNMASI*

**33.** Ənəs ibn Malikdən rəvayət edilir: «Peyğəmbərin (s) məscidinin (Məscidün-nəbi) tikildiyi yer Bəni-Tüccar tayfasına aid idi. Orada xurma ağacları və müşriklərin qəbirləri yerləşirdi. Rəsulallah (s) onlara buyurdu: «Bu yerin qiymətini söyləyin.» Dedilər: «Biz bu yer üçün sizdən heç bir şey istəmirik.»

Peyğəmbər (s) məscidi tikir və onlar da, (daş və suvaq) çatdırırdılar. O həzrət (s) buyurdu: «Əsl həyat, Axirət həyatıdır. (İlahi!) Ənsar və muhacirləri əfv et!» Peyğəmbər (s)

---

[41] «Əl-Mucəmul-kəbir», c: 3, səh: 19, həd: 2521; «Tarixi-Dəməşq», c: 1, səh: 110; «Kənzul-ummal», c: 7, səh: 655, həd: 20766.

[42] «Əl-Kafi», c: 3, səh: 368, həd: 1; «Təhzibul-əhkam», c: 3, səh: 264, həd: 748; «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 235, həd: 704; «Əl-Məhasin», c: 1, səh: 128, həd: 148 (Hər iki hədis «İxtisar» adlı kitabda mövcuddur); «Biharul-ənvar», c: 84, səh: 11, həd: 86.

məscidin inşası qurtarmadan öncə də, namaz vaxtı gəlib çatdıqda namaz qılardı.[43]

**34. İmam Sadiq (ə):** «Peyğəmbər (s) məscidini çiy palçıqdan tikdi. Müsəlmanların sayı çoxaldıqdan sonra o Həzrətə (s) dedilər: «Ey Allahın Rəsulu! Kaş ki, məscidin genişlənməsi üşün göstəriş verəydin». Buyurdu: «Olsun.»

O, məscidin genişləndirilməsinə göstəriş verdi. Yenə də müsəlmanların sayı artdı və dedilər: «Ey Allahın Rəsulu! Kaş ki, məscidin genişlənməsi üşün göstəriş versəydin». Buyurdu: «Olsun.»

O, məscidin genişləndirilməsinə göstəriş verdi. Sonra isti hava şəraiti hökm sürdüyünə görə müsəlmanlar dedilər: «Ey Allahın Rəsulu! Kaş ki, məscid üçün dam örtüyünün düzəldilməsinə əmr etsəydin.

Peyğəmbər (s) xurma ağacından (məscidin üstünü örtmək üçün) tirlər düzəldilməsinə göstəriş verdi. Sonra xurma və «izəxr» ağacının budaqları və yarpaqlarının onun üstünə atılmasını söylədi. Beləcə günlər keçdi. Bir gün yağış yağarkən, (məscidin tavanından) onların üzərinə su damlamağa başladı. Müsəlmanlar dedilər: «Ey Allahın Rəsulu! Kaş ki, məscidin tavanının gillə suvanmasına əmr edərdin».

Buyurdu: «Yox, həzrət Musanın (ə) tavanı kimi bir dam örtüyü bizə kifayətdir».

Həzrət Məhəmməd (s) dünyadan gedənə qədər beləcə davam etdi. Məscidin divarı tavansız şəkildə, bir insan boyu hündürlüyündə idi. O Həzrət (s) divarın kölgəsi bir ziraya

---

[43] «Sunəni-İbn Macə», c: 1, səh: 245, həd: 742; «Musnədi-İbn Hənbəl», c: 4, səh: 237, həd: 12179; «Musnədi-Əbu Yəla», c: 4, səh: 174, həd: 4163.

çatdığı zaman günorta namazını, gölgə iki dəfə artdıqda isə əsr namazını qılardı.»[44]

**35.** Abdullah ibn Ömərdən nəql edilir: «Peyğəmbərin məscidi onun zamanında palçıqla bina olunmuş və tavanı xurma ağacının gövdəsindən düzəldilmiş (tirlərlə) və yarpaqsız budaqlar ilə örtülmüşdü. Əbu Bəkr bu binada heç bir dəyişiklik yaratmadı. Amma Ömər onu genişləndirərək, Peyğəmbərin (s) zamanında olduğu kimi xam palçıq və xurma ağacının gövdəsindən hazırlanmış taxtalar və budaqlarla yenidən tikdi. Sonra da, Osman (bu binada) geniş şəkildə dəyişiklik yaradaraq, onun divarını naxışlarla, sütunlarını bəzəkli daşlarla zinətləndirib, tavanını da, «sac» taxtası ilə inşa etdirdi.»[45]

**36.** İbn Ömərdən nəql olunur: «Allahın Rəsulunun dövründə Peyğəmbərin məscidinin sütunları xurma ağacının gövdəsindən düzəldilmişdi. Onun dam örtüyü xurma ağacının yarpaqsız budaqlarından ibarət idi. Əbu Bəkrin xilafəti zamanı bu taxtalar çürüdü və o, yenidən məscidin tavanını xurma ağacının yarpaqsız budaqlarından inşa etdirdi. Osmanın xilafəti dövründə isə bu taxtalar yenə də çürüdü. O, məscidin dam örtüyünü yenidən kərpic ilə inşa etdirdi.»[46]

**37.** Ənəs ibn Malikdən nəql olunur: Allahın Rəsulu (s) (Mədinəyə daxil olduğu zaman) əshabı ilə birlikdə açıq havada, evlərin arxasında (xurmaların qurudulduğu yerdə)

---

[44] «Əl-Kafi», c: 3, səh: 295, həd: 1; «Təhzibul-əhkam», c: 3, səh: 262, həd: 738; «Məanil-əxbar», səh: 195 (Abdullah ibn Sənan rəvayət edir), «Biharul-ənvar», c: 84, səh: 10, həd: 85.

[45] «Səhihi-Buxari», c: 1, səh: 115, həd: 435; «Sunəni-Əbu Davud», c: 1, səh: 123, həd: 451; «Musnədi-İbn Hənbəl», c: 2, səh: 487, həd: 6147; «Səhihi-İbn Xəzimə», c: 2, səh: 282, həd: 1424; (Hər iki hədisi Abdullah rəvayət edir) «Əs-Sunənul-kubra», c: 2, səh: 614, həd: 2494.

[46] «Sunəni-Əbu Davud», c: 1, səh: 110, həd: 252; «Əl-Bidayə vən-nihayə», c: 3, səh: 216; «Əs-Sirətun-nubuvvə li İbn Kəsir», c: 2, səh: 305.

namaz qılırdı. O, Əsəd ibn Zürarəyə buyurdu: «Bu yeri məscid tikmək üçün sahibindən satın al.»

Əsəd ibn Zürarə (oranın sahibi olan) iki yetim uşaqla yerin qiyməti haqqında danışmağa başladı. Onlar: «Biz bu yeri Peyğəmbərə (s) bağışladıq»-dedilər.

Allahın Elçisi (s) isə buyurdu: «Yox. Bu yer satın alınmalıdır!» Nəhayət?, oranı on min dinar müqabilində satın aldılar. Orada bir su çalası var idi. Peyğəmbər (s) onun qarşısını açmağa göstəriş verdi. Sonra isə orada palçıq yoğurmagı əmr etdi. Rəsulallahın (s) özü məscidin bünövrəsini qoydu. Ardınca məscidin özəyini qazaraq, daş toplamağı əmr etdi. Səhabələr qayalardan daş yığıb gətirirdilər. Peyğəmbər (s) də onları qucağına alaraq, (məscidin inşa olacağı) yerə daşıyırdı. Usəyd ibn Huzəyr Peyğəmbərin (s) qarşısına gələrək, dedi: «Ey Allahın Rəsulu! Bunları mənə ver, mən daşıyım». Peyğəmbər (s) buyurdu: «Yox, get başqa bir daşı gətir.»

Daşları yığıb gətirdikdən sonra məscidin özəyini doldurub, divarlarını hörməyə başladılar. Əvvəlcə divarı bir-bir çiy kərpiclə, sonra isə bir kərpic və onun yarısı ilə, ardınca da, kərpicləri çarpaz şəkildə düzərək, divarı bir insan boyu uzunluğunda ucaltdılar.

Məscidin eni yüz zira[47] idi. İsti hava şəraiti onları incidirdi. (Əshab) dedi: «Ey Allahın Rəsulu! Kaş ki, məscidə bir daldanacaq düzəltsəydin.»

Peyğəmbər (s) taxta sütunları məscidin həyətinə qədər qurdu və onların üzərini xurma ağacının budaqları ilə örtdu. Bir müddət beləcə keçdi. Səhabələr yenidən Peyğəmbərə (s) müraciət edərək: «Ey Allahın Rəsulu! Kaş ki, məscidə bir tavan da, düzəltsəydin.» – dedilər. Rəsulallah (s) buyurdu: «Yox, həzrət Musanın (ə) tavanı kimi bir dam örtüyü bizə

---

[47] Zira, dirsək və ya dirsəkdən əlin orta barmağına qədər olan ölçü miqdarıdır (Mütərcim).

kifayətdir. Bizim (bundan daha vacib olan başqa) işlərimiz var.»[48]

### *3.4 VƏ 3.5 MƏSCİD İNŞASINDA MÜHÜM TÖVSİYƏLƏR*

**38.** Əbu Qütadədən nəql olunur: «Allahın Rəsulu (s) ənsardan (özləri üçün məscid tikmək istəyən) bir qrup şəxslə qarşılaşdıqda, buyurdu: «Sahəsi geniş bir məscid tikin ki, gələcəkdə onu dolduracaqsınız.»[49]

**39.** Həzrət Məhəmməd (s): «Dəstəmazxanaları məscidə yaxın tikin.»[50]

#### *a) Məscidləri eyvanlarla dolu olduğu halda ucaldılmış şəkildə tikməmək*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**40.** Sanki, sizin məndən sonra məscidlərinizi yəhudi məbədləri və xristian kilsələri(ndə olduğu kimi yersiz cah-cəlal içində) eyvanlarla dolu olduğu halda ucaldılmış şəkildə tikdiyinizi görürəm.[51]

**41.** Saf-hamar, (yersiz cah-cəlaldan uzaq) eyvansız məscidlər tikməyə əmr olunmuşam.[52]

**42.** Mənə məscidləri (lazım olmayan miqdarda) həddindən artıq cah-cəlallı şəkildə ucaldaraq möhtəşəm formada tikmək əmr edilməyib.[53]

---

[48] «Əlamul-vəra», c: 1, səh: 158; «Biharul-ənvar», c: 19, səh: 111.

[49] «Əs-Sunənul-kubra», c: 2, səh: 616, həd: 4306; «Ət-Tarixul-kəbir», c: 7, səh: 226; «Əl-Mucəmul-kəbir», c: 19, səh: 93, həd: 180; (Kəb ibn Malik rəvayət edir); «Musnədut-Təyalisi», səh: 84, həd: 605; «Kənzul-ummal», c: 7, səh: 658, həd: 20780.

[50] «Biharul-ənvar», c: 83, səh: 383, həd: 54.

[51] «Sunəni-İbn Macə», c: 1, səh: 244, həd: 740 (İbn Abbas rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 667, həd: 20823.

[52] «Əs-Sunənul-kubra», c: 2, səh: 616, həd: 4301; «Əl-Firdəvs», c: 1, səh: 398, həd: 4298 (Hər iki hədisi Ənəs rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 657, həd: 20771.

**43.** Məscidləri saf-hamar (lazımsız təmtəraqdan uzaq), eyvansız tikin.[54]

**44.** Məscidləri eyvanlarla dolu olduğu halda ucaldılmış şəkildə deyil, şəhərlərinizi (evlərinizi) eyvanlı, möhtəşəm tikin.[55]

**45. İmam Baqir (ə):** «Əli (ə) Kufədə eyvanlarla dolu olduğu halda (yersiz təm-təraqla) ucaldılmış bir məscid gördü. Buyurdu: «Elə bil kilsədir. Məscidlər saf-hamar (lazımsız təmtəraqdan uzaq), eyvansız tikilməlidir.»[56]

**46. İmam Baqir (ə):** «Qaim (ə.c) zühur etdiyi zaman Kufəyə gedib orada yerləşən dörd məscidi yerlə-yeksan edəcəkdir. Sonra daxilində (təm-təraq üçün tikilmiş) eyvanları olan məscidlərin eyvanlarını viran edəcəkdir.[57]

---

[53] «Sunəni-Əbu Davud», c: 1, səh: 122, həd: 448; «Əs-Sunənul-kubra», c: 2, səh: 615, həd: 4298; «Əl-Musənnəf», Əbdür-Rəzzaq, c: 1, səh: 344, həd: 5127; «Hilyətul-ovliya», c: 7, səh: 313 (Hər iki hədisi İbn Abbas rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 668, həd: 20827.

[54]«Əl-Məcazatun-Nəbəviyyə», səh: 105, həd: 66; «Əs-Sunənul-kubra», c: 2, səh: 216, həd: 4300; «Əl-Musənnəf», İbn Əbi Şeybə, c: 1, səh: 344, həd: 9; «Hilyətul-ovliya», c: 3, səh: 12 (Son üç hədisi Ənəs rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 657, həd: 20770

[55] «Kənzul-ummal», c: 7, səh: 656, həd: 20769 (Hədisi ibn Abbas rəvayət edir və bu mənbə onu İbn Əbi Şeybənin «Əl-Musənnəf» kitabından istifadə etmişdir)

[56] «Təhzibul-əhkam», c: 7, səh: 253, həd: 697; «İləluş-şərayə», səh: 320, həd: 1 (Hər iki hədisi Təlhə ibn Zeyd, İmam Sadiqdən(ə) rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 236, həd: 708, «Biharul-ənvar», c: 83, səh: 352, həd: 5.

[57] «İrşad», c: 2, səh: 385; «Əl-Ğeybə», Tusi, səh: 475, həd: 498; «Əlamul-vəra», c: 2, səh: 291 (Bütün hədisləri Ənəs rəvayət edir); «Rovzətul-vaizin», səh: 290; «Biharul-ənvar», c: 52, səh: 339, həd: 84.

***b) Məqsurə[58] düzəltmək***

**47. İmam Baqir (ə):** «Bu məqsurələr keçmiş xəlifələrdən heç birinin zamanında yox idi. Zülmkarlar onu ortaya çıxardtılar. Belə bir məkanda dayanıb camaat namazı qılan pişnamaza iqtida edən şəxsin namazı düzgün deyil.»[59]

**48.** Şeyx Tusi Davud ibn Qasim Cəfəridən nəql edir: «İmam Həsən Əsğərinin (ə) yanında idim. Buyurdu: «Qaim (ə.c.) qiyam etdiyi zaman məscidlərin minarələrini və məqsurələrini məhv edəcəkdir.» Öz-özümə dedim: «Axı bunun nə mənası var ki?» İmam (ə) üzünü mənə çevirib, buyurdu: «Mənası budur ki, bütün bunlar dinə sonradan artırılmış bidətlərdir. Heç bir peyğəmbər və ilahi höccəti belə şeylər tikməmişdir.»[60]

**49.** Bu il (h.q. 44-cü il) Müaviyə məsciddə məqsurə tikdirdi, bayram günlərində minbərləri namaz qılınan yerlərə daşıtdırdı və bayram namazı xütbəsini namazdan qabaq oxudu. Çünki xalq namazdan sonra (tez ayağa qalxıb) gedirdilər ki, (carçı) Əlini (ə) söyərkən eşitməsinlər. Elə buna görə də, Müaviyə xütbəni namazdan öncə oxuyurdu. O, Peyğəmbərin ailəsini hiddətləndirmək məqsədilə Fədəyi Mərvan ibn Həkəmə bağışladı.[61]

---

[58] Məqsurə, o zamanlar bəzi məscidlərdə pişnamazın dayanması üçün bir qədər dərində tikilən və ətrafı divarla örtülmüş məkana deyilirdi. (Mütərcim)

[59] «Əl-Kafi», c: 3, səh: 3855, həd: 4; «Təhzibul-əhkam», c: 3, səh: 52, həd: 182 (Hər iki hədisi Zürarə rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 386, həd: 1144.

[60] «Əl-Ğeybə», Tusi, səh: 206, həd: 175; «Əl-Xəraic vəl-cəraih», c: 1, səh: 453, həd: 39; «Kəşful-ğummə», c: 3, səh: 208; «Əlamul-vəra», c: 2, səh: 142; «Biharul-ənvar», c: 83, səh: 376, həd: 44.

[61] «Tarixi-Yəqubi», c: 2, səh: 223.

*c) Mehrab tikmək*[62]

**50. İmam Baqir (ə):** «Həzrət Əli (ə) məscidlərdəki mehrabları müşahidə etdikdə, onları yerlə-yeksan edirdi. O, buyurur: «Bu mehrablar yəhudilərin qurban kəsdikləri yerə oxşayır.»[63]

***d) Məscidləri bəzəmək***[64]

**51.** Qüdsi-hədisdə Allah-Təala Şəəya (ə) peyğəmbərə belə vəhy etdi: «Mənim üçün evləri (məscidləri) dəbdəbəli şəkildə bina edirlər və məscidləri (həddindən artıq, gərəksiz yerə təmtəraqlı formada) bəzəyirlər. Yaşamadığım evlərin dəbdəbəli şəkildə tikilməsinə nə ehtiyacım var?! Daxil olmayacağım məscidlərin təmtəraqlı formada bəzədilməsinə mənim nə ehtiyacım var? Mən onların möhtəşəm şəkildə tikilməsini yalnız ona görə əmr etmişəm ki, orada məni yad etsinlər, şənimə həmd oxusunlar. Amma insanlar bu məkanlarda vücudlarını, ağıllarını və qəlblərini korlayıb, viran edirlər!»[65]

---

[62] Kitabın girişində izah verildiyi kimi, məqsəd, o zaman bəzi məscidlərdə müstəqil şəkildə tikilmiş və yəhudilərin qurbangahlarına bənzəyən mehrablardır (Mütərcim).

[63] «Təhzibul-əhkam», c: 3, səh: 253, həd: 696; «İləluş-şərayə», səh: 330, həd: 1 (Hər iki hədisi Təlhə ibn Zeyd imam Sadiqdən (ə) rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 236, həd: 707; «Biharul-ənvar», c: 83, səh: 352, həd: 5.

[64] Təqdim olunan hədislərdən belə nəticəyə gəlmək olar ki, məscidləri bəzəməyi tənqid etməkdə məqsəd, onları həddindən artıq, lazımsız şəkildə bəzəmək və bu məkanların zahiri görünüşünü zinətləndirməyə daha çox səy göstərib, ilahi ibadətdən və pak əməllərdən uzaqlaşmağı pisləməkdir (Mütərcim).

[65] «Uyunul-əxbar», İbn Qüteybə, c: 2, səh: 264.

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**52.** (Qiyamət gününün nişanələrini buyurarkən) Ey Süleyman! O zaman məscidlər kilsələr və sinanoqlar kimi bəzədiləcəkdir.[66]

**53.** Dünyanın axırı gəlib çatdıqda, ümmətimin arasında məscidlərini zinətli və təmtəraqlı tikən, amma qəlblərini xarabalığa çevirmiş şəxslər peyda olacaqlar. Onların heç biri, hətta köynəyinə əhəmiyyət verdiyi qədər belə, dininə əhəmiyyət verməyəcəkdir. Belə ki, onlar yalnız dünyəvi mənfəətləri təhlükə altına düşməyənədək, dinin kənarında olarlar.[67]

**54.** Hər bir xalqın əməlləri, məscidlərin yalnız zahiri görünüşünü abadlaşdırdığı, (amma ilahi əmrlərinə məhəl qoymadığı) zaman dəyərsiz olar.[68]

**55.** Quranların gözəl cildli (nəfis şəkildə çap) olduğu, məscidlərin (hədsiz dərəcədə) zinətləndirildiyi, minarələrin (möhtəşəm formada) ucaldıldığı, Quranın musiqi ilə oxunduğu, məscidlərin (yalnız) keçid yerinə çevrildiyi zaman, mömin, qırmızı kükürtdən də əlçatmaz olar. Bəli, insanların tikdiyi məscidlər çox bəzəkli, üst-başları təmiz, lakin qəlbləri isə ölmüş heyvandan daha iyrənc şəkildə qoxuyar.[69]

**56. İmam Əli (ə):** «Bil ki, insanlar (ilahi əmrlərinə baş əyməyib) yalnız məscidlərin zahiri görünüşünü

---

[66] «Təfsiri-Qummi», c: 2, səh: 305 (Abdullah İbn Abbas rəvayət edir); «Biharul-ənvar», c: 6, səh: 307, həd: 6; «Əd-Durrul-mənsur», c: 7, səh: 474.

[67] «Kənzul-ummal», c: 10, səh: 205, həd: 29088 (Hakim Nişapuri «Tarix» kitabında İbn Abbasdan nəql edir).

[68] «Biharul-ənvar», c: 7, səh: 304, həd: 73; «Hilyətul-ovliya», c: 4, səh: 152; «Əl-Firdəvs», c: 4, səh: 102, həd: 6319; «Kənzul-ummal», c: 7, səh: 668, həd: 20828.

[69] «Rovzətul-vaizin», səh: 370.

abadlaşdırdıqları zaman əməlləri korlanmış, yararsız olmuşdur.[70]

***e) Rəsm çəkmək***

**57.** Ömər ibn Cüməyrdən nəql olunur: «İmam Baqirdən (ə) divarları rəsm və şəkillərlə bəzədilmiş məsciddə namaz qılmaq barəsində soruşdum. Buyurdu: «Bu işi bəyənmirəm. Lakin hələ ki, sizə heç bir ziyanı yoxdur. Amma ədalət bərpa olduqda, bu haqda veriləcək hökmü anlayacaqsınız.»[71]

## *3.6 MƏSCİD ƏRAZİSİ*

**58.** Rəvayət olunur ki, məscidin hər bir tərəfindən 40 gəz[72] qədər məsafə məscid ərazisidir.[73]

**59. İmam Əli (ə):** « Məscidin hər bir tərəfindən 40 gəz qədər məsafə məscid ərazisidir (müqəddəsliyini daşıyır). Evinin hər bir tərəfində yerləşən 40 ev isə sənin qonşundur.[74]

***Şərh:*** Əllamə Məclisi deyir: «Adətən, fəqihlər məscidin ərazisi haqqında bəhs etmirlər. Lakin (Şəhid) «Əd-Durus» kitabında yazır: «Şeyx Səduqun rəvayətinə əsasən, məscidin ərazisi hər tərəfdən 40 gəzdir və əkinçiliyə yararsız sahələrdə (məscidin haqqının, torpağı əkinə yararlı hala gətirən şəxsə nisbətən daha üstün olduğu üçün) olmalıdır. Həmçinin, bu hədis məscidin 40 ev məsafəliyində yerləşən qonşularının, daha yaxınlıqda yerləşən başqa bir məscid olmadığı halda,

---

[70] «Əl-Musənnəf», Əbdür-Rəzzaq, c: 3, səh: 154, həd: 5134 (İbrahim ibn Mühacir rəvayət edir); «Əlamus-sacid bi əhkamil-məsacid», səh: 336.

[71] «Əl-Kafi», c: 3, səh: 369, həd: 6; «Təhzibul-əhkam», c: 3, səh: 259, həd: 726; «Biharul-ənvar», c: 52, səh: 374, həd: 171.

[72] Gəz, 105 santimetrə bərabər olan uzunluq ölçüsüdür.

[73] «Mən la yəhzəruhul-fəqih», c: 3, səh: 102, həd: 3419; «Biharul-ənvar», c: 84, səh: 3, həd: 74.

[74]«Xisal», səh: 544, həd: 20 (Əqəbə ibn Xalid imam Sadiq (ə) vasitəsilə o həzrətin babalarından nəql edir); «Rovzətul-vaizin», səh: 369 «Biharul-ənvar», c: 84, səh: 3, həd: 74.

Allahın evində ibadətlə məşğul olmasının müstəhəb olduğuna təkid edir.»[75]

[75] «Biharul-ənvar», c: 84, səh: 3.

## *4-CÜ FƏSİL: MƏSCİDƏ EHTİRAM ETMƏK*

### *4.1 MƏSCİDƏ EHTİRAM GÖSTƏRMƏYİN ZƏRURİLİYİ*

**60. Həzrət Məhəmməd (s):** «Heç vaxt məscidə «musəycid» (məscidcik) deməyin. Çünki məscid Tanrıya ibadət olunan bir evdir. Heç vaxt Qurani-kərimə «musəyhif» (kitabça) deməyin. Çünki Allahın kitabı kiçik yad olunmaqdan çox-çox ucadır. Həmçinin, (heç bir) kişiyə «rüvəycil» (kişicik), qadına da, «mürəyyə» deyə müraciət etməyin.»[76]

**61. İmam Əli (ə):** «Müsəlman «rüvəycil», məscid «müsəycid», Quran «müsəyhif» adlandırılmamalıdır.»[77]

### *4.2 MƏSCİDƏ EHTİRAM GÖSTƏRMƏYİN ZƏRURİLİYİNİN SƏBƏBİ*

**62.** Əbu Nəsirdən nəql olunur ki: İmam Sadiqdən (ə) Məscidə ehtiramın zəruri olmasının səbəbi barəsində soruşdum. Buyurdu: «Çünki məscidlər Allahın evidir.»[78]

### *4.3 MƏSCİDƏ EHTİRAM GÖSTƏRMƏYİN SAVABI*

**63. İmam Əli (ə):** «Məscidə hörmət edən hər kəs Qiyamət günü Allah -Təala ilə fərəh və sevinc içində görüşər.»[79]

---

[76] «Əl-Firdəvs», c: 5, səh: 120, həd: 7678.

[77] «Nəvadir», Ravəndi, səh: 194, həd: 356; «Əl-Cəfəriyyat», səh: 241 (İmam Kazım (ə) ata-babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 76, səh: 358, həd: 27.

[78] «İləluş-şərayə», səh: 318, həd: 1 (Əbu Bəsir rəvayət edir); «Biharul-ənvar», c84, səh: 6, həd: 78.

[79] «Əl-Məhasin», c: 1, səh: 127, həd: 145 (Səkuni imam Sadiq (ə) vasitəsilə o həzrətin atasından (ə) nəql edir); «Biharul-ənvar», c: 7, səh: 304, həd: 73.

## *4.4 MƏSCİDƏ EHTİRAM ETMƏYƏN ŞƏXSİN MƏZƏMMƏT OLUNMASI*

**64. İmam Sadiq (ə):** «(Yunis ibn Yaquba müraciətlə) Məscidə ehtiram göstərməyən şəxs məlundur, məlun! Ey Yunis! Bilirsənmi, Allah-Təala nə üçün məscidlərin əziz və əzəmətli olmasına qərar verib? Nə üçün bu ayəni göndərib: *«Şübhəsiz ki, (bütün) məscidlər Allaha məxsusdur. Allahdan başqa heç kəsə ibadət etməyin!»* Çünki yəhudilər və məsihilər öz ibadətgahlarına daxil olduqları zaman Allaha şərik qoşurlar. Buna görə də böyük Tanrı öz Peyğəmbərinə (s) məscidlərdə, yalnız bir Allaha ibadət olunmasına əmr etdi.»[80]

---

[80] «Kənzul-fəvaed», c: 1, səh: 150 (Yunis ibn Yəqub rəvayət edir); «Biharul-ənvar», c: 76, səh: 355, həd: 21.

## *5-Cİ FƏSİL*

### *5.1 MƏSCİDİ ABADLAŞDIRMAQ*

**Qurani-kərim: «Allahın məscidlərini, yalnız Allaha və Qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abad edə bilərlər (yalnız bu qəbildən olan şəxslərin əməlləri Allah dərgahında qəbul olunar). Məhz onlar doğru yola yetişənlərdən ola bilərlər!»[81]**

**65. Həzrət Məhəmməd (s):** «Hər zaman bir kişinin ardıçıl olaraq məscidə getdiyini görsəniz, onun imanlı olduğuna şəhadət verin. Allah-Təala buyurur: «Allahın məscidlərini, yalnız Allaha və Qiyamət gününə iman gətirən, namaz qılıb zəkat verən və Allahdan başqa heç kəsdən qorxmayanlar abad edələr.»[82]

**66. İmam Əli (ə): «**Allahın Rəsulu mənə öyrətdi ki, hər yeni paltar geyindikdə de: «Həmd olsun Allaha ki, mənə xalq arasında yaraşıqlı görünməyim üçün paltar nəsib etdi. İlahi! Bu paltarı mənim üçün bərəkətli et ki, onu geyərkən sənin razılığın yolunda çalışım və məscidlərini abad etməyə cəhd edim.»[83]

---

[81] «Cinn» surəsi, ayə: 18.

[82] «Sunəni-Tirmizi», c: 5, səh: 277, həd: 3093; «Sunəni-İbn Macə», c: 1, səh: 263, həd: 802; «Sunəni-Darəmi», c: 1, səh: 295, həd: 12032; «Musnədi-İbn Hənbəl», c: 4, səh: 137, həd: 11651; «Səhihi-İbn Həbban», c: 5, səh: 6, həd: 1721; «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 332, həd: 770; «Səhihi-İbn Xəzimə», c: 2, səh: 379, həd: 1502; «Əs-Sunənul-kubra», c: 3, səh: 93, həd: 4988 (Bütün hədisləri Əbu Səid Xidri rəvayət edir); «Əvaliyul-lai», c: 2, səh: 32, həd: 79.

[83] «Əl-Kafi», c: 6, səh: 458, həd: 2 (Səkuni, imam Sadiqdən (ə) nəql edir); «Əmali-Səduq», səh: 338, həd: 398 (Səkuni imam Sadiq vasitəsilə o həzrətin ata-babasından (ə) nəql edir); «Əl-Cəfəriyyat», səh: 224 (İsmayıl, atası imam Kazımdan (ə) və o həzrət də ata-babalarından (ə) nəql edir); «Rovzətul-vaizin», səh: 338.

**67. Xatəmul-ənbiya (s):** «İlahi! Bu Ramazan ayında Quranı aydın nişanələrlə birlikdə insanları hidayət etmək və haqqı batildən ayırmaq üçün nazil etdin. Bu (müqəddəs) kitabda bizə məscidləri abadlaşdırmaq, dua etmək, oruc tutmaq və namaz qılmağa əmr edib, onları qəbul etməyə söz verdin.»[84]

**68.** Əbuzərdən belə nəql olunur: «Bir gün Tanrı Elçisinin hüzuruna gedərək dedim:

– Ey Allahın Rəsulu! Atam-anam sənə fəda olsun! Mənə elə bir göstəriş ver ki, onu yerinə yetirdiyim zaman Allah-Təala mənə (çoxlu) savab versin...

Rəsulallah (s) buyurdu:

– Kim Allahın əmrinə müsbət cavab versə (əməl etsə) və Tanrı məscidlərini layiq olduğu kimi abadlaşdırsa, Allah tərəfindən Behiştlə mükafatlandırılacaqdır.

– Atam-anam sənə fəda olsun! Ey Allahın Rəsulu! Allahın məscidlərini necə abadlaşdırmaq olar?

– Orada uca səslə danışılmaz, mənasız, bihudə işlər görülməz və al-ver olunmaz! Məsciddə olduğun zaman gərəksiz və səmərəsiz işlərdən uzaq dur. Əgər belə etməsən, Qiyamət günü, yalnız özünü günahkar bil (qəbahəti başqasında axtarma).»[85]

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**69.** Sizlərdən hər biriniz məsciddə olduğunuz zaman mələklər ardıcıl olaraq sizə dua edir və deyirlər: İlahi! Bu şəxsi bağışla. İlahi! Onu öz rəhmət və mərhəmətin sayəsində qərar ver.[86]

---

[84] «Bələdul-əmin», səh: 198; «Biharul-ənvar», c: 98, səh: 78, həd: 2.

[85] «Məkarimul-əxlaq», c: 2, səh: 363-374, həd: 2661; «Tənbihul-xəvatir», c: 2, səh: 61; «Əlamud-din», səh: 198; «Biharul-ənvar», c: 77, səh: 85, həd: 3.

[86] «Əl-Musənnəf», Əbdür-Rəzzaq, c: 1, səh: 580, həd: 2210; «Kənzul-ummal», c: 7, səh: 324, həd: 19084.

**70.** Sizlərdən hər biriniz məsciddə olduğunuz zaman, oranı tərk etdənə qədər namaz qılmış şəxs kimisiniz (şəxsin savabını qazanırsınız).[87]

**71.** Mömin şəxsin məsciddə oturması, onun düşmənlə döyüşə hazır olması deməkdir.[88]

**72.** Beş əməl ibadət sayılır: az yemək, məsciddə oturmaq...[89]

**73.** Əbuzərə nəsihət edərkən «Ey Əbuzər! Məsciddə oturduğun müddətdə Allah-Təala aldığın hər nəfəs üçün məqamını Behiştdə bir dərəcə ucaldır və mələklər sənə salam göndərirlər. Aldığın hər nəfəs üçün (əməl dəftərinə) on savab yazılır və on günah da pozulur.[90]

**74.** Məsciddə əyləşib namazı gözləmək ibadətdir.[91]

**75.** Məsciddə oturub namazı gözləyən şəxs, sanki ilahi məmuriyyətdədir və evinə qayıdanadək namaz qılanlardan sayılır.[92]

---

[87] «Musnədi-İbn Hənbəl», c: 4, səh: 86, həd: 11385 və səh: 109, həd: 11512 (Hər iki hədisi Əbu Səid Xidri rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 507, həd: 19993.

[88] «Musnədi-Şəhab», c: 1, səh: 75, həd: 68 (Musa ibn İbrahim əl-Məruzi, atası imam Kazımdan (ə) və o həzrət də ata-babalarından (ə) nəql edir); «Əl-Firdəvs», c: 3, səh: 87, həd: 4246 (İmam Əli (ə) Peyğəmbərdən (s) rəvayət edir); «Kənzul-ummal», c: 15, səh: 305, həd: 41132; «Mişkatul-ənvar», səh: 358, həd: 1160 (İmam Sadiq (ə) rəvayət edir).

[89] «Əl-Firdəvs», c: 2, səh: 195, həd: 2969; «Kənzul-ummal», c: 15, səh: 880, həd: 43493.

[90] «Məkarimul-əxlaq», c: 2, səh: 374, həd: 2661 (Əbuzər rəvayət edir); «Biharul-ənvar», c: 77, səh: 85, həd: 3.

[91] «Dəaimul-İslam», c: 1, səh: 148 (İmam Sadiq (ə) rəvayət edir); «Əl-Firdəvs», c: 2, səh: 124, həd: 2645 (Üsamə ibn Zeyd rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 651, həd: 20743.

[92] «Musnədi-İbn Hənbəl», c: 6, səh: 150, həd: 17466; «Musnədi-Əbu Yəla», c: 2, səh: 308, həd: 1741; «Əz-Zohd», İbn Mübarək, səh: 139, həd: 410; «Tarixi-Bağdad», c: 2, səh: 229 (Bütün hədisləri Əqəbə ibn Amir rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 568, həd: 20295

**76.** Məsciddə oturub namazın başlanmasını gözləyən şəxs, (bu müddətdə) namaz qılan şəxsin savabını qazanır.[93]

**77. İmam Sadiq (ə):** «Peyğəmbər (s) buyurur: «Məsciddə oturub namazın başlanmasını gözləmək, çirkinlik yaratmadığınız halda, ibadət sayılır.» Bir nəfər soruşdu: «Ey Allahın Rəsulu! Çirkinlik dedikdə məqsədiniz nədir?» Həzrət (s) buyurdu: «Qeybət etmək.»[94]

**78. Həzrət Məhəmməd (s):** Sizlərdən hər biri pak şəkildə evdən çıxıb, müsəlman qardaşı ilə namaz qılıb və sonra da (məsciddə) oturub (ikinci) namazın başlamasını gözlədikdə, mələklər (ona dua edərək) deyərlər: «İlahi! Onu bağışla. İlahi! Ona mərhəmət göstər.»[95]

**79.** Osman ibn Məzundan belə nəql olunur: «Bir gün Peyğəmbərə (s) dedim: «Ey Allahın Rəsulu! Sizdən bir neçə mətləb barəsində soruşmaq istərdim.» Həzrət (s) buyurdu: «Ey Osman! Sualın nə haqqındadır?» Dedim: «İstəyirəm ki, zahidliyə üz gətirim (tərki-dünya olum).»

---

[93] «Səhihi-Biuxari», c: 1, səh: 76, həd: 74; «Sunəni-Nəsai», c: 2, səh: 56; «Musnədi-İbn Hənbəl», c: 8, səh: 428, həd: 22875; «Səhihi-İbn Həbban», c: 5, səh: 47, həd: 1751; «Əl-Mucəmul-kəbir», c: 6, səh: 203, həd: 6011 və 6012 (Səhl Saidi rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 650, həd: 20735.

[94] «Əl-Kafi», c: 2, səh: 357, həd: 1; «Əmali-Səduq», səh: 506, həd: 698 (Hər iki hədisi Səkuni rəvayət edir); «Tuhəful-uqul», səh: 47; «Kəşful-ribə», səh: 11; «Əl-Cəfəriyyat», səh: 33 (İsnayıl atası İmam Kazımdan (ə) və o həzrət də ata-babalarından (ə) nəql edir); «Rovzətul-vaizin», səh: 515; «Biharul-ənvar», c: 75, səh: 249, həd: 17.

[95] «Musnədi-İbn Hənbəl», c: 4, səh: 7, həd: 10994; «Səhihi-İbn Həbban», c: 2, səh: 128, həd: 402; «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 305, həd: 689; «Səhihi-İbn Xəzimə», c: 1, səh: 185, həd: 357; «Əs-Sunənul-kubra», c: 2, səh: 26, həd: 2265; «Musnədi-Əbu Yəla», c: 2, səh: 121, həd: 1350; «Musnədi-Əbd ibn Həmid», səh: 303, həd: 984 (Btütün hədisləri Əbu Səid Xidri rəvayət edir); «Kənzul-ummal», c: 15, səh: 836, həd: 43325; «Əmali-Səduq», səh: 400, həd: 516; «Biharul-ənvar», c: 80, səh: 301, həd: 2 (Əbu Səid Xidri rəvayət edir).

Həzrət (s) buyurdu: «Ey Osman! Bu doğru fikir deyildir. Çünki mənim ümmətimin zahidliyi məsciddə oturub bir namazı qılıb quratardıqdan sonra o biri namazın başlanmasını gözləməkdir.»[96]

**80. Rəsulallah (s):** «(İnsanların) yeddi dəstəsi Allahın (mərhəmət) sayəsindən başqa heç bir sığınacağın olmadığı gündə (Qiyamət günündə) Onun (rəhmət) sayəsi altında qərar tutar: ... Məsciddən çıxarkən, oraya bir də getməyi qərara alan şəxs.»[97]

**İmam Əli (ə) buyurmuşdur:**

**81.** Məscid (orada ibadət olunmamasına görə) viran olduğu üçün Allaha şikayət edər və sizin bir müddət ayrı düşdüyünüz şəxsin yanınıza qayıtdığı zaman sevindiyniz kimi, (o da) bir müddət ondan uzaqlaşıb və yenidən oraya (ibadət etmək üçün) geri dönən şəxsi gördükdə sevinər.[98]

**82.** Mənim üçün məsciddə oturmaq, Behiştdə oturmaqdan daha xoşdur. Çünki Behiştdə olarkən mən xoşhal olacağam, məsciddə olarkən Allahım məmnun olacaq.[99]

**83.** Dan yeri ağarandan Günəş çıxana qədər (insanlar yer üzündə ruzi dalınca getməzdən öncə) məsciddə Allaha ibadət etmək ruzinin artmasına səbəb olar».[100]

**84.**

---

[96] «Təhzibul-əhkam», c: 4, səh: 190, həd: 541; «Biharul-ənvar», c: 83, səh: 381; «Şərhi-sunnə», c: 2, səh: 125, həd: 485 (Səid ibn Məsud rəvayət edir); «Mişkatul-məsabih», c: 1, səh: 225, həd: 724.

[97] «Xisal», səh: 343, həd: 8 (İbn Abbas rəvayət edir); «Biharul-ənvar», c: 74, səh: 353; həd: 28.

[98] «Dəaimul-İslam», c: 1, səh: 148; «Biharul-ənvar», c: 83, səh: 380, həd: 48.

[99]«İrşadul-qulub», səh: 218; «İddətud-dai», səh: 194; «Biharul-ənvar», c: 83, səh: 362; həd: 16.

[100] «Qurərul-hikəm», həd: 2127; «Xisal», səh: 612, həd: 10 (Əbu Bəsir və Məhəmməd ibn Müslim imam Sadiqdən (ə) və o həzrət də, ata-babalarından (ə) nəql edir); «Tuhəful-uqul», səh: 101; «Biharul-ənvar», c: 10, səh: 90; həd: 1.

**Rüku və səcdə ilə gecə məsciddə qalan,**
**İlahi ibadətiylə gecəni başa vuran şəxs,**
**Şeytani inadla məsciddən qayıdan**
**Özünü məscidin toz-torpağından uzaq tutan**
**Kəslə bərabər mükafatlandırılmayacaq.**[101]

**85. İmam Həsən (ə):** «Məscid əhli Allahın qonaqları sayılır və (şübhəsiz ki,) ev Sahibi öz qonaqlarını mükafatlandırmalıdır.»[102]

**86. İmam Həsən (ə):** «Üç şəxs Allah-Təalanın qonşusu sayılır: Yalnız Allaha xatir məscidə gedən şəxs. Bu şəxs məsciddən qayıdana qədər Allahın qonağı sayılır.

Yalnız Allaha xatir müsəlman qardaşının görüşünə gedən şəxs. Bu şəxs müsəlman qardaşının görüşündən qayıdanadək Allahın görüşünə getmiş sayılır.

Yalnız Allaha xatir Həcc və ya Ümrə ziyarətinə gedən şəxs. Bu şəxs ailəsinin yanına qayıdanadək Allah dərgahında müsafir sayılır.»[103]

**87. İmam Sadiq (ə):** «Əli ibn Hüseynin (ə) xidmətçisi onu soyuq bir (qış) gecəsində xəz əba-əmmamədə və ətirlənmiş halda gördü. O, soruşdu: Sənə qurban olum! Bu saatda və belə (gözəl-bəzənmiş) şəkildə hara gedirsən?» İmam (ə) buyurdu: «Babam Peyğəmbərin (s) məscidinə, Allah-Təaladan huri istəməyə gedirəm.»[104]

**88. İmam Baqir (ə):** «Namaz qılmağa gedərkən belə dua et: «İlahi! Məni Allah evlərini (məscidlər) abadlaşdıran şəxslərdən et!»[105]

---

[101] «Divanul-məsub iləl-imamul-Əli (ə)», səh: 218; «Biharul-ənvar», c: 20, səh: 243.

[102] «İrşadul-qulub», səh: 77.

[103] «Tənbihul-ğafilin», səh: 303, həd: 428.

[104] «Əl-Kafi», c: 6, səh: 517, həd: 5; «Biharul-ənvar», c: 46, səh: 59, həd: 13

[105] «Əl-Kafi», c: 3, səh: 445, həd: 12; «Təhzibul-əhkam», c: 2, səh: 123, həd: 462 (Hər iki hədisi Zürarə rəvayət edir); «Biharul-ənvar», c: 87, səh:

**89. İmam Sadiq (ə):** «Öz yaxınlarınızla birlikdə məscidə gedin.»[106]

### *5.2 MƏSCİDƏ GETMƏYİN FƏZİLƏT VƏ DƏYƏRİ*

**90. Həzrət Məhəmməd (s) buyurmuşdur:** Məscidə tərəf addım atan şəxs, (hər addımın) müqabilində (bir) savab qazanar.[107]

**91.** Məscidə sarı yola düşən şəxs, atdığı hər addımın müqabilində on savab qazanar.[108]

**92.** Məscidə tərəf yola düşən şəxs, evinə qayıdanadək atdığı hər addımın müqabilində on savab qazanar. Həmçinin, onun əməl dəftərindən on günah silinər və nəticədə o, on mərtəbə ucalar.[109]

**93.** Evindən məscidə getmək niyyəti ilə addım atan şəxs, əməl dəftərinə bir addımında bir savab yazar və o biri addımında isə bir günahını silər.[110]

**94.** Allah-Təala (Qiyamət günü) üç şəxsə zamin olar: məscidə sarı yola düşən şəxsə Allah-Təala Qiyamət günü onu

---

188, həd: 5; «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 240; «Məkarimul-əxlaq», c: 2, səh: 61, həd: 2147.

[106] «Əl-Kafi», c: 2, səh: 635, həd: 3; «Mişkatul-ənvar», səh: 333, həd: 1055; «Vəsailuş-şiə», c: 8, səh: 399, həd: 4.

[107] «Kənzul-ummal», c: 7, səh: 574, həd: 20327 (Səmuyə və Səid ibn Mənsur, Cabir vasitəsilə rəvayət edir).

[108] «Musnədi-İbn Hənbəl», c: 6, səh: 150, həd: 17466; «Musnədi-Əbu Yəla», c: 2, səh: 308, həd: 1741; «Əz-Zohd», İbn Mübarək, səh: 139, həd: 410; «Tarixi-Bağdad», c: 2, səh: 229 (Bütün hədisləri Əqəbə ibn Amir rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 568, həd: 20295.

[109] «Səvabul-əmal», səh: 343, həd: 1 (İbn Abbas rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 368, həd: 25.

[110] «Sunəni-Nəsai», c: 2, səh: 42; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 203, həd: 8264; «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 338, həd: 789; «Əs-Sunənul-kubra», c: 3, səh: 88, həd: 4968; «Kənzul-ummal», c: 7, səh: 568, həd: 20297.

tapıb, behiştə göndərməyə, yaxud da onun əməlinin savabını verməyə zəmanət verər.[111]

**95.** Azan oxuyanın (namaza) çağırışını qəbul etmək (namaza getmək), Allahın rəhmət nəzərini cəlb edər və o, Behiştlə mükafatlandırılar. Mən onu rəd edən (namaza getməyən) şəxslə Qiyamət günü mübarizə aparacağam. Allah carçısının dəvətini qəbul edıb, məscidə gedən şəxsın xoş halına! Cənnət əhli olan mömin şəxslərdən başqa heç kəs müəzzinin (namaza) dəvətini qəbul etməz.[112]

**96.** Məscidə getmək Allah və Peyğəmbərinin (s) əmrinə tabe olmaq deməkdir. Hər kim, Allah və Peyğəmbərinə (s) itaət etsə, Tanrı onu sadiqlər və şəhidlərlə birlikdə Behiştə daxil edər. O, Behiştdə həzrət Davudla (ə) həmsöhbət olar. Həzrət Davuda (ə) verilən savab qədər mükafatlandırılar.[113]

**97.** Hər səhər-axşam məscidə getmək Allah yolunda cihad etməyin bir hissəsi sayılır.[114]

**98.** Məscidə hər səhər-axşam Allaha xatir getməyən şəxsin əməlləri naqisdir.[115]

---

[111] «Sunəni-Əbu Davud», c: 3, səh: 7, həd: 2494; «Mustədrəku-ələs-səhihəyn», c: 3, səh: 83, həd: 2400; «Əs-Sunənul-kubra», c: 9, səh: 280, həd: 18538; «Əməlul-yəvm vəl-leylə», səh: 62, həd: 16; Əmmal, c: 15, səh: 843, həd: 18538; «Səhihi-İbn Həbban», c: 2, səh: 252, həd: 499; «Əl-Mucəmul-kəbir», c: 8, səh: 100, həd: 7491; «Hilyətul-ovliya», c: 9, səh: 251.

[112] «Cameul-əxbar», səh: 172, həd: 408; «Biharul-ənvar», c: 84, səh: 154, həd: 49.

[113] «Cameul-əxbar», səh: 172, həd: 407; «Biharul-ənvar», c: 84, səh: 154, həd: 49.

[114] «Əl-Mucəmul-kəbir», c: 8, səh: 178, həd: 7739 (Ümm Dərda rəvayət edir); «Tarixi-Dəməşq», c: 14, səh: 329, həd: 3601; «Əl-Firdəvs», c: 3, səh: 109, həd: 4303 (Bütün hədisləri Əbi Ümamə rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 648, həd: 20722 (İbn Nəccar, ibn Abbasın vasitəsilə rəvayət edir).

[115] «Mövzehul-əvham əl-cəm vət-təfriq», c: 1, səh: 359, həd: 205 (Ümm Dərda rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 569, həd: 20301 (Deyləmi vasitəsilə rəvayət edir).

**99.** Hər səhər-axşam məscidə gedən şəxsin hər gedişində Allah-Təala onun Behişt azuqəsini hazırlayır.[116]

**100.** Sənin məscidə doğru gedişinin və oradan evə qayıdışının savabı bərabərdir.[117]

**101.** Hər səhər-axşam məscidə gedən şəxs, bu əməlinə başqa işlərlə müqayisədə daha çox əhəmiyyət versə, Allah-Təala hər dəfə onun üçün Behişt nemətlərindən azuqə hazırlayar. Necə ki, sizlərdən hər biri sevdiyiniz şəxsin görüşünüzə gəldiyini gördükdə, ona (xüsusi) ziyafət təşkil edər.[118]

**102.** Agah olun! Hər kim camaat namazı qılmaq niyyəti ilə məscidə gedərsə, hər addımının müqabilində yetmiş min savab əldə edər və elə bu qədər də onun əməl dərəcəsi artar.[119]

**103.** Bu altı xislətdən biri hansı müsəlmanda olarsa, Allah-Təala onun Behiştə daxil olmasına zamin olar: ... Gözəl şəkildə dəstəmaz alıb, namaz qılmaq üçün məscidə gedən şəxs. Əgər bu şəxs məscidə gedərkən (ya qayıdarkən)

---

[116] «Səhihi-Buxari», c: 1, səh: 235, həd: 631; «Səhihi-Muslim», c: 1, səh: 463, həd: 285; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 583, həd: 10613; «Səhihi-İbn Həbban», c: 5, səh: 385, həd: 2032; «Səhihi-İbn Xəzimə», c: 2, səh: 376, həd: 1496; «Əs-Sunənul-kubra», c: 3, səh: 88, həd: 4970; «Hilyətul-ovliya», c: 3, səh: 229; «Kənzul-ummal», c: 7, səh: 557, həd: 20238.

[117] «Əz-Zohd», İbn Mübarək, səh: 3, həd: 10; (Yəhya ibn Yəhya əl-Ğəşşani rəvayət edir); «Kənzul-ummal», c: 16, səh: 272, həd: 44412; «Biharul-ənvar», c: 89, səh: 213, həd: 57 (Şəhid Saninin «Risalətul-cümə» əsərindən nəql edilir).

[118] «Kənzul-ummal», c: 4, səh: 17, həd: 4968 (İbn Zəcuyə və İbn Lal, Əbi Hüreyrədən nəql edir).

[119] «Mən la yəhzəruhul-fəqih», c: 3, səh: 102, həd: 3419; «Əmali-Səduq», səh: 517, həd: 707 (Hüseyn ibn Zeyd imam Sadiqdən (ə) və o həzrət də ata-babalarından (ə) nəql edir); «Rovzətul-vaizin», səh: 369; «Biharul-ənvar», c: 76, səh: 336, həd: 1.

dünyasını dəyişsə, Allah-Təala (onun Behiştə getməsinə) zamin olar.[120]

**104.** Evində özünü təmizləyib, sonra da vacib namazlardan birini yerinə yətirmək üçün Tanrı evlərindən birinə sarı yola düşən şəxsin ilk addımı onun pis əməllərini təmizləyər, digər addımı isə (Behiştəki) məqamını yüksəldər.[121]

**105.** Gözəl şəkildə dəstəmaz alib, yalnız namaz qılmaq üçün evdən çıxan şəxs, məscidə daxil olana qədər (hər addım attığında) ardıcıl olaraq sol ayağı onun pis əməllərini məhv edib, sağ ayağı da (ona) savab yazar.[122]

**106.** Layiqli şəkildə dəstəmaz alıb, təkcə namaz qılmaq məqsədi ilə məscidə sarı yola düşən şəxs, oraya daxil olana qədər attığı hər addımda Allah-Təala onun günahlarını silib, məqamını yüksəldər. O, məscidə daxil olduğu vaxtdan namazın başlanmasına qədər olan müddətdə namaz qılan şəxs kimidir.[123]

**107. İmam Zeynül-abidin (ə):** «Məscidlər Allahın evləridir. Məscidə doğru şövqlə tələsən insanlar, fərəhlə Allahın hüzuruna, görüşünə tələsmiş kimidirlər».[124]

**108. İmam Sadiq (ə):** «Yağışlı və ya quru havada məscidə tərəf irəliləyən şəxsi, yerin yeddi qatı mədh edər.»[125]

---

[120] «Əl-Mucəmus-səğir», c: 4, səh: 143, həd: 3822 (Aişə rəvayət edir); «Kənzul-ummal», c: 15, səh: 894, həd: 43536; «Əd-Dəavat», səh: 227, həd: 631; «Biharul-ənvar», c: 83, səh: 372, həd: 36.

[121] «Səhihi-Muslim», c: 1, səh: 338, həd: 790; «Əs-Sunənul-kubra», c: 3, səh: 87, həd: 4967; «Kənzul-ummal», c: 7, səh: 297, həd: 18960.

[122]«Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 338, həd: 790; «Əl-Mucəmul-kəbir», c: 12, səh: 272, həd: 13328; «Kənzul-ummal», c: 9, səh: 287, həd: 26041 (Beyhəqinin «Şobul-iman» kitabından nəql edilir); «Əs-Sunənul-kubra», c: 3, səh: 98, həd: 5011.

[123] «Səhihi-Buxari», c: 1, səh: 181, həd: 465.

[124] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 199, həd: 603; «Ət-Tovhid», səh: 177, həd: 8; «İləluş-şərayə», səh: 133, həd: 1; «Əmali-Tusi», səh: 544, həd: 727 (Bütün hədisləri Zeyd ibn Əli ibn Hüseyn (ə) rəvayət edir); «Biharul-ənvar», c: 18, səh: 349, həd: 60.

## *5.3 MƏSCİDƏ HAMIDAN ÖNCƏ DAXİL OLMAĞIN SAVABI*

**109. Həzrət Məhəmməd (s):** «(Qurani-kərimdə buyurulur:) «**Və öndə olanlar; Onlar (dünyada Allah yolunda, imanda, əməldə, xeyirdə öndə olduqları kimi, Axirətdə də) öndədirlər! (Nə xoşbəxtdir onlar!) Onlar (Allah dərgahına və lütfünə) yaxınlaşmış kimsələrdir.**»[126]

(Bu ayənin nümunələrindən biri də) Məscidə ilk daxil olan və oranı sonuncu olaraq (hamıdan sonra) tərk edən şəxsdir.»[127]

**110. İmam Baqir (ə):** «Allahın Rəsulu (s) Cəbrayıldən soruşdu: «Ey Cəbrayıl! Hansı məkan Allah yanında daha dəyərlidir?» Dedi: «Məscidlər. Allahın ən çox sevdiyi məscid əhli isə hamıdan qabaq məscidə girib, hamıdan sonra oranı tərk edən şəxsdir.»[128]

**111. Rəsulallah (s):** «(Əbuzərə nəsihət edərkən) Ey Əbuzər! Qiyamət günündəki bayraq sahibləri necə də xoşbəxtdirlər! Onlar əllərində bayraq hamıdan qabaqda

---

[125] «Təhzibul-əhkam», c: 3, səh: 255, həd: 706; «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 233, həd: 701; «Səvabul-əmal», səh: 46, həd: 1 (Məhəmməd ibn Mərvan rəvayət edir); «Məkarimul-əxlaq», c: 2, səh: 60, həd: 2144; «Biharul-ənvar», c: 84, səh: 13, həd: 91.

[126] «Vaqiə» surəsi, ayə: 10-11.

[127] «Əl-Firdəvs», c: 2, səh: 348, həd: 3574 (İbn Abbas rəvayət edir); «Əd-Durrul-mənsur», c: 8, səh: 6 (Əbu Nəim və Beyhəqidən rəvayət olunur).

[128] «Əl-Kafi», c: 3, səh: 489, həd: 14; «Əmali-Səduq», səh: 145, həd: 237 (Hər iki hədisi Cabir rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 3, səh: 199, həd: 3751 (İmam Əli (ə) rəvayət edir); «Məanil-əxbar», səh: 168 (Müfəzzəl ibn Səid rəvayət edir); «Biharul-ənvar», c: 84, səh: 4, həd: 76; «Kənzul-ummal», c: 7, səh: 652, həd: 20747; «Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 167, həd: 306.

Behiştə doğru gedərlər. Agah olun! Onlar sübh çağı və başqa vaxtlar hər kəsdən əvvəl namaza tələsənlərdir.»[129]

## *5.4 MƏSCİD ƏHLİ OLMAĞIN FƏZİLƏTİ*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**112.** Allah-Təala söhbəti Quran ayələri və evi məscid olan hər kəsə Behiştdə bir ev inşa edər.[130]

**113.** (Merac gecəsi müşahidə etdiyi Behiştin bəzi qapılarına həkk olunmuş yazıları bəyan edərkən): Kim Behiştdəki yerini görmək istəyirsə, məscidlərdə məskunlaşsın. (orada ibadətə məşğul olsun) [131]

**114.** Bu dünyada (Allaha) qonaq olun ki, məscidlər eviniz olsun.[132]

**115.** «Allah-Təala (insanların) yeddi dəstəsini Tanrının (mərhəmət) sayəsindən başqa heç bir sığınacağın olmadığı gündə (Qiyamət günü) Öz (rəhmət) sayəsinin altına alar: ... məsciddən çıxarkən, oraya bir də qayıtmaq üçün darıxan şəxs.»[133]

---

[129] «Əmali-Tusi», səh: 529, həd: 1162; «Məkarimul-əxlaq», c: 2, səh: 366, həd: 2661; «Tənbihul-xəvatir», c: 2, səh: 54; «Əlamud-din», səh: 192 (Bütün hədisləri Əbuzər rəvayət edir); «Biharul-ənvar», c: 77, səh: 78, həd: 3.

[130] «Təhzibul-əhkam», c: 3, səh: 255, həd: 707 (Səkuni, imam Sadiq (ə) vasitəsilə o həzrətin atasından (ə) nəql edir); «Səvabul-əmal», səh: 47, həd: 1; «Əmali-Səduq», səh: 591, həd: 819; «Əl-Cəfəriyyat», səh: 31 (İsmayıl, atası imam Kazım (ə) vasitəsi ilə o həzrətin ata-babalarından (ə) nəql edir); «Rovzətul-vaizin», səh: 370; «Dəaimul-İslam», c: 1, səh: 148; «Biharul-ənvar», c: 83, səh: 385, həd: 62.

[131] «Əl-Fəzail», səh: 129 (İbn Məsud rəvayət edir)

[132] Kənzul-fəvaid, c: 1, səh: 344; «Əlamud-din», səh: 146; «Biharul-ənvar», c: 73, səh: 81, həd: 43

[133] «Sunəni-Tirmizi», c: 4, səh: 598, həd: 2391, Əbu Səid Xidri rəvayət edir); «Əl-Muvətta, c: 2, səh: 952, həd: 14; «Əs-Sunənul-kubra», c: 10, səh: 149, həd: 91; «Tarixi-Dəməşq», c: 22, səh: 226, həd: 4926; «Səhihi-Buxari», c: 1, səh: 234, həd: 629; «Səhihi-Muslim», c: 2, səh: 715, həd: 1031; «Sunəni-Nəsai», c: 8, səh: 222; «Musnədi-İbn Hənbəl», c: 3, səh:

**116.** Məscidin divarına söykənmək ərəbin zahidliyi deməkdir. Həqiqətən də, möminin oturduğu yer məscid, istirahət yeri isə evidir.[134]

**117.** Şeytan adəm övladının canavarıdır. (Agah olun!) Sürüdən ayrılan qoyun qurda yem olar. Beləliklə, təfriqədən çəkinin, (həmişə) birliyə, həmrəyliyə və məscidə doğru üz tutun.[135]

**118.** Bir-birinizə salam verin ki, Allah-Təala sizi məscidlərdə görsun.[136]

**119.** Məscid hər təqvalı insanın evidir. Allah-Təala məscidi öz evi secən şəxsin (Qiyamət günü) rahat-asudə olmasına, Tanrının mərhəməti (sayəsində) qərar tutmasına və Sirat körpüsündən (əmin-amanlıq içində) keçməsinə zəmanət verir.[137]

**120.** Hər bir müsəlman məscidi ibadət etmək və Allahı xatırlamaq məqsədilə öz evi seçərsə, uzun müddət uzaq

---

440, həd: 9671; «Kənzul-ummal», c: 15, səh: 904, həd: 43561; «Xisal», səh: 343, həd: 7; «Əvaliul-lai», c: 2, səh: 71, həd: 187; «Biharul-ənvar», c: 26, səh: 261, həd: 41.

[134] «Əl-Kafi», c: 2, səh: 662, həd: 1 (Səkuni, imam Sadiqdən (ə) rəvayət edir); «Təhzibul-əhkam», c: 3, səh: 249, həd: 684 (İsmail ibn Əbu Abdullah (ə) atasının vasitəsilə Peyğəmbərdən (s) rəvayət edir); «Mişkatul-ənvar», səh: 358, həd: 1162 (İmam Sadiq (ə) Peyğəmbərdən (s) rəvayət edir); «Nəvadir», Ravəndi, səh: 164, həd: 248; «Dəaimul-İslam», c: 1, səh: 148 (İmam Əli (ə) rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 380, həd: 49.

[135] «Musnədi-İbn Hənbəl», c: 8, səh: 238, həd: 22090; «Əl-Mucəmul-kəbir», c: 20, səh: 164, həd: 344 (Hər iki hədisi Məaz ibn Cəbəl rəvayət edir); «Kənzul-ummal», c: 1, səh: 206, həd: 1026.

[136] «Əl-Firdəvs», c: 2, səh: 45, həd: 2264 (Suban rəvayət edir).

[137] «Əl-Mucəmul-kəbir», c: 6, səh: 255, həd: 6143 (Süleyman rəvayət edir); «Hilyətul-ovliya», c: 1, səh: 214; «Tarixi-Dəməşq», c: 74, səh: 153 (Hər iki hədisi Əbu Dərda rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 880, həd: 20349.

səfərdə olan (əziz) yaxınını görən ailə üzvləri kimi, Allah-Təala (da onun gəlişinə) sevinər.[138]

**121.** Hər kəs məscidlə ünsiyyət yaratsa, Allah-Təala da onunla ünsiyyət yaradar.[139]

**122.** Hər bir məscidin mələklərlə həmdəm olan «mismarlar»ı vardır. Onlar məscidə gəlmədikdə, mələklər onları axtarar. Əgər xəstələnsələr, onları yoxlamağa gedər, ehtiyacları olduqda isə onlara kömək edərlər.[140]

**123. İmam Əli (ə):** «(Merac haqqında olan hədisdə buyurulur): Allah-Təala buyurur: «Ey Əhməd! Hər kim sədaqətlə və tam səmimiyyətlə «Mən Allahı sevirəm!»-deyərsə, bil ki, məscidi öz evi seçər.»[141]

**124. Əmirəl-möminin (ə):** «Axirət aləmini düşünüb, dünyadan üz çevirən insanlar, necə də xoşbəxtdirlər! Onlar məscidləri xalça, onun torpağını yataq, suyunu təmizlik vasitəsi, Quran və duanı da özünə geyim vəsiləsi seçib, İsa ibn Məryəm (ə) kimi yaşayırlar.»[142]

**125. İmam Zeynül-abidin (ə):** «Musa ibn İmran (ə) dedi: «İlahi! Sənin (mərhəmət) sayəndən başqa heç bir sığınacağın olmadığı gündə (Qiyamət günündə) Öz (rəhmət) sayən altına alacağın kəslər kimdir?» Allah-Təala ona belə vəhy etdi:

---

[138] «Sunəni-İbn Macə», c: 1, səh: 262, həd: 800; «Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 332, həd: 771; «Kənzul-ummal», c: 7, səh: 649, həd: 20725.

[139] «Əl-Mucəmul-əvsət», c: 6, səh: 269, həd: 6383 (Əbu Səid Xidri rəvayət edir); «Rəbiul-əbrar», c: 1, səh: 305; «Kənzul-ummal», c: 7, səh: 649, həd: 20727; «Əvaliul-lai», c: 2, səh: 32, həd: 78.

[140] «Məcazatun-Nəbəviyyə», səh: həd: 332; «Biharul-ənvar», c: 83, səh: 383, həd: 38; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 399, həd: 9424; «Kənzul-ummal», c: 7, səh: 580, həd: 20350.

[141] «İrşadul-qulub», səh: 199-205; «Biharul-ənvar», c: 77, səh: 30, həd: 6.

[142] «Mustədrəkul-vəsail», c: 12, səh: 51, həd: 13488 (Ravəndinin «Lobbul-lubab» kitabından istifadə olunmuşdur).

«Qəlbləri pak və təvazökar şəxslər... Onlar, qartalların yuvalarına sığındığı kimi, məscidlərə sığınarlar.»[143]

**126. İmam Sadiq (ə):** «Mürüvvət iki növdür: Evdə və səfərdə alicənab olmaq. Evdə comərd olmaq Qurani-kərimi oxumaqla və məscidlərə getməklə qazanılar.»[144]

**127. İmam Kazım (ə):** «Həzrət İsa Məsih (ə) həvarilərinə buyurdu: «Allahın məbədlərini bədənlərinizin və alınlarınızın zindanı qərar verin.»[145]

### *5.5 MƏSCİDƏ ÇOX GETMƏYİN SAVABI*

**128.** Peyğəmbər (s) buyurur: «Sizə hansı əməlin günahlarınızı yuyub, xətalarınızın bağışlanmasına səbəb olacağını söyləyimmi?» Dedim: «Bəli! Ey Allahın Rəsulu!» Buyurdu: «Çətin şəraitdə kamil formada dəstəmaz almaq, məscidlərə tez-tez getmək və namazın birini qılıb qurtardıqdan sonra o biri namazın başlanmasını gözləmək.[146]

**129.** Zeyd ibn Sabitdən nəql olunur: «Peygəmbərlə (s) birlikdə gəzirdik. O, kiçik addımlarla yeriyirdi. Buyurdu: «Bilirsənmi, nə üçün belə yeriyirəm?» Dedim: «Xeyr,

---

[143] «Əl-Məhasin», c: 1, səh: 79, həd: 45 (Abdullah ibn Məymun əl-Qəddah rəvayət edir); «Mişkatul-ənvar», səh: 253, həd: 748 (Hər iki hədisi imam Sadiq (ə) atasından nəql edir); «Biharul-ənvar», c: 13, səh: 351, həd: 42; «Tarixi-Dəməşq», c: 61, səh: 140 (Əta ibn Yəssar rəvayət edir).

[144] «Mən la yəhzəruhul-fəqih», c: 2, səh: 294, həd: 2498; «Məanil-əxbar», səh: 258, həd: 8 (Heysəm ibn Abdullah ən-Nəhdin atasının vasitəsilə nəql edir); «Əmali-Tusi», səh: 301, həd: 594; «Əmali-Səduq», səh: 646, həd: 875 (Əbu Qütadə Qummi rəvayət edir); «Biharul-ənvar», c: 79, səh: 300, həd: 9.

[145] «Tuhəful-uqul», səh: 393; «Biharul-ənvar», c: 1, səh: 146, həd: 30.

[146] «Tənbihul-xəvatir», c: 1, səh: 5; «Rovzətul-vaizin», səh: 366; «Səhihi-Muslim», c: 1, səh: 219, həd: 41; «Sunəni-Tirmizi», c: 1, səh: 73, həd: 51; «Sunəni-Nəsai», c: 1, səh: 89; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 19, həd: 2131; «Kənzul-ummal», c: 9, səh: 288, həd: 26043.

bilmirəm.» Buyurdu: «Çünki namaz (qılmaq üçün məscidə) gedərkən addımlarımın sayının çox olmasını istəyirəm.»[147]

**130. Həzrət Məhəmməd (s):** «Məsciddən uzaqda yerləşən məkanlardan (oraya ibadət etməyə) gələnlər daha çox savab qazanırlar.»[148]

**131. Rəsulallah (s):** «Məsciddə namaz qılan şəxslərdən ən çox savab qazanan (yolunun uzaq olmasına baxmayaraq), oraya uzun məsafə qət edərək gələn şəxsdir.[149]

**132.** Cabir ibn Abdullah Ənsaridən nəql olunur: Bizim məhəlləmiz məsciddən uzaqda yerləşirdi. Elə buna görə də, məscidə yaxın olmaq üçün evlərimizi satmaq istədik. Amma Allahın Rəsulu (s) bizi fikrimizdən daşındıraraq, buyurdu: «Atdığınız hər addım sizin (Behiştdəki) məqamınızı daha da ucaldır.[150]

## *5.6 GECƏ MƏSCİDƏ GETMƏYİN SAVABI*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**133.** Qüdisi-hədisdə Allah-Təala buyurur: «Qaranlıq gecələrdə daim məscidlərə gedən bəndələrimə Qiyamət gününün aydınlığını müjdə ver.»[151]

---

[147] «Əl-Mucəmul-kəbir», c: 5, səh: 118, həd: 4800; «Kənzul-ummal», c: 7, səh: 576, həd: 20324.

[148] «Sunəni-Əbu Davud», c: 1, səh: 152, həd: 556; «Sunəni-İbn Macə», c: 1, səh: 262, həd: 800; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 265, həd: 8626; «Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 236, həd: 752; «Kənzul-ummal», c: 7, səh: 559, həd: 20246.

[149] «Səhihi-Buxari», c: 1, səh: 233, həd: 623; «Səhihi-Muslim», c: 1, səh: 260, həd: 277; «Səhihi-İbn Xəzimə», c: 2, səh: 378, həd: 1501; «Əs-Sunənul-kubra», c: 3, səh: 90, həd: 4978; «Kənzul-ummal», c: 7, səh: 555, həd: 20227.

[150] «Səhihi-Muslim», c: 1, səh: 461, həd: 279; «Kənzul-ummal», c: 7, səh: 559, həd: 20245

[151] «Səvabul-əmal», səh: 47, həd: 2 (Abdullah ibn Cəfər atasından (ə) nəql edir); «Əl-Məhasin», c: 1, səh: 119, həd: 124 (Abdullah ibn Cəfər atası (əleyhis-səlam) vasitəsilə babasından (ə) nəql edir) və səh: 45, həd: 1 (Kəlib Seydavi imam Sadiqə (s) istinadən Tövratdan nəql edir); «Mən la

**134.** Gecələr məscidə üz tutan şəxslərə Qiyamət günü nurlu bir məkan əta olunacağı müjdəsini ver. O gün hər kəs (Tanrı qəzəbindən) qorxar, amma onlar qorxmazlar.[152]

**135.** Qaranlıq gecədə məscidə gedən şəxsə, Allah-Təala Qiyamət günü bir nur bağışlayar.[153]

**136.** Qaranlıq gecələrdə məscidlərə doğru üz tutanlar İlahi rəhmətinə qərq olmuşlar.[154]

**137.** Qaranlıq gecələrdə daim məscidə gedənlərə mükəmməl bir nur əta olunacağı müjdəsini ver.[155]

**138.** Məhəmməd ibn Münkədirdən nəql olunur: «Çox qaranlıq bir gecədə imam Baqirin (ə) məscidə getdiyini gördüm. Qaçaraq özümü ona yetirdim və salam verdim. O, salamımın cavabını verib, buyurdu: «Ey Məhəmməd ibn Münkədir! Allahın elçisi buyurdu: «Qaranlıq gecələrdə daim məscidlərə gedən bəndələrimə Qiyamət gününün aydınlığını müjdə ver.»[156]

---

yəhzəruhul-fəqih», c: 1, səh: 239, həd: 720, «Məkarimul-əxlaq», c: 2, səh: 60, həd: 2145 (Hər iki rəvayətdə Əhli-Beytə (ə) istinad edilmədən, birbaşa Tövratdan istifadə olunmuşdur), «Biharul-ənvar», c: 84, səh: 14, həd: 92.

[152] «Əl-Mucəmul-kəbir», c: 8, səh: 142, həd: 7633 (Əbu Ümamə rəvayət edir); «Musnədiş-şamiyyin», c: 2, səh: 123, həd: 1033; «Kənzul-ummal», c: 7, səh: 566, həd: 20285.

[153] «Səhihi-İbn Həbban», c: 5, səh: 394, həd: 2046; «Əl-Musənnəf», İbn Əbi Şeybə, c: 2, səh: 156, həd: 1; «Hilyətul-ovliya», c: 2, səh: 12; «Tarixi-Dəməşq», c: 11, səh: 288 (Bütün hədisləri Əbu Dərda rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 566, həd: 20288.

[154] «Sunəni-İbn Macə», c: 1, səh: 256, həd: 779; «Tarixi-Dəməşq», c: 17, səh: 456, həd: 4155.

[155] «Sunəni-Əbu Davud», c: 1, səh: 154, həd: 561; «Sunəni-Tirmizi», c: 1, səh: 435, həd: 223; «Əs-Sunənul-kubra», c: 3, səh: 90, həd: 4977 (Bütün hədisləri Bureydə rəvayət edir); «Sunəni-İbn Macə», c: 1, səh: 256, həd: 781; «Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 332, həd: 769 (Hər iki hədisi Ənəs rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 557, həd: 20235.

[156] «Əl-Usulus-sittə əşər», səh: 190, həd: 156; «Biharul-ənvar», c: 83, səh: 382, həd: 52; «Əl-Mucəmul-kəbir», c: 5, səh: 86, həd: 4662;

## *5.7 MƏSCİDDƏ NAMAZ QILMAĞIN FƏZİLƏTİ*

**139. Həzrət Məhəmməd (s):** «Məğrib, işa və sübh namazını məsciddə camaatla qılan şəxs, gecəni səhərədək oyaq qalaraq, ibadətlə məşğul olan şəxs kimidir.»[157]

**140. Rəsulallah (s):** «Evdə qılınan namaz bir namazın savabını daşıyır, məhəllənin məscidində qılınan namaz isə iyirmi beş namaza bərabərdir. Cümə məscidində qılınan namaz beş yüz namazın savabına, Məscidül-Əqsada qılınan namaz isə əlli min namazın savabına malikdir. Mənim məscidimdə («məscidün-nəbi) qılınan namaz da, əlli min namazın savabına sahibdir. Məscidül-həramda qılınan namaz isə yüz min namazın savabını özündə daşıyır.»[158]

**141. İmam Əli (s):** «Beytül-müqəddəs»də qılınan bir namaz min namaza bərabərdir. «Cümə məscidi»ndə qılınan bir namaz yüz namaza bərabərdir. Məhəllə məscidində qılınan namaz isə iyirmi beş namazaın savabına malikdir. Bazar məscidində qılınan namaz da, on iki namazın savabına sahibdir. Evdə qılınan namaz isə bir namazın savabını daşıyır.»[159]

---

«Musnədi-Şəhab», c: 1, səd. 440, həd: 754 (Hər iki hədisi Zeyd ibn Harisə rəvayət edir).

[157] «Məanil-əxbar», səh: 251, həd: 1; «Əmali-Səduq», səh: 407, həd: 525 (Hər iki hədisi Əbu Bəsir imam Sadiq (ə) vasitəsilə o həzrətin babalarından (ə) nəql edir); «Rovzətul-vaizin», səh: 406; «Biharul-ənvar», c: 69, səh: 369, həd: 9.

[158] «Sunəni-İbn Macə», c: 1, səh: 1413, həd: 453; «Əl-Mucəmul-əvsəd», c: 7, səh: 112, həd: 7008; «Tarixi-Dəməşq», c: 2, səh: 243, həd: 479 (Bütün hədisləri Ənəs rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 554, həd: 20223.

[159] «Təhzibul-əhkam», c: 3, səh: 253, həd: 698 (Səkuni imam Sadiq (ə) vasitəsilə o həzrətin ata-babalarından (ə) nəql edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 233, həd: 702; «Fəlahus-sail», səh: 182, həd: 90 (Səkuni imam Sadiq (ə) vasitəsilə o həzrətin ata-babalarından (ə) nəql edir); «Rovzətul-vaizin», səh: 370; «Biharul-ənvar», c: 84, səh: 15, həd: 95.

**İmam Sadiq (ə) buyurmuşdur:**

**142.** Namazlarıınızı məscidlərdə qılın![160]

**143.** (Məsciddə icra ediləcək dəyərli əməlləri sayarkən buyurdu) Məscidlərdə çox namaz qılıb, dua edin. Məscidlərin müxtəlif yerlərində namaz qılın. Çünki Qiyamət günü hər bir məkan, onda namaz qılan şəxsin xeyrinə şahidlik edəcək.[161]

**144.** Evdə qılınmış camaat namazı iyirmi dörd namaza, məsciddə qılınmış camaat namazı qırx səkkiz namaza, yəni evdə qılınan namazın iki qatına bərabərdir. Məscidül-həramda qılınan namaz başqa məscidlərdə qılınmış min rəkət namaz qədər dəyərlidir. Məsciddə tənha şəkildə namaz qılmaq, iyirmi dörd namazın savabına malikdir.[162]

## *5.8 HƏR SƏFƏRDƏN QAYITDIQDAN SONRA PEYĞƏMBƏRİN (S) MƏSCİDDƏ NAMAZ QILMASI*

**145.** Kəb ibn Malik rəvayət edir: «Həzrət Peyğəmbər (s) hər səfərdən qayıtdıqdan sonra məscidə gedər orada namaz qılardı.»[163]

**146.** İbn Ömər rəvayət edir: «Allahın elçisi (s) Həcc ziyarətindən qayıtdıqdan sonra Mədinəyə gəldi və dəvəsini məscidin qarşısında dayandırdı. Sonra isə məscidə gedib,

---

[160] «Əl-Kafi», c: 2, səh: 635, həd: 1; «Əmali-Mufid», səh: 186, həd: 12 (Hər iki hədisi Mərazim rəvayət edir); «Biharul-ənvar», c: 74, səh: 162, həd: 24.

[161] «Əmali-Səduq», səh: 440, həd: 584 (Hər iki hədisi Mərazim ibn Həkim rəvayət edir); «Rovzətul-vaizin», səh: 369; «Biharul-ənvar», c: 83, səh: 384, həd: 59.

[162] «Əmali-Tusi», səh: 696, həd: 1486 (Rəziq rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 367, həd: 24.

[163] «Səhihi-Buxari», c: 1, səh: 170; «Səhih-Muslim», c: 4, səh: 2123, həd: 53; «Sunəni-Əbu David», c: 3, səh: 88, 2773; «Sunəni-Nəsai», c: 2, səh: 54; «Musnədi-İbn Hənbəl», c: 5, səh: 348, həd: 15772; «Kənzul-ummal», c: 7, səh: 99, həd: 18152.

orada iki rəkət namaz qıldı və ardınca evinə doğru yola düşdü.»[164]

**147.** Cabir ibn Abdullah Ənsaridən rəvayət edir: «Rəsulallahla (s) birlikdə səyahətdə idim. Mədinəyə qayıtdıqda, mənə buyurdu: «Məscidə gir və iki rəkət namaz qıl.»[165]

**148.** Kəəb rəvayət edir: «Həzrət Peyğəmbər (s), hətta gecə yarısı səfərdən qayıtdıqda, məscidə gedər və birbaşa, əyləşib istirahət etmədən öncə, iki rəkət namaz qılardı.»[166]

## *5.9 MƏSCİDDƏ DUA VƏ İBADƏTLƏ MƏŞĞUL OLMAĞIN SAVABI*

**149.** Əbu Səid Xudridən nəql olunur: Allahın elçisi buyurdu: «Allah-Təala buyurur: «Tezliklə məhşər əhli anlayacaq ki, kim daha çox hörmətə layiqdir». Soruşdular: «Ey Allahın Rəsulu! Kim daha çox hörmətə layiqdir?» Buyurdu (s): «Məsciddə ibadətlə məşğul olan şəxslər.»[167]

**150.** İbn Abbas, Cüveyriyə binti Harisdən rəvayət edir: «Həzrət Peyğəmbər (s) (sübh vaxtı) məsciddə ibadət və dua ilə məşğul olan Cüveyriyəni müşahidə etdi. Günorta çağı da onu yenə məsciddə ibadət halında gördükdə, soruşdu: «Hələ də ibadətlə məşğulsan?» Cüveyriyə dedi: «Bəli.» Rəsulallah (s) buyurdu: «Dia etdiyin zaman hansı sözləri söyləməyin lazım olduğunu sənə öyrədimmi? Sonra belə de: Allah-Təala yaratdıqlarının sayı qədər uca və pakdır! Allah-Təala

---

[164] «Sunəni-Əbu Davud», c: 3, səh: 91, həd: 2782; «Musnədi-İbn Hənbəl», c: 2, səh: 485, həd: 6140.

[165] «Səhihi-Buxari», c: 3, səh: 1122, həd: 2921; «Əs-Sunənil-kubra», c: 9, səh: 295, həd: 18589.

[166]«Səhihi-Buxari», c: 3, səh: 1123, həd: 2922.

[167] «Musnədi-İbn Hənbəl», c: 4, səh: 151, həd: 11722; «Səhihi İbn Həbban», c: 3, səh: 98, həd: 816; «Şobul-iman», c: 1, səh: 401, həd: 535; «Musnədi-Əbu Yəla», c: 2, səh: 138, həd: 1399 (Bütün hədisləri Əbu Səid Xidri rəvayət edir), «Kənzul-ummal», c: 1, səh: 447, həd: 1931.

yaratdıqlarının sayı qədər uca və pakdır! Allah-Təala yaratdıqlarının sayı qədər uca və pakdır! Allah-Təala razı olduğu kimi uca və pakdır! Allah-Təala razı olduğu kimi uca və pakdır! Allah-Təala razı olduğu kimi uca və pakdır! Allah-Təala ərşin ağırlığı (əzəməti) qədər uca və pakdır! Allah-Təala ərşin ağırlığı (əzəməti) qədər uca və pakdır! Allah-Təala ərşin ağırlığı (əzəməti) qədər uca və pakdır! Allah-Təala yaratdıqlarının sayı qədər uca və pakdır! Allah-Təala yaratdıqlarının sayı qədər uca və pakdır! Allah-Təala yaratdıqlarının sayı qədər uca və pakdır![168]

**151. İmam Sadiq (ə):** «Bir nəfər Peyğəmbərin (s) yanına gəlib soruşdu: «Ən yaxşı məscid əhli kimdir?» Həzrət (s) buyurdu: «Allahın şəninə daha çox zikr söyləyən (Allahı daha çox yad edən) şəxs.»[169]

**152.** Cabir ibn Abdullahdan nəql olunur: «Allahın elçisi (s) buyurdu: «Məscidlər Axirət bazarlarından biridir. Oraya daxil olan şəxs Tanrı qonağıdır. Oraya daxil olmaq fürsətini əldə etmək, günahların bağışlanmasına səbəb olar. Məscidin (oraya daxil olan şəxsə) salamı kəramətdir. Bununla da, xeyir-bərəkət əldə etmək üçün çalışın!» Soruşdular: «Ey Allahın Rəsulu! Necə xeyir-bərəkət əldə edək?» Buyurdu (s): «Dua və Tanrı dərgahına rəğbətlə üz gətirməklə.»[170]

**153.** Əbu Səid Xudridən nəql olunur: «Bir gün Tanrı elçisi məscidə daxil olduqda, Ənsardan olan Əbu Umamə adlı kişi ilə üzləşdi. Rəsulallah (s) buyurdu:

---

[168] «Sunəni-Nəsai», c: 3, səh: 77; «Əs-Sunənil-kubra», c: 1, səh: 402, həd: 1275; «Musnədi-İbn Hənbəl», c: 10, səh: 399, həd: 27491; «Səhihi-İbn Həbban», c: 3, səh: 113, həd: 832; «Kənzul-ummal», c: 2, səh: 193, həd: 3709.

[169] «Əl-Kafi», c: 2, səh: 499, həd: 1; «İddətud-dai», səh: 234 (Hər iki hədisi ibn Qəddah rəvayət edir); «Biharul-ənvar», c: 93, səh: 193, həd: 43.

[170] «Tarixi-Bağdad», c: 9, səh: 208; «Kənzul-ummal», c: 7, səh: 580, həd: 20348; «Əmali-Tusi», səh: 139, həd: 226.

– Ey Əbu Umamə! Nə üçün namaz vaxtı olmadığı halda məsciddə oturmusan?

Əbu Umamə dedi:

– Borclu olduğuma görə qəm-qüssə və kədər içindəyəm, ey Allahın Rəsulu!

– Sənə bir dua öyrədim ki, onun vasitəsilə Allah-Təala dərd-qəmini aradan aparıb, borclarını ödəməyə yardım etsin?

– Bəli, ey Allahın elçisi!

– Hər səhər-axşam bu duanı oxu: «İlahi! Mən qəm-qüssə, gücsüzlük, taqətsizlik, qorxaqlıq, simiclik, borcumun çoxluğu və insanların məni alçaltmasından Sənə pənah aparıram.

Əbu Umamə deyir: «Bu sözləri dedim və uca Allah mənin dərdimi, kədərimi aradan aparıb, borcumu ödədi.»[171]

**154.** Rəvayət olunur ki; imam Zeynəl-abidin (ə) başqasının evinin qapısının kandarında oturan bir kişinin yanından keçirdi. İmam (ə) (üzünü ona tutub) buyurdu: «Səni bu zalım və lovğa şəxsin qapısına gəlib (yalvarmağa) nə məcbur edib?» Dedi: Çətin və ağır həyat tərzi». Buyurdu: «Dur! Mən səni elə bir qapıya aparacam ki, bu qapı (sahibindən) daha yaxşıdır. Uca Tanrı ondan daha mərhəmətlidir.»

Beləcə, onun əlini tutub Məscidün-nəbiyə (Peyğəmbərin məscidi) apardı. İmam (ə) buyurdu: «Üzünü qibləyə çevir və iki rəkət namaz qıl. Sonra da əllərini Allah dərgahına uzadıb, Ona həmd-səna oxu və Peyğəmbərinə (s) salavat göndər. «Həşr» surəsinin son ayələrini, «Hədid» surəsinin ilk altı ayəsini və «Ali-İmran surəsinin iki ayəsini (18 və 26-cı ayələr) oxuyub, Allahı (köməyə) çağır. İstədiyini Allahdan dilə ki, şübhəsiz, O, sənə istədiyini verəcək.»[172]

---

[171] «Sunəni-Əbu Davud», c: 2, səh: 93, həd: 1555; «Təhzibul-kəmal», c: 23, səh: 106.

[172] «Əd-Dəvat», səh: 55, həd: 138; «Biharul-ənvar», c: 92, səh: 271, həd: 22.

**İmam Sadiq (ə) buyurmuşdur:**

**155.** Atamın (İmam Baqir (ə)) Allah-Təalaya bir hacəti və diləyi olduqda onu günorta çağı istəyərdi. O, əvvəlcə sədəqə verər, ətir vurub, məscidə gedər və sonra da hər nə arzusu varsa, Allahdan istəyərdi.[173]

**156.** Allahdan bir istəyim var idi. Günorta çağı məscidə getdim. Mənim hər hacətim olanda belə edirəm.[174]

**157.** Ey Məsmə! Nə üçün sizə qəm-qüssə üz verdikdə dəstəmaz alıb, məscidə gedib, iki rəkət namaz qılıb, Allahdan hacətinizi diləmirsiniz?! Bu ayəni eşitməmisinizmi?: «**(Müsibət vaxtında) səbir etmək və namaz qılmaqla (Allahdan) kömək diləyin!**»[175]

**158. İmam Sadiq (ə):** «Xəstələndiyiniz zaman həkimə müraciət edərək, ona müəyyən məbləğ ödəyirsiniz. Həmçinin, hökmdarın yanına (dərdinizi deməyə) gedərkən qapıçıya bəxşiş verirsiniz. Hər hansı bir müşküllə üzləşdiyiniz zaman Allaha pənah aparsanız, əvvəlcə dəstəmaz alın. Sonra da məscidə gedib, iki rəkət namaz qılın və Allaha həmd-səna edib, Peyğəmbərinə (s) və Əhli-beytinə (ə) salavat göndərin. Ardınca da belə dua edin: İlahi! Xəstələndikdə mənə şəfa ver. Səfərə gedərkən sağ-salamat geri qayıtmağıma kömək ol. Qorxduğum bəlalardan məni qoru.

Allah-Təala duanızı qəbul edəcək. O, bəndə şükür etdiyi zaman dualarını qəbul etməyə and içib.» [176]

---

[173] «Əl-Kafi», c: 2, səh: 477, həd: 7; «Məkarimul-əxlaq», c: 2, səh: 14, həd: 2020; «İddətud-dai», səh: 48 (Bütün hədisləri Müaviyə ibn Əmmar rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 361, həd: 15.

[174] «Təfsiri-Əyyaşi», c: 2, səh: 29, həd: 82; «Ricali-Kəşi», c: 2, səh: 497, həd: 418 (Hər iki hədisi Davud ibn Fərqət rəvayət edir); «Biharul-ənvar», c: 47, səh: 347, həd: 44.

[175] «Bəqərə» surəsi, ayə: 45; «Təfsiri-Əyyaşi», c: 1, səh: 43, həd: 39 (Məsmə rəvayət edir); «Biharul-ənvar», c: 91, səh: 348, həd: 10.

[176] «Təhzibul-əhkam», c: 3, səh: 182, həd: 415; «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 557, həd: 1544; «Misbahul-mücahid», səh: 530 (Hər iki

## *5.10 MƏSCİDDƏ ETİKAF[177] SAXLAMAĞIN FƏZİLƏTİ*

**Qurani-kərim: «Məscidlərdə ibadətdə (etikaf) olduğunuz zaman onlarla (qadınlarınızla) yaxınlıq etməyin! Bunlar (bu hökmlər) Allahın hədləridir, bunları aşmayın! Allah (insanlara) hökmlərini bu cür bildirir ki, təqvalı olsunlar!»[178]**

**İmam Sadiq (ə) buyurmuşdur:**

**159.** Yalnız Came məscidində oruc tutaraq, etikaf saxlamaq düzgün sayılır.[179]

**160.** İmam Əli (ə) buyurur: «Yalnız Məscidül-həram, Məscidün-nəbi və ya Came məsciddə etikaf saxlamaq səhihdir. Etikaf saxlayan şəxsin çarəsiz olmadığı və ya cox zəruri ehtiyacın yaranmadığı müddətdə məsciddən kənara çıxması, düzğün deyil.»[180]

**161.** Məkkədən kənarda etikaf saxlamaq, Peyğəmbərin () məscidi və ya Came məscidlərinin birində olmazsa, səhih deyildir![181]

---

hədisi Səmaə ibn Mehran rəvayət edir); «Əl-Məqnəə», səh: 220; «Biharul-ənvar», c: 91, səh: 351, həd: 12.

[177] Məsciddə icra olan xüsusi ibadət növü. Əlavə məlumat toplamaq üçün risalələrdə mövcud olan etikaf məsələlərinə müraciət edin (Mütərcim).

[178] «Bəqərə» surəsi, ayə: 187.

[179] «Əl-Kafi», c: 4, səh: 176, həd: 3; «Mən la yəhzəruhul-fəqih», c: 2, səh: 184, həd: 2086 (Hər iki hədisi Hələbi rəvayət edir); «Vəsailuş-şiə», c: 7, səh: 400, həd: 14066. "Came məscidi" dedikdə rayonun, şəhərin və ya bir məntəqənin ən böyük və mərkəzi məscidi nəzərdə tutulur.

[180] «Əl-Kafi», c: 4, səh: 176, həd: 2; «Təhzibul-əhkam», c: 4, səh: 291, həd: 884; «Mən la yəhzəruhul-fəqih», c: 2, səh: 185, həd: 2091; «Vəsailuş-şiə», c: 7, səh: 402, həd: 14075.

[181] «Təhzibul-əhkam», c: 4, səh: 293, həd: 891 (Abdullah ibn Sənan rəvayət edir); «Vəsailuş-şiə», c: 7, səh: 401, həd: 14068.

## *5.11 MƏSCİDDƏ ÖRYƏNMƏK VƏ ÖYRƏTMƏYİN SAVABI*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**162.** Sübh vaxtı, yalnız faydalı bir şey öyrənmək və ya öyrətmək üçün məscidə gedən şəxs, kamil formada ümrə ziyarəti yerinə yetirmiş şəxsin savabını qazanar. Xeyirli bir şey öyrənmək və ya öyrətmək niyyəti ilə, gecə məscidə gedən şəxs isə həcc ziyarətini mükəmməl şəkildə icra etmiş şəxsin savabını qazanar.»[182]

**163.** Kim mənim məscidimə, yalnız xeyirli bir şey öyrənmək və ya öyrətmək məqsədi ilə gəlsə, Allah yolunda cihad etmiş şəxs kimidir. Ayrı bir niyyətlə (məsələn; qeybət etmək üçün) gələn şəxs isə sanki başqasının malına göz dikmişdir.»[183]

**164.** Allah evlərindən birində toplaşaraq Quran oxuyan, onu bir-birinə öyrədən kəslər, ilahi asudəlik və rəhmətindən bəhrələnər, mələklər onları əhatəyə alar və Allah-Təala, yanındakılara onlar haqqında danışar (onları mədh edər).[184]

---

[182] «Minyətul-murid», səh: 106; «Biharul-ənvar», c: 1, səh: 185, həd: 105; «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 1, səd. 169, həd: 311; «Əl-Adab», səh: 524, həd: 1185 (Hər iki hədisi Əbu Ümamə rəvayət edir); «Kənzul-ummal», c: 10, səh: 166, həd: 28859; «Əl-Mucəmul-kəbir», c: 8, səh: 94, həd: 7473; «Musnəduş-şamiyyin», c: 1, səh: 23, həd: 423, «Tarixi-Dəməşq», c: 16, səh: 456, həd: 4014.

[183] «Sunəni-İbn Macə», c: 1, səh: 82, həd: 227; «Musnədi-Hənbəl», c: 3, səh: 398, həd: 9419; «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 169, həd: 309; «Əl-Mucəmul-kəbir», c: 6, səh: 175, həd: 5911; «Hilyətul-ovliya», c: 3, səh: 254 (Hər iki hədisi Səhl ibn Səəd rəvayət edir); «Kənzul-ummal», c: 10, səh: 148, həd: 28758.

[184] «Səhihi-Muslim», c: 4, səh: 2074, həd: 38; «Sunəni-Əbu Davud», c: 2, səh: 71, həd: 1455; «Sunəni-Tirmizi», c: 5, səh: 195, həd: 2945; «Sunəni-İbn Macə», c: 1, səh: 82, həd: 225; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 57, həd: 7431; «Tarixi-Bağdad», c: 12, səh: 114; «Kənzul-ummal», c: 1, səh: 544, həd: 2436; «Əvaliul-lai», c: 1, səh: 375, həd: 97.

**165.** Abdullah ibn Ömərdən nəql olunur: «Bir gün Allahın Rəsulu (s) evindən (otaqlarından birindən) çıxıb, məscidə daxil oldu. Həzrət Peyğəmbər (s) məsciddə iki dəstəni müşahidə etdi. Bir qrup insan Quran oxuyub, ibadətlə məşğul idi. O biri qrup isə bir-birlərinə (elm) öyrədir və öyrənirdi. Rəsulallah (s) buyurdu: «Hər iki dəstə xeyirli və faydalı işlə məşğuldur. Bu dəstə Quran oxuyub, Allahı çağırır. Allah istəsə, onların dualarını qəbul edər, istəməsə də qəbul etməz. Başqa dəstə isə öyrənir, digərlərinə də, öyrədir. Agah olun! Mən, yalnız müəllim olaraq peyğəmbərliyə seçilmişəm.»

(Sonra da) Allahın Rəsulu (s) onların (ikinci dəstənin) yanında əyləşdi.»[185]

**166.** İbn Abbasdan nəql olunur: «Biz dəstə-dəstə dairə şəkilində məsciddə oturmuşduq. Allahın elçisi (s) məscidə daxil olub, soruşdu: «Nə ilə məşğulsunuz?» Dedim: «Günəşin çıxış və batışı haqqında fikirləşirik.» Buyurdu: «Afərin! Həmişə belə olun. Yaranmışlar barəsində fikirləşin, amma Yaradanın zatı və həqiqəti haqqında (əsla) fikir yürütməyin. Allah-Təala hər bir şeyi öz hədəf və məqsədinə uyğun yaratmışdır.»[186]

**167.** Əqəbət ibn Amirdən rəvayət olunur: «Biz Suffədə oturduğumuz zaman, Allahın Rəsulu (s) yanımıza gəlib, buyurdu: «Kim Buthan, yaxud da Əqiq məntəqəsinə gedib, iki böyük, ağ və hündür belli dişi dəvə qazanmaq istəyir? Amma bu şərtlə ki, Allahın əmrlərinə qarşı çıxmayacaq və qohumlarla əlaqəni kəsməyəcəkdir.» Dedilər: «Biz hamımız buna hazırıq, ey Allahın Rəsulu!» Peyğəmbər (s) buyurdu: «Hər birinizin gündəlik olaraq məscidə gəlib ilahi Kitabdan iki ayə öyrənməsi, iki ağ dəvəyə sahib olmaqdan daha dəyərlidir. Üç ayə öyrənmək isə üç dəvəyə malik olmaqdan

[185] «Sunəni-İbn Macə», c: 1, səh: 83, həd: 229; «Sunəni-Darəmi», c: 1, səh: 105, həd: 355; «Musnədi-Təyalisi», səh: 298.

[186] «Kitabul-izmə», c: 4, səh: 1490, həd: 982; «Biharul-ənvar», c: 57, səh: 348, həd: 44.

daha faydalıdır. Ümumiyyətlə, hər nə qədər çox ayə öyrənsəniz, bir o qədər dəvəyə yiyələnməkdən daha yararlı və mənfəətlidir.»[187]

**168.** Səid ibn Müsəyyib rəvayət edir: «İmam Zeynəl-abidin (ə) hər cümə günü Peyğəmbərin (s) məscidində xalqa moizə oxuyur, insanları dünyaya bağlanmamağa çağırır və Axirət dünyası (üçün faydalı olan) əməllərə doğru üz gətirməyə dəvət edirdi. Onu dinləyənlər də (İmamın (ə)) kəlamlarını əzbərləyir və yazırdılar.»[188]

## *5.12 MƏSCİDƏ SIĞINMAĞIN FƏZİLƏTİ*

**169.** Mahmud ibn Ləbid rəvayət edir: «Peyğəmbərin (s) oğlu İbrahim vəfat etdiyi zaman Günəş tutuldu. Camaat: «Günəş, İbrahim öldüyü üçün tutuldu»-dedilər. Peyğəmbər (s) buyurdu: «Günəş və Ay, Allahın (ilahi qüdrətin) iki nişanəsidir. Agah olun! Bunlar nə kimsənin ölməsi, nə də kiminsə dirilməsinə görə tutulmazlar. Ay və Günəş tutulduqda məscidə pənah aparın.»[189]

**170. İmam Baqir (ə):** «Zəlzələ, Günəşin və ya ayın tutulması və qorxuducu küləklər Qiyamət gününün nişanələrindəndirlər. Hər zaman onlardan birini müşahidə etdikdə, Qiyamət gününü xatırlayın və məscidlərinizə pənah aparın.»[190]

---

[187] «Sunəni-Əbu Davud», c: 2, səh: 71, həd: 1456; «Səhihi-Muslim», c: 1, səh: 552, həd: 251; «Musnədi-İbn Hənbəl», c: 6, səh: 140, həd: 7413; «Kənzul-ummal», c: 1, səh: 519, həd: 2324; «Əmali-Tusi», səh: 357, həd: 741; «Biharul-ənvar», c: 6, səh: 223, həd: 24.

[188] «Əl-Kafi», c: 8, səh: 72, həd: 29; «Əmali-Səduq», səh: 593, həd: 822; «Əlamud-din», səh: 223; «Biharul-ənvar», c: 6, səh: 223, həd: 24.

[189] «Musnədi-İbn Hənbəl», c: 9, səh: 160, həd: 23691; «Ət-Təbəqatul-kubra», c: 1, səh: 142; «Kənzul-ummal», c: 7, səh: 825, həd: 21563; «Musəkkinul-fəvaid», səh: 94; «Biharul-ənvar», c: 91, səh: 163, həd: 15.

[190] «Əmali-Səduq», həd: 551, həd: 735 (Məhəmməd ibn Əmarə, atası vasitəsilə imam Sadiqdən (ə) nəql edir); «Rovzətul-vaizin», səh: 531; «Biharul-ənvar», c: 91, səh: 147, həd: 4.

**171.** Müaviyə ibn Əmmardan nəql olunur: İmam Sadiq (ə) buyurur: «Mömin şəxsi ildırım vurmaz.»

Dedilər: Amma biz Məscidül-həramda namaz qılan bir kişini ildırım vurduğunu gördük.

İmam Sadiq (ə) buyurdu: «O kişi Məscidül-həramın göyərçinlərini daşa basırdı.»[191]

## *5.13 AZAN SƏSİNİ EŞİTDİKDƏN SONRA MƏSCİDİ TƏRK ETMƏYİN KƏRAHƏTİ*

**172. Həzrət Məhəmməd (s):** «Azan səsini eşitdikdən sonra, səbəbsiz olaraq, məscidi tərk edən və oraya yenidən qayıtmaq niyyəti olmayan şəxs, münafiqdir!»[192]

**173. İmam Sadiq (ə):** «(Yunis ibn Yaquba müraciətlə) Ey Yunis! Onlara de: Ey «müəllifəti-qülubihim»! (Pis) əməllərinizi gördüm. Azan səsini eşitdiyiniz zaman ayaqqabılarınlzı götürüb, məscidi tərk edirsiniz.[193]

## *5.14 MƏSCİDİ BOŞ QOYUB, ORADA NAMAZ QILMAMAĞIN PİSLƏNİLMƏSİ*

**174. İmam Sadiq (ə):** «Peyğəmbər (s) buyurur: «Heç bir üzrü olmadan məsciddə müsəlmanlarla birlikdə namaz qılmayan şəxsin namazı qəbul deyil! Evdə namaz qılıb, bizim camaatdan uzaqlaşan şəxsin (bu işini tənqid etmək barəsində olan) qeybəti caizdir. Müsəlman camaatından üz döndərən (onlara kin bəsləyən) şəxs tənqid olunmalıdır və (bu işini

---

[191] «İləluş-şərayə», səh: 462, həd: 6; «Biharul-ənvar», c: 59, səh: 376, həd: 7.

[192] «Təhzibul-əhkam», c: 3, səh: 262, həd: 740 (İmam Sadiq (ə) ata-babalarından (ə) nəql edir); «Əmali-Səduq», səh: 591, həd: 820 (Səkunu imam Sadiqdən (ə) və o həzrət də ata-babalarının (ə) vasitəsilə Peyğəmbərdən (s) rəvayət edir); «Əl-Cəfəriyyat», səh: 42 (İmam Kazım (ə) atası vasitəsilə imam Əlidən (ə) nəql edir); «Dəaimul-İslam», c: 1, səh: 147; «Biharul-ənvar», c: 84, səh: 161, həd: 65.

[193] «Ricali-Kəşi», c: 2, səh: 686, həd: 728 (Yunis ibn Yəqub rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 372, həd: 35.

tənqid etmək barəsində olan) qeybəti müsəlmanlara vacibdir. O, müsəlmanlar arasında ədalətini itirmişdir və ona etiraz edilməlidir. Onu müsəlmanların rəhbərinin hüzuruna apardıqda xəbəldarlıq olunmalı və bu işə son qoyması tələb edilməlidir. Lakin o, müsəlmanlara qaynayıb-qarışsa, əmin-amanlıqdadır... Belə olan surətdə onun qeybəti haramdır və ədaləti bərpa edilmiş sayılır.»[194]

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**175.** Bu dünyada dörd şey qəribdir: Zalım şəxsin ağuşundakı (sinəsindəki) Quran, namaz qılınmayan məscid, Evdə (dustaq) qalıb oxunmayan Quran və fasiq cəmiyyətin arasında yaşayan saleh əməlli insan.[195]

**176.** Üç şey Qiyamət günü Allah dərgadına şikayət edəcək: «Qurani-kərim, məscid və Əhli-beyt (ə). Quran buyurar: «İlahi! Məni yandırdılar, parça-parça etdilər.» Məscid deyər: «İlahi! Məni tərk etdilər və kənara atıb hədər etdilər.» Əhli-beyt (ə) buyurar: «İlahi! Bizi qətlə yetirdilər, cəmiyyətdən uzaqlaşdırıb, sürgün etdilər.»[196]

**177.** Münafiqlər özlərinə məxsus nişanələrlə tanınarlar: ... könülsüz və etinasız halda məscidə gələr, (həmişə qəsdən) namaza gecikərlər.[197]

**178.** Məscidin qonşuluğunda yaşayan şəxsin namazı, yalnız məsciddə məqbul sayılır.[198]

---

[194] «Təhzibul-əhkam», c: 6, səh: 241, həd: 596 (Əbu Cəfər (ə) rəvayət edir); «Biharul-ənvar», c: 88, səh: 5.

[195] «Əl-Firdəvs», c: 3, səh: 108, həd: 4301; «Kənzul-ummal», c: 1, səh: 616, həd: 2845

[196] «Xisal», səh: 175, həd: 232 (Cabir rəvayət edir); «Biharul-ənvar», c: 7, səh: 222, həd: 137; «Əl-Firdəvs», c: 5, səh: 499, həd: 8880 (Cabir rəvayət edir); «Kənzul-ummal», c: 11, səh: 193, həd: 31190 (İbn Hənbəl və Təbərani, Əbu Üməməyə istinadən nəql edir).

[197] «Musnədi-İbn Hənbəl», c: 3, səh: 147, həd: 7931; «Kənzul-ummal», c: 1, səh: 170, həd: 862 («Şobul-iman» kitabına istinadən nəql olunur və hər iki hədisi Əbi Hüreyrə rəvayət etmişdir).

**179.** İmam Sadiq (ə) atasından, o da imam Əlidən (ə) rəvayət edir: «Məscidin qonşuluğunda yaşayan şəxsin namazı, məsciddən başqa bir yerdə qəbul olunmaz. Əlbəttə, üzrlü səbəbdən və ya xəstə olduğu üçün deyilsə». Dedilər: «Məscidin qonşuları kimdir, ey Əmirəl-möminin (ə)?!» Buyurdu (ə): «Azan səsini eşidən hər kəs.»[199]

**180. İmam Əli (ə):** «Məscidin qonşuları rahat, asudə və sağlam olduğu halda vacib namazlarını məsciddə qılmırsa, onların namazı məqbul deyildir!»[200]

**181. İmam Sadiq (ə):** «Əmirəl-mömininə (ə) Kufədə məscidin qonşuluğunda yaşayan bir qrup müsəlmanın camaat namazına gəlmədiyi xəbəri çatdı. Buyurdu: «Ya bizimlə birlikdə camaat namazında iştirak etsinlər, ya da yerləşdiyi məkanları dəyişib, məscidin qonşusu və bizim qonşumuz olmasınlar.»[201]

**182. İmam Həsən (ə):** «Məscidi tərk etmək və fitnə-fəsad əhlinə tabe olmaq cəhalətdir!»[202]

---

[198] «Təhzibul-əhkam», c: 3, səh: 6, həd: 16; «Əvaliul-lai», c: 1, səh: 306; «Əs-Sunənul-kubra», c: 3, səh: 81, həd: 4945; «Kənzul-ummal», c: 7, səh: 650, həd: 20737.

[199] «Dəaimul-İslam», c: 1, səh: 148; «Biharul-ənvar», c: 83, səh: 379, həd: 47; «Əs-Sunənul-kubra», c: 3, səh: 81, həd: 4943; «Əl-Musənnəf», ibn Əbu Şeybə, c: 1, səh: 380, həd: 8; «Əl-Musənnəf», Əbdür-Rəzzaq, c: 1, səh: 497, həd: 1915, Bütün hədisləri atası vasitəsilə Əbu Həyyan, imam Əlidən (ə) rəvayət edir); «Kənzul-ummal», c: 8, səh: 254, həd: 22800.

[200] «Təhzibul-əhkam», c: 3, səh: 145, həd: 523, Təlhə ibn Zeyd imam Sadiq (ə) vasitəsilə o həzrətin atasından (ə) nəql edir); «Qurbul-isnad», səh: 145, həd: 523 (Əbu Boxtəri imam Sadiq (ə) vasitəsilə o həzrətin ata-babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 83, səh: 354, həd: 7.

[201] Belə nəzərə gəlir ki, o həzrət (ə) münafiqlərin xalq arasında məscidə və namaza qarşı soyuqluq, həmçinin, müsəlmanlar arasında təfriqə yaratmağın qarşısını almaq məqsədilə belə buyurmuşdur (Mütərcim).

«Əmali-Tusi», səh: 696, həd: 1494 (Rəziq rəvayət edir); «Biharul-ənvar», c: 88 səh: 13, həd: 25.

[202] «Əl-Udədul-qəviyyə», səh: 53, həd: 64; «Biharul-ənvar», c: 78, səh: 115, həd: 10; «Əl-Mucəmul-kəbir», c: 3, səh: 69, həd: 2688; «Tarixi-

**İmam Sadiq (ə) buyurmuşdur:**

**183.**Üç şey Allaha şikayət edər: Camaatın namaz qılmadığı üçün xarabalığa çevrilmiş məscid, nadan insanların arasında yaşayan müdrik şəxs və kənara atıldığı üçün toz basmış və istifadə olunmayan (tilavət olunmayan) Quran.[203]

**184.** Məscidlər oraya gəlməyən qonşularından Allah-Təalaya şikayət etdi. Allah-Təala da, belə buyurdu: «And olsun izzəti-cəlalıma ki, onların heç bir namazını qəbul etməyəcəm, xalq arasında onları ədalətli tanıtmayacam, onlarla mərhəmətli davranmayacam və Behiştdə mənim qonşum ola bilməyəcəklər.[204]

**185.** Evdə tək namaz qılmaq (bir ovuc) toz yığınağına bənzəyir ki, havada yayılar və Tanrı dərgahına heç bir zərrə də çatmaz. Məsciddən üz döndərib evdə camaat namazı qılan şəxsin və ona iqtida edənlərin namazı məqbul deyil! Əlbəttə, əgər məscidə getməməsi üçün bir səbəb və ya üzrü yoxdursa.[205]

---

Dəməşq», c: 13, səh: 256, həd: 3269; «Əl-Bidayə vən-nihayə», c: 8, səh: 40 (Bütün hədisləri Haris əl-Ovr rəvayət edir); «Kənzul-ummal», c: 16, səh: 216, həd: 44237

[203] «Əl-Kafi», c: 2, səh: 613, həd: 3; «Xisal», səh: 142, həd: 163; «İddətud-dai», səh: 272; «Cameul-əxbar», səh: 179, həd: 437; «Rovzətul-vaizin», səh: 368; «Biharul-ənvar», c: 2, səh: 41, həd: 4.

[204] «Əmali-Tusi», səh: 696, həd: 1485 (Rəziq rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 348, həd: 1.

[205] «Əmali-Tusi», səh: 696, həd: 1486 (Rəziq rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 367, həd: 24.

## *6-CI FƏSİL: QADINLARIN MƏSCİDƏ GETMƏSİ*

### *6.1 QADINLARIN PEYĞƏMBƏRLƏ (S) BİRLİKDƏ MƏSCİDDƏ NAMAZ QILMASI*

**186.İmam Əli (ə):** «Qadınlar da Peyğəmbərlə (s) birlikdə namaz qılırdılar. Hətta, (o dövrdə) kişilər qısa (ətəkli paltar) geyindiyinə görə, qadınlara başlarını onlardan öncə namazdan qaldırmamaq haqqında göstəriş verilmişdi.»[206]

### *6.2 QADINLARIN MƏSCİDƏ GETMƏLƏRİNƏ MANE OLMAĞIN PİSLƏNMƏSİ*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**187.**Qadınlar sizdən məscidə getmək üçün icazə istədikdə, onları məscidin xeyir-bərəkətlərindən məhrum etməyin.[207]

**188.** Nə vaxr həyat yoldaşınız sizdən məscidə getmək üçün icazə istəsə, ona mane olmayın.[208]

**189.** Evlərində oturmaq daha xeyirli olsa da, həyat yoldaşlarınızın məscidlərə getmələrinin qarşısını almayın.[209]

---

[206] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 396, həd: 1176; «İləluş-şərayə», səh: 344, həd: 1 (Abdullah ibn Məymun imam Sadiq (ə) vasitəsilə o həzrətin atasından (ə) rəvayət edir); «Qurbul-isnad», səh: 18, həd: 60 (Həmmam imam Sadiq (ə) vasitəsilə o həzrətin ata-babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 88, səh: 42, həd: 3; «Məkarimul-əxlaq», c: 1, səh: 213, həd: 632.

[207] «Səhihi-Muslim», c: 4, səh: 328, həd: 140; «Musnədi-İbn Hənbəl», c: 2, səh: 399, həd: 5624; «Tarixi-kəbir», c: 2, səh: 107, həd: 1854; «Əl-Mucəmul-kəbir», c: 12, səh: 252, həd: 13252 (İbn Ömər rəvayət edir); «Kənzul-ummal», c: 16, səh: 413, həd: 45172.

[208] «Səhihi-Buxari», c: 5, səh: 2007, həd: 4940; «Səhihi-Muslim», c: 1, səh: 326, həd: 134; «Sunəni-Nəsai», c: 2, səh: 42 (Bütün hədisləri Salim atasından nəql edir); «Musnədi-İbn Hənbəl», c: 2, səh: 212, həd: 4522; «Sunəni-Darəmi», c: 1, səh: 124, həd: 448 (Hər iki hədis ibn Ömərdən rəvayət olunur); «Kənzul-ummal», c: 16, səh: 413, həd: 45170; «Əvaliul-lai», c: 1, səh: 136, həd: 35.

[209] «Sunəni-Əbu Davud», c: 1, səh: 155, həd: 567; «Musnədi-İbn Hənbəl», c: 2, səh: 368, həd: 5469; «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 1,

**190.** Mücahiddən nəql olunur: «Abdullah ibn Ömər dedi: «Peyğəmbər (s) buyurdu: «Gecələr də, həyat yoldaşınıza məscidə getməyə icazə verin.»

Abdullah ibn Ömərin oğlanlarından biri dedi: «Allaha and olsun! Mən qoymaram ki, kimsə arvadımı (gecə məscidə getməyə təşviq etsin) yoldan çıxartsın! Allaha and olsun! Mən ona məscidə getməyə icazə verməyəcəyəm!»

Abdullah ibn Ömər ona küfr etdi və qəzəblə dedi: «Mən «Allahın Rəsulu (s): «Gecələr də, həyat yoldaşınıza məscidə getməyə icazə verin.» buyurdu deyirəm, amma sən «İcazə verməyəcəyəm!»-deyə inad edirsən?![210]

## *6.3 QADINLARIN MƏSCİDƏ GEDƏRKƏN RİAYƏT ETMƏLİ OLDUĞU ƏMƏLLƏR*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**191.** Allahın kənizlərinin (qadınlar) məscidə getməsinə mane olmayın. Əlbəttə, onlar (kişiləri cəlb etmək məqsədilə) ətir vurmamalıdırlar.[211]

**192.** (Kişiləri cəlb etmək məqsədilə) ətir vurub, məscidə gedən qadının namazı, onu yuyub-təmizləməyənə qədər, qəbul olmaz.[212]

---

səh: 327, həd: 755; «Səhihi-İbn Xəzimə», c: 3, səh: 93, həd: 1684; «Əs-Sunənul-kubra», c: 3, səh: 187, həd: 5359 (Bütün hədisləri ibn Ömər rəvayət edir); «Kənzul-ummal», c: 16, səh: 414, həd: 45174.

[210] «Sunəni-Əbu Davud», c: 1, səh: 155, həd: 568; «Sunəni-Tirmizi», c: 2, səh: 368, həd: 5469; «Musnədi-İbn Hənbəl», c: 2, səh: 307, həd: 5101; «Əl-Musənnəf», Əbdür-Rəzzaq, c: 3, səh: 147, həd: 5108; «Əl-Mucəmul-kəbir», c: 12, səh: 304, həd: 13471; «Kənzul-ummal», c: 16, səh: 413, həd: 45169.

[211] «Sunəni-Əbu Davud», c: 1, səh: 155, həd: 565; «Sunəni-Darəmi», c: 1, səh: 311, həd: 1256; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 437, həd: 9651 (Bütün hədisləri Əbu Hureyrə rəvayət edir); «Kənzul-ummal», c: 16, səh: 414, həd: 45175.

[212] «Sunəni-İbn Macə», c: 3, səh: 1326, həd: 4002; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 156, həd: 7964; «Əl-Muntəxəb min Musnədi-Əbd ibn

**193.** (Bir qadına müraciətlə) Sizlərdən biri işa namazını qılmaq məqsədilə evdən xaric olduqda (qarşı cinsi cəlb etmək niyyətilə) ətir vurmasın.[213]

**194.** Həmzə ibn Ədu Üseyd Ənsari atası vasitəsilə Allahın elçisindən (s) nəql edir: (Qadın və kişilərin məsciddən çıxarkən yol boyu bir-birlərinə qarışdığını müşahidə edən) Allahın Rəsulu (s) qadınlara buyurdu: «Səbirli olun, tələsməyin! Yolun tən ortası ilə hərəkət etməyiniz xoşagəlməz haldır. Yolun kənarı ilə hərəkət edin.»[214]

---

Həmid», səh: 425, həd: 1461; «Kənzul-ummal», c: 16, səh: 392, həd: 45067

[213] «Musnədi-İbn Hənbəl», c: 10, səh: 296, həd: 27115; «Sunəni-Nəsai», c: 8, səh: 190; «Əl-Musənnəf», Əbdür-Rəzzaq, c: 4, səh: 372, həd: 8112; «Kənzul-ummal», c: 16, səh: 415, həd: 45182.

[214] «Sunəni-Əbu Davud», c: 4, səh: 369, həd: 5272; «Əl-Mucəmul-kəbir», c: 19, həd: 261, həd: 580; «Təfsiri-İbn Kəsir», c: 6, səh: 53; «Kənzul-ummal», c: 16, səh: 388, həd: 45036.

## *7-Cİ FƏSİL: MƏSCİDƏ XİDMƏT ETMƏK*

### *7.1 MƏSCİDƏ XİDMƏT ETMƏNİN FƏZİLƏTİ*

**Qurani-kərim buyurur:**

**«İbrahimə və İsmailə: «Evimi, təvaf edənlər və orada qalıb həmişə ibadətdə olanlar, rüku və səcdə ilə namaz qılanlar üçün təmizləyin!»-deyə göstəriş verdik.»**[215]

**«İmranın zövcəsinin: «Ey Rəbbim, bətnimdəkini Sənə xidmətkar (qul) olmaq üçün nəzir edirəm. (Bu nəziri) Məndən qəbul et! Əlbəttə, Sən eşidənsən, bilənsən!»-dediyini xatırla!»**[216]

**195. Xatəmul-ənbiya (s):** «Həqiqətən, Allah-Təala sevdiyi bəndəsini məscidə xidmətçi təyin edər.»[217]

### *7.2 MƏSCİDİ İŞİQLANDIRMAQ*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**196.** Kim Tanrı məscidlərindən birində çıraq yandırsa, nə qədər ki, onun işığı məscidi nura boyayır, mələklər və ərşi daşıyanlar onun bağışlanmağı üçün dua edər.[218]

**197.** Kim məsciddə çıraq yandırsa, onun işığı məscidi nura boyayana qədər, yetmiş min mələk ona salam (salavat) göndərər.[219]

---

[215] «Bəqərə» surəsi, ayə: 125.

[216] «Ali-İmran» surəsi, ayə: 35.

[217] «Əl-Firdəvs», c: 1, səh: 162, həd: 588 (İbn Abbas rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 653, həd: 20750 (İbn Nəccar rəvayət edir).

[218] «Təhzibul-əhkam», c: 3, səh: 261, həd: 733; «Səvabul-əmal», səh: 49 (Hər iki hədisi Ənəs rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 237, həd: 716; «Əl-Məhasin», c: 1, səh: 129, həd: 151; «Biharul-ənvar», c: 84, səh: 15, həd: 94; «Rəbiul-əbrar», c: 1, səh: 173; «Əd-Durrul-mənsur», c: 4, səh: 129, həd: 151 («Ət-Təğrib vəl-tərhib» kitabına istinad edilmişdir və hər iki hədisi Ənəs rəvayət edir).

[219] «Musnədiş-şamiyyin», c: 2, səh: 274, həd: 1327 (Dəfin, imam Əlidən (ə) rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 656, həd: 20768 (İbn Nəccar, Məaz vasitəsilə rəvayət edir).

**198.** Kim gecə vaxtı məscidə çıraq gətirib, Allahın evini nura boyasa, Tanrı onun yetmiş illik günahlarını əfv edər, ona bir il ibadətin savabını bağışlayar və (Behiştdə) ona bir şəhər əta edər. Əğər başqa bir gecə də bu işi təkrar etsə, artırdığı hər gecənin müqabilində bir peyğəmbərin savabını qazanar. On gecə beləcə davam etsə, onun Allah dərgahında qazandığı savabı, heç kim vəsf edə (sayıb-qurtara) bilməz. Əgər bir ay məscidi işıqlandırsa, Allah-Təala cəhənnəm atəşini onun bədəninə haram edər.[220]

**199.** Əbu Hinddən nəql edilir: «Təmim Şamdan Mədinəyə çox sayda çıraq və yağ gətirdi. O, cümə günü Mədinəyə çatdı. Əbül-bərrad adlı xidmətçisinə, çıraqları məsciddə asıb, onlara yağ və su tökməsini əmr etdi. Günəş qurub etdikdə isə onları yandırdı. Allahın Rəsulu (s) məscidə gəlib, bu mənzərəni müşahidə etdikdə, buyurdu: «Bunları kim belə edib?» Dedilər: Təmim. Həzrət (s) buyurdu: «İslamı nurlandırdın, Allah-Təala səni dünya və Axirətdə nura boyasın!»[221]

### *7.3 MƏSCİDİN TƏMİZLİYİ*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**200.** (Merac gecəsi Behiştin qapılarında gördüyü yazıları bəyan edərkən) «Kim yer altındakı həşaratlara yem olmaq istəmirsə, məscidləri təmiz saxlasın.»[222]

**201.** (Əliyə (ə) müraciətlə) Ey Əli (ə)! Behişt hurilərinin mehriyyəsini ödə. Yol üzərindəki (həmçinin məscidin yolu

---

220 «Cameul-əxbar», səh: 180, həd: 440; «Biharul-ənvar», c: 83, səh: 377, həd: 45.

221 «Usdul-ğabə», c: 6, səh: 25, həd: 5719; «Əl-İsabə», c: 7, səh: 30, həd: 9609.

222 «Əl-Fəzail», səh: 129 (Abdullah ibn Məsid rəvayət edir); «Biharul-ənvar», c: 8, səh: 145, həd: 67.

üzərindəki) maneələri aradan qaldırmaq və məscidin toz-torpağını təmizləmək Behişt hurilərinin mehriyyəsidir.[223]

**202.** Məscidlər inşa edin və onun toz-torpağını təmizləyin... Bu, Behişt hurilərinin mehriyyəsidir.

**203. İmam Əli (ə):** «Allahın Rəsulu (s) məscidlərin tikilməsinə, səliqə-sahmanlı, xoş ətirli və təmiz saxlanmasını əmr edərək, onun hər bir qapısının kənarında dəstəmazxana tikilməsinə göstəriş verdi.»[224]

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**204.** Hər cümə axşamı və cümə günü məscidi təmizləyən və insanların gözünə dolan toz-torpağı silib-süpürən şəxsin günahları Allah-Təala tərəfindən bağışlanar.[225]

**205.** Kim məscidi təmizləyərsə, Allah-Təala ona bir qulu azad etməyin savabını yazar. Hər kim insanın gözünə düşüb, onu incidə bilən kicik bir çöpü məsciddən təmizləyərsə, Allah-Təala ona öz mərhəmətini ikiqat bəxş edər.[226]

**206.** Allah-Təala insanlara əziyyət verə bilən hər hansı bir şeyi məsciddən kənara atan şəxsə Behiştdə ev bağışlayar.[227]

---

[223] Əl-Furdəvs, c: 5, səh: 328, həd: 8338 (İmam Əli (ə) rəvayət edir); «Təfsiri-Qutubi», c: 16, həd: 153 (Əbu Qursafə rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 655, həd: 20766.

[224] «Musnədi-Zeyd», səh: 154 (Zeyd ibn Əli (ə) babalarından rəvayət edir).

[225] «Təhzibul-əhkam», c: 3, səh: 254, həd: 703; «Səvabul-əmal», səh: 51, həd: 1 (Hər iki hədisi imam Kazım (ə) rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 233, həd: 700; «Əmali-Səduq», səh: 591, həd: 818 (İmam Kazım (ə) babaları (ə) vasitəsilə Peyğəmbərdən (s) rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 385, həd: 61.

[226] «Əmali-Səduq», səh: 246, həd: 263 (Səlam İbn Ənim imam Sadiq (ə) vasitəsilə o həzrətin babalarından (ə) nəql edir); «Əl-Məhasin», c: 1, səh: 129, həd: 150 (İmam Sadiq (ə) Peyğəmbərdən (s) rəvayət edir); «Rovzətul-vaizin», səh: 369; «Biharul-ənvar», c: 83, səh: 383, həd: 56.

[227] «Sunəni-İbn Macə», c: 1, səh: 250, həd: 757; «Təhzibul-kəmal», səh: 17, həd: 154; «Təfsiri-Qurtubi», c: 12, səh: 266 (Bütün hədisləri Əbu Səid Xidri rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 649, həd: 20726.

**207.** Məscidin toz-torpağını təmizləyənlər, sanki Behiştdə yasəmən gülü əkirlər.[228]

**208.** Ümmətimin yaxşı əməllərinə veriləcək savablar, hətta məscidin toz-torpağını təmizləyən şəxsin savabı da, mənə bəyan olunubdur.[229]

**209.** Məscidin təmizlik işləri ilə məşğul olan qaradərili kişi (ya da qadın) dünyadan getdi. Peyğəmbər (s) (bir neçə gün onlara görmədiyi üçün) harada olduqlarını soruşdu. Dedilər: «Onlar vəfat edib». Həzrət buyurdu (s): «Nə üçün bu haqda mənə xəbər vermədiniz? Onun qəbrini mənə göstərin.»

Sonra xidmətçinin qəbri üzərinə gedib, orada namaz qıldı.[230]

**210. İmam Sadiq (ə):** «Behişt və hurilər məscidi süpürən və onun toz-torpağını təmizləyən şəxsin həsrətindədir.»[231]

## *7.4 MƏSCİDİN DAXİLİNİ ƏTİRLƏMƏK*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**211.** (Məscid mədəniyyəti haqqında buyurarkən) Cümə günləri məscidə ətir vurun.[232]

**212.** Hər həftə məscidə gözəl iyli ətirlər vurun.[233]

---

228 «Əxbari-Məkkə», Fakehi, c: 2, səh: 128, həd: 1287.

229 «Əxbari-Məkkə», Fakehi, c: 2, səh: 12, həd: 1289 (Ənəs rəvayət edir).

230 «Səhihi-Buxari», c: 1, səh: 175, həd: 446; «Səhihi-Muslim», c: 2, səh: 659, həd: 71; «Sunəni-Əbu Davud», c: 3, səh: 211, həd: 3203; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 269, həd: 8643; «Əs-Sunənil-kubra», c: 4, səh: 77, həd: 7012.

231 «Usulus-sittə əşər», səh: 205, həd: 189 (Zeyd ən-Nursi imam Kazımdan (ə) rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 382, həd: 52.

232 «Sunəni-İbn Macə», c: 1, səh: 247, həd: 750 (Vasilə ibn Əsqə rəvayət edir); «Əs-Sunənul-kubra», c: 10, səh: 177, həd: 20268; «Tarixi-Dəməşq», c: 47, səh: 225, həd: 10195 (Hər iki hədisi Vasilə, Əbu Dərda və Əbu Ümamə rəvayət etmişlər); «Əl-Musənnəf», Əbdur-Rəzzaq», c: 1, səh: 442, həd: 1726, «Mucəmul-kəbir», c: 20, səh: 173, həd: 369 (Hər iki hədisi Məaz ibn Cəbəl rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 670, həd: 20834.

**213.** Mələklərin hədiyyəsi, məscidlərə gözəl iyli ətirlər vurmaqdır.[234]

[233] «Əl-Cəfəriyyat», səh: 51; «Nəvadir», Ravəndi, səh: 241, həd: 495 (İmam Kazım (ə) ata-babalarından (ə) nəql edir); «Cameul-əhadis», Qummi, səh: 70; «Dəaimul-İslam», c: 1, səh: 149 (İmam Əli (ə) rəvayər edir); «Biharul-ənvar», c 83, səh: 349, həd: 2.

[234] «Kənzul-ummal», c: 7, səh: 658, həd: 20781 (Əbu Şeyx Səmurənin vasitəsilə nəql edir).

## *8-Cİ FƏSİL: MƏSCİDİN ƏHKAMI VƏ DAVRANIŞ QAYDALARI*

## *A. MÜSTƏHƏBB ƏMƏLLƏR*

### *8.1 İXLAS (PAK NİYYƏT)*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**214.** Kim məscidə hansı məqsədlə gedərsə, elə onu da qazanar.»[235]

**215.** İnsanlar məsciddə bir-birlərinə lovğalandıqda, Qiyamət yaxınlaşar.[236]

### *8.2 TƏMİZLİK*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**216.** Allah-Təala buyurdu: «Ey hay! Evində dəstəmaz alıb, evimə (məscid) Mənim görüşümə gələn bəndə necə də xoşbəxtdir!»[237]

**217. Həzrət Məhəmməd (s):** Təmiz olmadığın zaman məscidə getmə! Pak olmayan halda məscidə gedən şəxslə, məscid düşmənçilik edər.[238]

---

[235] «Sunəni-Əbu Davud», c: 1, səh: 128, həd: 472; «Əs-Sunənul-kubra», c: 2, səh: 626, həd: 4342; «Hilyətul-ovliya», c: 5, səh: 159; «Tarixi-Dəməşq», c: 54, səh: 200; «Kənzul-ummal», c: 7, səh: 652, həd: 20746; «Sunəni-Darəmi», c: 1, səh: 311, həd: 20746.

[236] «Sunəni-Əbu Davud», c: 1, səh: 123, həd: 449; «Sunəni-İbn Macə», c: 1, səh: 244, həd: 739; «Sunəni-Darəmi», c: 1, səh: 3149, həd: 1380; «Musnədi-İbn Hənbəl», c: 4, səh: 291, həd: 12475 (Bütün həədisləri Ənəs rəvayət edir); «Kənzul-ummal», c: 14, səh: 222, həd: 38484.

[237] «Səvabul-əmal», səh: 47, həd: 2 (Abdullah ibn Cəfər atasından (ə) rəvayət edir); «Əl-Məhasin», c: 1, səh: 119, həd: 124 (Abdullah ibn Cəfər atası vasitəsilə babasından (ə) rəvayət edir); «Məkarimul-əxlaq», c: 60, səh: 2146; «Əvaliul-lai», c: 1, 351, həd: 5; «Biharul-ənvar», c: 84, səh: 14, həd: 92.

[238] «Cameul-əxbar», səh: 179, həd: 433; «Biharul-ənvar», c: 83, səh: 377, həd: 45.

**218. İmam Sadiq (ə):** «Məscidlər yer üzündə Allahın evi sayılır, onları ziyarət edin. Allah-Təala təmiz halda məscidə gedən şəxsin günahlarını təmizləyər və adını Tanrı görüşünə gələnlərin siyahısına yazar.»[239]

### *8.3 AYAQQABILARIN ALTINI TƏMİZLƏMƏK*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**219.** Məscidin qapısına yaxınlaşdıqda ayaqqabılarınızın altını təmizləyin.[240]

**220.** Məscidə daxil olmaq istəyən şəxs ayaqqabılarının altını təmizlədikdə, mələklər deyərlər: «Yaxşı əməl sahibi oldun! Behişt sənə halal olsun! Sag-salamat (əmin-amanlıqla) daxil ol.»[241]

### *8.4 MƏSCİDƏ DAXİL OLARKƏN VƏ ORADAN ÇIXARKƏN ALLAHA SIĞINMAQ*

**Həzrət Məhəmməd (s) buyurmuşdur:**

**221.** Bəndə məscidə daxil olarkən, belə deməlidir: (Tanrı dərgahından) qovulmuş Şeytanın şərrindən Allaha pənah aparıram.» (Bu zaman) Şeytan deyər: «Belim qırıldı!» Sölədiyi bu sözə görə, Allah-Təala öz bəndəsinə (əməl dəftərinə) bir il ibadətin savabını yazar. Məsciddən çıxdığı

---

[239] «Əmali-Səduq», səh: 440, həd: 584 (Müzahim ibn Həkim rəvayət edir); «Rovzətul-vaizin», səh: 369; «Biharul-ənvar», c: 83, səh: 384, həd: 59.

[240] «Təhzibul-əhkam», c: 3, səh: 256, həd: 709 (Abdullah ibn Məymun əl-Qəddah, imam Sadiq (ə) vasitəsilə o həzrətin atasından (ə) nəql edir); «Məkarimul-əxlaq», c: 1, səh: 269, həd: 811; «Biharul-ənvar», c: 83, səh: 367, həd: 23; «Əl-Musənnəf», Əbdür-Rəzzaq, c: 1, səh: 388, həd: 1515 (Əta rəvayət edir); «Tarixi-Bağdad», c: 5, səh: 278; «Kənzul-ummal», c: 7, səh: 663, həd: 799 («Mucəmul-kəbir»-dən istifadə edilmişdir və hər iki hədisi ibn Ömər rəvayət edir).

[241] «Hilyətul-ovliya», c: 5, səh: 204; «Tarixi-İsfahan», c: 1, səh: 226, həd: 344; «Tarixi-Dəməşq», c: 36, səh: 393 (Bütün hədisləri Əqəbə ibn Amir rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 665, həd: 20809.

zaman da həmin cümləni yenidən söyləsə, Allah-Təala onun bədənindəki hər tükə yüz saleh əməlin savabını əta edər və onun məqamını yüz dərəcə ucaldar.[242]

**222.** Sizlərdən hər biri məsciddən çıxdıqda, arılar «şahzadə» arının başına cəmləşdiyi kimi, İblis öz qoşununu yanına çağırıb, bir yerə toplayır. Amma sizin hər biriniz (məscidi tərk etməmişdən öncə) məscidin qapısının kəndarında dayanıb, «İlahi! İblis və onun qoşununun şərrindən sənə pənah aparıram.»-söyləsə, sizə bir ziyan-zərər yetişməz.[243]

**223.** Məscidə daxil olduqda, Peygəmbərə (s) salam verin... və məsciddən çıxdıqda da Peygəmbərə (s) salam verib, belə dua edin: «İlahi! (Tanrı dərgahından) qovulmuş Şeytanın şərrindən mənə pənah ver.»[244]

**224.** Abdullah ibn Ömərdən Peyğəmbərin (s) məscidə necə daxil olması barəsində belə nəql olunur: «Rəsulallah (s) məscidə girdikdə buyurardı: «Qovulmuş Şeytanın şərrindən əzəmətli Tanrıya, Onun möhtəşəm varlığına və qədim, əzəli iqtidarına pənah aparıram!»[245]

## *8.5 MƏSCİDƏ DAXİL OLARKƏN VƏ ORADAN ÇIXARKƏN DUA ETMƏK*

**225. Həzrət Məhəmməd (s):** Sizlərdən hər biri məscidə daxil olduqda Peygəmbərə (s) salam verib, bu duanı oxusun: «İlahi! Rəhmət qapılarını mənim üzümə aç.» Məsciddən

---

[242] «Cameul-əxbar», səh: 176, həd: 418; «Biharul-ənvar», c: 84, səh: 26, həd: 19.

[243] «Əməlul-yəvm vəl-leylə», İbn Sünni, səh: 59, həd: 155 (Əbu Ümamə rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 660, həd: 20786.

[244] «Əməlul-yəvm vəl-leylə», İbn Sünni, səh: 35, həd: 86; «Əzkar Nuvi», səh: 37 (Əbu Həmid və ya Əbu Üseyd rəvayət edir).

[245] «Sunəni-Əbu Davud», c: 1, səh: 127, həd: 466; «Təfsiri-Qurtubi», c: 12, səh: 273; «Əzkar Nuvi», səh: 37.

çıxdıqda isə belə deyin: «İlahi! Mənə öz fəzl və kərəmindən mərhəmət əta et.»[246]

**226. Fatimei-Zəhra:** «Allahın Rəsulu (s) məscidə daxil olduqda buyurardı: «Allahın adı ilə və Tanrı elçisinə (s) salam olsun! İlahi! Günahlarımı bağışla və rəhmət qapılarını mənim üzümə aç.» Məsciddən çıxarkən də, buyurardı: «İlahi! Günahlarımı bağışla və fəzilət, kərəm qapılarını üzümə aç.»[247]

**Həzrət Məhəmməd (s):**

**227.** Məscidə daxil olduqda Peygəmbərə (s) salam verib, bu duanı oxuyun: «İlahi! Rəhmət qapılarını üzümə aç.» Oranı tərk etdikdə isə belə deyin: «İlahi! (Tanrı dərgahından) qovulmuş Şeytanın şərrindən mənə pənah ver.»[248]

**228.** Məscidə daxil olduqda Peygəmbərə (s) salam verib, bu duanı oxuyun: «İlahi! (Tanrı dərgahından) qovulmuş Şeytanın şərrindən mənə pənah ver.»[249]

**229.** Sizlərdən hər biri vacib namazınızı qıldıqdan sonra məscidi tərk edərkən qapının kənarında dayanıb, belə dua etsin: «İlahi! Məni dəvət etdin, mən də gəldim və vacib namazını əda etdim. Əmr etdiyin kimi (başqa lazım olan

---

[246] «Sunəni-Əbu Davud», c: 1, səh: 126, həd: 465; «Sunəni-Darəmi», c: 1, səh: 345, həd: 1366; «Əs-Sunənul-kubra», c: 2, səh: 619, həd: 4319 (Bütün hədisləri Əbu Həmid və ya Əbu Üseyd rəvayət edir); «Sunəni-İbn Macə», c: 1, səh: 254, həd: 772 (Əbu Həmid Saidi rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 657, həd: 20773; «Təhzibul-əhkam», c: 3, səh: 263, həd: 745 (Abdullah ibn Həsən rəvayət edir); «Əmali-Tusi», səh: 596, həd: 1237 (İmam Əli (ə) rəvayət edir); «Biharul-ənvar», c: 84, səh: 26, həd: 20.

[247] «Sunəni-İbn Macə», c: 1, səh: 253, həd: 771; «Sunəni-Tirmizi», c: 2, səh: 128, həd: 314; «Musnədi-İbn Hənbəl», c: 10, səh: 159, səh: 26479; «Kənzul-ummal», c: 7, səh: 61, həd: 17962; «Əmali-Tusi», səh: 401, həd: 894; «Dəlailul-imamə», səh: 75, həd: 14; «Biharul-ənvar», c: 84, səh: 23, həd: 14

[248] «Sunəni-İbn Macə», c: 1, səh: 254, həd: 773; «Səhihi-İbn Həbban», c: 5, səh: 395, həd: 2047; «Səhihi-İbn Xəzimə», c: 1, səh: 231, həd: 452; «Əs-Sunənul-kubra», c: 2, səh: 620, həd: 4321; «Kənzul-ummal», c: 7, səh: 659, həd: 20783.

[249] «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 1, səh: 325, həd: 747.

işlərlə məşğul olmaq üçün) gedirəm. İndi də sənin fəzl və kərəminə sığınıb, (əmrlərinə) itaət etmək və razı olmadığın işlərdən çəkinmək istəyirəm. Rəhmətinə pənah aparıb, ruzimi Səndən istəyirəm.[250]

**230.** (İmam Əlinin (ə) məscidə necə daxil olması barəsində) O, məscidə daxil olduqda, buyurardı: «Allahın adı ilə. Ondan imdad diləyirəm. Ey Peyğəmbər! Allahın salamı və xeyir-bərəkəti sənin üçün olsun! Bizə və Allahın dəyərli bəndələrinə salam olsun!»[251]

**231.** Rəvayət olunur ki, dəstəmaz alarkən imam Həsənin (ə) üzünün rəngi qaçardı. Bunun səbəbini soruşduqda, belə buyurardu: «Axı əzəmətli Hökmdarın qarşısında dayanmağa hazırlaşıram.»

O, hər zaman məscidin qapısına yetişdikdə, başını qaldırıb: «İlahi! Kölən dərgahına üz gətirib. Ey gözəl əməl sahibi! Bu pis əməlli bəndən hüzuruna gəlib. Bir halda ki, bizim yaxşılarımıza pislərimizi bağışlamaq əmri vermisən. İndi Sən yaxşılıq edən, amma mən pis əməl sahibiyəm. Öz gözəlliyinlə mənim pisliyimi bağışla. Ey bağışlayan!» buyurar, sonra da məscidə girərdi.[252]

**İmam Sadiq (ə) buyurmuşdur:**

**232.** Məscidə daxil olduqda Allaha şükür et və Ona həmd-səna oxu.[253]

---

[250] «Əl-Kafi», c: 3, səh: 309, həd: 4 (Əbu Həfz əl-Əttar rəvayət edir); «Fəlahul-sail», səh: 366, həd: 244 (Əbu Cəfər əl-Əttar İmam Sadiq (ə) vasitəsilə rəvayət edir); «Məkarimul-əxlaq», c: 2, səh: 72, həd: 2175; «Misbahul-mutəcəhhid», səh: 82, həd: 134; «Biharul-ənvar», c: 84, səh: 22, həd: 9.

[251] «Dəaimul-İslam», c: 1, səh: 150; «Musnədi-Zeyd», səh: 154 (Zeyd ibn Əli atası vasitəsilə babasından (ə) rəvayət edir); «Biharul-ənvar», c: 84, səh: 23, həd: 12.

[252] «Tənbihul-ğafilin», səh: 539, həd: 871.

[253] «Təhzibul-əhkam», c: 2, səh: 65, həd: 233 (Əbu Bəsir rəvayət edir); «Əl-Məzari-Mufid», səh: 75; «Misbahul-mutəcəhhid», səh: 740, həd: 831

**233.** Məscidə daxil olduqda və oradan xaric olduqda, Peyğəmbərə (s) salavat göndər.[254]

**234.** Kim evində gözəl şəkildə dəstəmaz alıb, saçlarını darayıb, özünü ətirləyib sonra da evindən sakit və vüqarla çıxaraq camaat namazında iştirak etmək üçün məscidə gedərsə, atdığı hər addıma görə bir savab qazanar, bir günahı bağışlanar və məqamı bir dərəcə yüksələr.

Məscidə girdikdə bu duanı oxu: «Allahın adı ilə. Allahdan yardım diləyirəm, Rəsulallahın dininə, Allahdan və Ona doğruyam. Tanrının istədiyi kimi olsun. Allahdan başqa qüdrət sahibi yoxdur! İlahi! Rəhmət və əfv qapılarını üzümüzə aç, qəzəb və hiddət qapılarını üzümüzə bağla. İlahi! Rahatlıq və asudəlik Səndən gələr. İlahi! Gecə-gündüzüm Səninlədir. Sənin mərhəmət və razılığına görə, (və həmçinin) narazı olduğun işlərdən çəkinmək üçün qarşında diz çökürəm. İlahi! Səndən rahatlıq və asudəlik istəyirəm.»

Sonra yenə belə de: «İlahi! Mən, Məhəmməd (s) və Əlinin (ə) vasitəsi ilə dərgahına gəlmişəm. Məni bu iki şəxsin vasitəsi ilə hüzuruna gələn, ən heysiyyətli insanlardan qərar ver. Onların vasitəçiliyi ilə Sənə daha yaxın olan kəslərdən et. Bu iki şəxsə xatir məni Özünə yaxınlaşdır və əsla Özündən uzaqlaşdırma. Amin! Ey aləmlərin Rəbbi.»

Sonra camaatın imamı ilə birlikdə namaza başla. İmam, namazı qurtarmamışdan öncə Allah onu bağışlamış və Behişti ona vacib etmişdır.[255]

---

(Hər iki hədisdə məsimlara (ə) istinad olunmayıbdır); «Biharul-ənvar», c: 99, səh: 190, həd: 5 («Hidayə» kitabına istinadən).

[254] «Əl-Kafi», c: 3, səh: 309, həd: 2 (Abdullah ibn Sənan rəvayət edir); «Təhzibul-əhkam», c: 6, səh: 7, həd: 12; «Kamiluz-ziyarat», səh: 51, həd: 28 (Hər iki hədisi Müaviyə ibn Əmmar rəvayət edir); «Biharul-ənvar», c: 84, səh: 21, həd: 8.

[255] «Usulus-sittə əşər», səh: 191, həd: 159 (Zeyd ən-Nursi imam Kazımdan (ə) rəvayət edir), «Biharul-ənvar», c: 88, səh: 98, həd: 68.

**235.** Səmaədən nəql olunur: «Fatimeyi-Zəhra (səlamullahi əleyha) buyurub: «Məscidə daxil olduğun zaman de: «Allahın adı ilə. Allahın elçisinə salam olsun! Həqiqətən də, Allah-Təala və mələkləri, Məhəmmədə (s) və Onun ailəsinə salam göndərirlər. Allahın salamı və xeyir-bərəkəti onlara şamil olsun! İlahi! Günahlarımı bağışla və rəhmət qapılarını mənim üzümə aç.» Məsciddən çıxarkən də, elə bu duanı oxu.[256]

### *8.6 MƏSCİDƏ DAXİL OLARKƏN SAĞ, XARİC OLARKƏN İSƏ SOL AYAĞI ATMAQ*

**236.** İbn Abbasdan nəql olunur: «Allahın Rəsulu (s) məscidə daxil olarkən əvvəlcə sağ ayağı ilə içəri addım atırdı.[257]

**237.Həzrət Məhəmməd (s):** «Mömin məscidə daxil olduqda (ilk öncə) sağ ayağı ilə içəri girsə, mələklər deyər: «Allah sənin günahlarını bağışlasın!» Məscidi tərk etdikdə (əvvəlcə) sol ayağı ilə addımını çölə qoyarsa, mələklər deyər: «Allah səni qorusun, arzularına çatdırsın və savabın Behişt olsun!»[258]

**238.** Yunis məsumlardan (ə) nəql edir: Məscidə girdikdə sağ ayağı və çıxdıqda isə sol ayağınız ilə addımınızı atmanız daha üstün və bəyənilmişdir.[259]

---

[256] «Təhzibul-əhkam», c: 3, səh: 263, həd: 744; «Əmali-Tusi», səh: 401, həd: 894; «Dəlailul-imamə», səh: 75, həd: 14; «Kəşful-ğummə», c: 2, səh: 207 (Bütün hədisləri Fatimeyi-Zəhra (s.ə.) rəvayət etmişdir); «Biharul-ənvar», c: 84, səh: 21, həd: 8.

[257] «Əl-Mucəmul-kəbir», c: 10, səh: 315, həd: 10766; «Musnədi-Əbu Yəla», c: 3, səh: 103, həd: 2604; «Tarixi-Dəməşq», c: 4, səh: 61; «Təfsiri-Qurtubi», c: 19, səh: 22; «Kənzul-ummal», c: 7, səh: 124, həd: 18301.

[258] «Cameul-əxbar», səh: 176, həd: 419; «Biharul-ənvar», c: 84, səh: 26, həd: 19.

[259] «Əl-Kafi», c: 3, səh: 308, həd: 1; «Biharul-ənvar», c: 84, səh: 21, həd: 8.

### *8.7 TƏHİYYƏT (SALAM) NAMAZI*

**239.** Əbuzərdən nəql olunur: «Allahın Rəsulunun (s) hüzuruna getdim. O, məsciddə oturmuşdu. Onun tənha olmasını fürsət bildim. Mənə buyurdu: «Ey Əbuzər! Məscidə salam ver.» Dedim: «Necə salam verim, ey Allahın elçisi?» Buyurdu: «İki rəkət namaz qıl.»[260]

**240.**Əbuzərdən nəql olunur: «Allahın Rəsulu (s) məsciddə olarkən onun yanına getdim və oturdum. O, buyurdu: «Ey Əbuzər! Namaz qılmısanmı?» Dedim: «Xeyr». Buyurdu (s): «Qalx və namaz qıl!»

Ayağa qalxıb, namaz qıldım və sonra oturdum.»[261]

**241.Həzrət Məhəmməd (s):** «Məscidə daxil olduqda, oturmadıqdan öncə, iki rəkət namaz qıl.»[262]

**242.Rəsulallah (s):** «Məscidə gəldikdə, iki rəkət namaz qılmamış, oturma!»[263]

**243.**Əbu Qutabədən nəql olunur: «Allahın elçisi (s) buyurdu: «Məscidlərin haqqını yerinə yetirin.» Dedilər:

---

[260] «Xisal», səh: 523, həd: 13; «Məanil-əxbar», səh: 333, həd: 1; «Əmali-Tusi», səh: 539, həd: 1169; «Əlamud-din», səh: 204; «Biharul-ənvar», c: 84, səh: 19, həd: 2; «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 2, səh: 652, həd: 4166; «Səhihi-İbn Həbban», c: 2, səh: 76, həd: 361; «Hilyətul-ovliya», c: 1, səh: 166; «Kənzul-ummal», c: 16, səh: 131, həd: 44158.

[261] «Musnədi-İbn Hənbəl», c: 8, səh: 130, həd: 21602; «Əl-Musənnəf», İbn Əbu Şeybə, c: 1, səh: 375, həd: 5; «Kənzul-ummal», c: 8, səh: 320, həd: 2310

[262] «Səhihi-Buxari», c: 1, səh: 170, həd: 433; «Səhihi-Muslim», c: 1, səh: 495, 69; «Sunəni-Nəsai», c: 2, səh: 53; «Musnədi-İbn Hənbəl», c: 8, səh: 372, həd: 2264 (Əbu Qütadə rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 658, həd: 20776.

[263] «Səhihi-Muslim», c: 1, səh: 495, həd: 70; «Musnədi-İbn Hənbəl», c: 8, səh: 360, həd: 22592; «Səhihi-İbn Həbban», c: 6, səh: 242, həd: 2495; «Əl-Mucəmul-əvsət», c: 4, səh: 322, həd: 4325 (Bütün hədisləri Əbu Qütadə rəvayət edir); «Sunəni-İbn Macə», c: 1, səh: 323, həd: 1012; «Səhihi-İbn Xəziymə», c: 2, səh: 283, həd: 1325; «Kənzul-ummal», c: 7, səh: 658, həd: 20776 («Şobul-iman» kitabına istinadən).

«Onların haqqı nədir?» Buyurdu (s): «Oturmamışdan qabaq iki rəkət namaz qılın.»[264]

**244.İmam Əli (ə):** «Məscidin haqlarından da biri budur ki, oraya ayaq basdıqda iki rəkət namaz qılmalısan. İki rəkət namazın da haqqı budur ki, (onu qılarkən) Ümmül-Quranı («Həmd» surəsi) qiraət edəsən.»[265]

### *8.8 QİBLƏYƏ SARI OTURMAQ*

**245.İmam Əli (ə):** «Məsciddə üzü qibləyə oturmaq, (Peyğəmbərin (s)) sünnəsindəndir (adət).»[266]

### *8.9 MƏSCİDİ TƏRK ETMƏYƏ TƏLƏSMƏMƏK*

**246.Xatəmun-nəbi (s):** «İyirmi xüsusiyyət yoxsulluğa səbəb olar: ... biridə məscidi tərk etməyə tələsmək.»[267]

### *8.10 ƏN YAXIN MƏSCİDDƏ NAMAZ QILMAQ*

**247.Rəsulallah (s):** «Yaşadığınız yerə daha yaxın olan məsciddə namaz qılın və (müxtəlif) məscidləri gəzməyin.»[268]

### *8.11 BU XÜSUSİYYƏTLƏRƏ DİQQƏT EDİN!*

**248.Həzrət Məhəmməd (s):** «Məscidə daxil olan şəxs on xüsusiyyətə malik olmalıdır: Əvvəlcə, ayaqqabılarının altını təmizləməlidir; sağ ayağı ilə məscidə addım atmalıdır; belə

---

[264] «Səhihi-İbn Xəziymə», c: 3, səh: 162, həd: 1824; «Əl-Musənnəf», İbn Əbu Şeybə, c: 1, səh: 375, həd: 4; «Əl-Firdəvs», c: 1, səh: 105, həd: 353 (Bütün hədisləri Əbu Qütadə rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 657, həd: 20774.

[265] «Dəaimul-İslam», c: 1, səh: 150; «Biharul-ənvar», c: 84, səh: 23, həd: 12.

[266] «Dəaimul-İslam», c: 1, səh: 148; «Biharul-ənvar», c: 83, səh: 380, həd: 48.

[267] «Cameul-əxbar», səh: 343, həd: 951; «Biharul-ənvar», c: 76, səh: 315, həd: 2.

[268] «Əl-Mucəmul-kəbir», c: 12, səh: 283, həd: 13373; «Əl-Mucəmul-əvsət», c: 5, səh: 232, həd: 5176 (Hər iki hədisi ibn Ömər rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 659, həd: 20782.

dua etməlidir: «Bağışlayan və mehriban Allahın adı ilə. Allahın adı ilə. Həmd-səna Ona məxsusdur. Peyğəmbərə və mələklərə salam olsun! İlahi! Rəhmət və kərəm qapılarını üzümə aç. Həqiqətən, Sən bağışlayansan!»; məsciddəki insanlara salam verməlidir. Əgər məsciddə heç kim yoxdursa, belə deməlidir: «Allahın layiqli bəndələrinə salam olsun! Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur! Şəhadət verirəm ki, Məhəmməd (s) onun bəndəsi və elçisidir!»; namaz qılan şəxsin qarşısından keçməsin; dəstəmazsız məscidə girməsin; məsciddə dünya işləri ilə məşğul olmasın; iki rəkət namaz qılmamış məsciddən getməsin. Məscidi tərk edərkən bu duanı oxusun: «İlahi! Sən münəzzəhsən (pak)! Sənə həmd-səna olsun! Şəhadət verirəm ki, Səndən başqa Allah yoxdur. Səndən əfv diləyirəm və Sənə doğru üz gətirirəm.»[269]

**249.**Allahın Rəsulu (s) məscidə daxil olarkən əvvəlcə sağ ayağı ilə addım atır və buyururdu: «Allahın adı ilə. Allaha təvəkkül edirəm. Allahdan başqa heç bir qüdrət və güc sahibi yoxdur.»

Məsciddən xaric olduqda isə ilk olaraq sol ayağı ilə addım atar və buyurardı: «Allahın adı ilə. Qovulmuş Şeytanın (şərrindən) Allaha pənah aparıram.»

Sonra buyurdu: «Ey Əli! Hər kim məscidə daxil olub, mən dediyim kimi rəftar etsə, Allah-Təala namazını qəbul edər və qıldığı hər rəkət namazın müqabilində yüz rəkət namazın savabını yazar. Məsciddən xaric olan zaman da mən söylədiyim formada rəftar etsə, Allah-Təala günahlarını bağışlayar və atdığı hər addımın müqabilində onu bir dərəcə ucaldar. Həmçinin, hər addımına yüz yaxşı əməlin savabı yazılar.»[270]

---

[269] «Əl-Məvaziul-ədədiyyə», səh: 371.

[270] «Cameul-əxbar», səh: 175, həd: 417; «Biharul-ənvar», c: 84, səh: 26, həd: 19.

**250.İmam Baqir (ə):** «Nə vaxt oturmaq niyyəti ilə məscidə daxil olsan, yalnız pak olduğun halda oraya gir. Daxil olduqda isə üzü qibləyə dayanıb, Allahı çağır və Ondan dilə. İçəri girdikdə salam ver, Allaha həmd-səna söylə və Peyğəmbərə (s) salam göndər.»[271]

**251.**(İmam Sadiqə (ə) nisbət verdiyi yazıların arasında deyilir) Məscidin qapısına çatdıqda anla ki, sən izəmətli Padşahın qapısına gəlmisən. Onun büsatında təmiz və pak olmuş insanlardan başqa kimsə addım atmaz! Sadiq (sözlərində və rəftarında doğru olan) insanlardan başqa heç kəs Onunla həmsöhbət ola bilməz! Ona (bu Padşaha) qulluqçu olmaq şərəfinə nail olduğun üçün qorx (ehtiyatlı ol və məsuliyyətli davran). Necə ki, bilmədən, qəflət üzündən hər hansısa bir səhvə yol verəcəyin üçün (zəmanə) padşahından qorxursan.

Agah ol ki, O, səninlə istədiyi kimi, ədaləti, yaxud mərhəməti ilə rəftar edə bilər. Əgər səninlə rəhmət və kəraməti ilə davransa, sənin qüsurlu itaətini qəbul edəcək və əməllərini çox böyük töhfə ilə dəyərləndirəcək. Lakin ədaləti ilə rəftar edərsə, səndən doğruluq və ixlas tələb edərsə, (əməllərinin) əsl simasını açar və itaətini, hər nə qədər çox olsa da rədd edər.

Onun dərgahında öz acizliyini, qüsurlarını və həmçinin, miskinliyini etiraf et. Çünki sən Ona bəndəlik etmək və Onunla əlaqə yaratmaq üçün oradasan. Sirlərini Ona söylə. Bil ki, heç bir bəndənin məxfi və aşkar əməlləri Onun üçün gizli deyil. Onun qarşısında ən ehtiyaclı və fağır bəndə kimi davran və qəlbini Allahınla sənin aranda fasilə sala biləcək (Ondan uzaqlaşdıran) hər bir şeydən təmizlə. Çünki O, yalnız ən pak və ən xalis əməlləri (qəlbləri) qəbul edir.

[271] «Təhzibul-əhkam», c: 3, səh: 263, həd: 743; «Usulus-sittə əşər», səh: 228, həd: 251 (Cabir əl-Cöfi imam Sadiqdən (ə) rəvayət edir); «Biharul-ənvar», c: 84, səh: 21, həd: 7.

Gör ki, adın hansı əməl dəftərində çıxacaq. Əgər Onunla münacat etməyin ləzzətini və şirinliyini azacıq da olsa dadmısansa, Onun geniş mərhəmətindən qaynaqlanan kəramət və səxavət çeşməsindən şərbət içmisənsə, deməli, Ona xidmət etmək üçün ləyaqət qazanmısan. İçəri daxil ol ki, buna icazə verilib və sən əmin-amanlıqdasan.

Belə olmadıqda isə carəsiz, əlacsız və sanki ölümü gəlib çatmış aciz şəxs kimi orada dayan. Əgər Allah səmimi-qəlbdən Ona pənah gətirdiyini müşahidə etsə, mərhəmət və lütf nəzəri ilə sənə baxarsa, bil ki, səni razı olduğu və sevdiyi yola hidayət edər. Çünki Allah elə kəramət sahibidir ki, öz dərgahında aciz şəkildə dayanan və Onun razılıgını cəlb etmək istəyən bəndələrini sevir. Belə ki, Allah-Təala buyurur: **«Kimdir o kəs ki, dara düşüb əli hər yerdən üzülənin dua etdiyi zaman duasını qəbul edən?»**[272]

### *B. MƏKRUH OLAN ƏMƏLLƏR*

### *8.12 MƏSCİDİ KEÇİD YOLU ETMƏK*

**252. Məhəmməd peyğəmbər (s):** «Məscidlərdən, yalnız namaz qılmaq və zikr oxumaq üçün keçin.»[273]

**253. Rəsulallah (s):** «Məscidlərdən ancaq orada iki rəkət namaz qıldığınız təqdirdə keçin.»[274]

---

[272] «Nəml» surəsi, ayə: 62.

«Misbahuş-şəriə», səh: 86; «Biharul-ənvar», c: 83, səh: 373, həd: 40.

[273] «Əl-Mucəmul-kəbir», c: 12, səh: 242, həd: 13219; «Əl-Mucəmul-əvsət», c: 1, səh: 14, həd: 331; «Tarixi-Dəməşq», c: 41, səh: 456 (Bütün hədisləri Salim atasından nəql edir); «Mustədrəkul-vəsail», c: 3, səh: 433, həd: 3937 (Qutbi Ravəndinin «Löbbul-əlbab» kitabından istifadə olunmuşdur).

[274] «Mən la yəhzəruhul-fəqih», c: 4, səh: 4, həd: 4968; «Əmali-Səduq», səh: 509, həd: 707; «Məkarimul-əxlaq», c: 2, səh: 306, həd: 2655; «Tənbihul-xəvatir», c: 2, səh: 256 (Bütün hədisləri Hüseyn ibn Zeyd imam Sadiq (ə) vasitəsilə o həzrətin babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 76, səh: 328, həd: 1.

**254.** Rəvayət olunub ki, (məscid haqqında olan zülmlərdən biri də) iki rəkət namaz qılmadan məsciddən keçib-getməkdir.[275]

**255. Məhəmməd peyğəmbər (s):** «Bir kəsin məsciddən keçib (amma) orada namaz qılmaması, Qiyamət gününün nişanələrindən biridir.»[276]

**256. Rəsulallah (s):** «Qiyamət gününün yaxınlaşmasının nişanələrindən biri də budur: insanlar... Quranı (haram) nəğmə ilə oxuyar, vəhşi heyvanların dərilərindən geyim hazırlayar və məscidləri keçid yolu (kimi istifadə) edərlər.»[277]

### *8.13 MƏSCİDDƏ UCA SƏSLƏ DANIŞMAQ*

**257. İmam Əli (ə):** Peyğəmbər (s) buyurdu: «Nə vaxt ümmətim bu on beş əməli əncam versə, onlara bəla nazil olar.» Soruşdular: «Ey Allahın Rəsulu! Bunlar hansı əməllərdir?» Buyurdu (s): «Nə vaxt... məsciddə uca səslə danışılsa.»[278]

### *8.14 MƏSCİDDƏ DÜNYƏVİ MƏSƏLƏLƏR HAQQINDA DANIŞMAQ*

**Məhəmməd peyğəmbər (s) buyurmuşdur:**

---

[275] «Mustədrəkul-vəsail», c: 3, səh: 433, həd: 3937 (Qutbi Ravəndinin «Löbbul-əlbab» kitabından istifadə olunmuşdur).

[276] «Səhihi-İbn Xəzimə», c: 2, səh: 284, həd: 1326; «Əl-Mucəmul-kəbir», c: 9, səh: 297, həd: 9489 (Hər iki hədisi Abdullah ibn Məsud rəvayət edir); «Kənzul-ummal», c: 9, səh: 129, həd: 25335 .

[277] «Kənzul-ummal», c: 14, səh: 573, həd: 39639 (Əbu Şeyxin «Əl-Fitən» kitabından istifadə olunmuşdur və Deyləmi Məkhulun vasitəsilə imam Əlidən (ə) nəql etmişdir).

[278] «Xisal», səh: 500, həd: 1 (Məhəmməd ibn Hənəfiyyə rəvayət edir); «Əmali-Tusi», səh: 516, həd: 1125 (Yəhya ibn Səid Ənsari imam Sadiq (ə) vasitəsilə o həzrətin babalarından (ə) rəvayət edir); «Tuhəful-uqul», səh: 53; «Mişkatul-ənvar», səh: 163, həd: 423; «Biharul-ənvar», c: 6, səh: 304, həd: 4; «Sunəni-Tirmizi», c: 4, səh: 494, həd: 2210 (Ömər ibn Əli imam Əlidən (ə) rəvayət edir); «Kənzul-ummal», c: 14, səh: 556, həd: 39589.

**258.** Bir gün gələcək ki, camaat dünyəvi məsələlərdən başqa bir şey fikirləşmədikləri halda məscidə toplaşacaqlar. Allahın onlara heç bir ehtiyacı yoxdur. Buna görə də, onlarla həmsöhbət olmayın.[279]

**259.** Dünyanın sonu gəldikdə, mənim ümmətimin arasında bir qrup insan peyda olacaqdır ki; məscidlərə yığışar, yalnız dünya və dünya məhəbbəti haqqında danışarlar. Onlarla həmsöhbət olmayın ki, onlar Allaha lazım deyillər.[280]

**260.** Məsciddə nahaq danışmaq, yaxşı əməlləri yeyər (məhv edər). Necə ki, heyvanlar qurumuş otları yeyər (aradan aparar).[281]

**261.** Məsciddə Quran oxumaq, Allah-Təalaya zikirlər söyləmək, faydalı məsələlər haqqında soruşmaq və ya xeyirlı işlər etməkdən başqa bir şey haqqında danışmaq bihudədir.[282]

**262. İmam Sadiq (ə):** «Əmirəl-möminin (ə) kimi məsciddə əfsanə (nağıl) danışan görsəydi, ona şallaq vurub, oradan qovardı.[283]

---

[279] «Əl-Mustədrəku ələs-Səhihəyn», c: 4, səh: 359, həd: 7916 (Ənəs rəvayət edir); «Səhihi-İbn Həbban», c: 15, səh: 163, həd: 6761 (Abdullah rəvayət edir); «Əl-Musənnəf», İbn Əbu Şeybə, c: 8, səh: 268, həd: 124 (Hüseyn Bəsri rəvayət edir); «Əl-Mucəmul-kəbir», c: 10, səh: 199, həd: 10452 (Abdullah ibn Məsud rəvayət edir); «Kənzul-ummal», c: 11, səh: 192, həd: 31184.

[280] «Cameul-əxbar», səh: 179, həd: 435; «Tənbihul-xəvatir», c: 1, səh: 69; «İrşadul-qulub», səh: 186; «Biharul-ənvar», c: 83, səh: 368, həd: 27; «Rəbiul-əbrar», c: 1, səh: 305; «Təfsiri-Qurtubi», c: 12, səh: 277 (Malik ibn Dinar rəvayət edir).

[281] «Cameul-əxbar», səh: 179, həd: 432; «Biharul-ənvar», c: 83, səh: 377, həd: 45.

[282] «Əl-Firdəvs», c: 3, səh: 258, həd: 4764; «Kənzul-ummal», c: 7, səh: 671, həd: 20840.

[283] «Əl-Kafi», c: 7, səh: 263, həd: 20; «Təhzibul-əhkam», c: 10, səh: 149, həd: 595 (Hər iki hədisi Hişam ibn Salim rəvayət edir); «Biharul-ənvar», c: 72, səh: 265, həd: 3.

## *8.15 İTƏN ƏŞYALARIN TAPILMASI ÜÇÜN MƏSCİDDƏ ELAN VERMƏK*

**Məhəmməd peyğəmbər (s) buyurmuşdur:**

**263.** Kim məsciddə itirdiyini tapmaq üşün elan verərsə, ona deyin: «Allah itirdiyini sənə qaytarmasın![284]

**264.** Hər kəs, kiminsə məsciddə itirdiyini axtardığını (bunun üçün elan verdiyini) eşitsə, belə desin: «Allah onu sənə qaytarmasın!» Çünki məscidlər belə işlər üçün inşa olunmayıb.[285]

**265.** Kim, bir kəsin məsciddə itirdiyini axtardığını (bunun üçün elan verdiyini) eşitsə, ona desin: «Allah onu sənə qaytarmasın!» Çünki məscidlər (buna görə deyil) başqa məqsədlər üçün inşa olunub.[286]

**266.** Süleyman ibn Borəydə atasından nəql edir: «Bir kişi məsciddə uca səslə elan verərək, dedi: «Kim mənim itirdiyim qırmızı tüklü dəvəmi görüb?» Peyğəmbər (s) buyurdu: «(Ümidvaram) Onu tapa bilməyəsən. Çünki məscidlər (buna görə deyil) başqa məqsədlər üçün bina olunub.»[287]

---

[284] «Tarixul-Mədinə», c: 1, səh: 31 (Yezid ibn Xəsifə və Məhəmməd ibn Əbdür-Rəhman ibn Suban rəvayət edir); «Əl-Mucəmul-kəbir», c: 17, səh: 181, həd: 480 (Əsəmə rəvayət edir); «Təfsiri-Qurtubi», c: 19, səh: 22 (Peyğəmbərə (s) istinad edilməmişdir); «Kənzul-ummal», c: 7, səh: 671, 20844.

[285] «Səhihi-Muslim», c: 1, səh: 397, həd: 79; «Sunəni-Əbu Davud», c: 1, səh: 128, həd: 473; «Musnədi-İbn Hənbəl», c: 3, səh: 260, həd: 8596; «Əs-Sunənil-kubra», c: 2, səh: 626, həd: 4343; «Tarixul-Mədinə», c: 1, səh: 29; «Kənzul-ummal», c: 7, səh: 666, həd: 20818; «Təraif», səh: 223, həd: 327.

[286] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 237, həd: 714; «İləluş-şərayə», səh: 319, həd: 1 (Məhəmməd ibn Əhməd rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 362; «Əl-Musənnəf», Əbdür-Rəzzaq, c: 1, səh: 440, həd: 1722; «Kənzul-ummal», c: 7, səh: 671, həd: 20842.

[287] «Səhihi-Muslim», c: 1, səh: 397, həd: 80; «Sunəni-İbn Macə», c: 1, səh: 252, həd: 760; «Musnədi-İbn Hənbəl», c: 9, səh: 31, həd: 23106; «Səhihi-İbn Həbban», c: 4, səh: 530, həd: 1652; «Kənzul-ummal», c: 7, səh: 666, həd: 20819; «Təraif», səh: 223, həd: 326.

## *8.16 MƏSCİDDƏ BİHUDƏ ŞEİRLƏR OXUMAQ*

**267.Məhəmməd peyğəmbər (s):** «Kimin məsciddə (faydasız) şer oxuduğunu görsəniz, ona belə deyin: «Allah dişlərini töksün!» Məscidlər yalnız Quran oxumaq üçün tikilib.»[288]

***İzah:*** *Diqqət edin! Yuxarıdakı hədisin və buna oxşar digər hədislərin əksinə olaraq, aşağıdakı rəvayətlər Peyğəmbərin (s) və Əhli-beytin (ə) məsciddə şer oxumağı təsdiq etdiyindən xəbər verirlər. Elə buna görə də, çoxsaylı fəqihlər məsciddə şer oxumağın məkruh (bəyənilməmiş) olması haqda olan hökmün, nalayiq və batil şerlərə aid olduğu fikrindədirlər.*

**268.** Cabir ibn Səmurədən belə nəql olunur: «Yüz dəfədən artıq Peyğəmbərin (s) məsciddəki məclislərində iştirak etmişəm. Elə bir halda ki, Rəsulallah (s) əyləşmiş və dostları da bir-birlərinə şer deyirdilər.[289]

**269.** Ürvə, Ayişədən nəql edir: «Allahın Rəsulu (s) məsciddə Həssan (o dövrdə yaşamış şair) üçün minbər qoyar və o da, minbərin üzərinə çıxaraq, Peyğəmbəri mədh edər və onu müdafiyə edərdi. Rəsulallah (s) da öz növbəsində buyurardı: «(Nə qədər ki, Allah Rəsulunu (s) mədh edir və onu müdafiə edir) Allah-Təala Həssana Ruhül-qudusla kömək edəcəkdir.»[290]

**270.** Səid ibn Müsəyyibdən nəql olunur: «Bir gün Həssan ibn Sabit məsciddə şer oxuyar»kən Ömər oraya gəlib dedi: Ey Həssan! Sən Allahın Rəsulunun (s) məscidində şer oxuyursan?» Həssan cavab verdi: «Mən bundan əvvəl də

---

[288] «Əl-Kafi», c: 3, səh: 369, həd: 5 (Cəfər ibn İbrahim .mam Zeynəl-abidindən (ə) rəvayət edir); «Təhzibul-əhkam», c: 3, səh: 259, həd: 725; «Biharul-ənvar», c: 83, səh: 363.

[289] «Əl-Mucəmul-kəbir», c: 2, səh: 858, həd: 8953

[290] «Sunəni-Tirmizi», c: 5, səh: 138, həd: 2746; Sunəni-Əbu Davud, c: 4, səh: 305, həd: 5015; «Musnədi-İbn Hənbəl», c: 9, səh: 346, 24491; «Əl-Mustədrəku-ələs-səhiheyn», c: 3, səh: 555, həd: 6058.

burada şer oxuyurdum o zaman səndən daha yaxşısı (Peyğəmbər (s)) burada idi.

Ömər «Doğrudur.»-dedi və yoluna davam etdi.»[291]

**271.**Nail ibn Tufeyl ibn Əmr Dəvsi nəql edir: «Peyğəmbər (s) (daim faydasız-lazımsız sözlər eşitməkdən sığındığı) məscidində oturmuşdu. Xəffaf ibn Nəzlət ibn Ömər ibn Bəhdələ Səqəfi yaxınlaşaraq bu şeri oxudu:

**Nə qədər qaranlıqda yürüyən cavan dəvələr**

**Susuz və otsuz çöllərdə çarəsiz və gücsüz qaldılar...**

Allahın elçisi bu beytləri bəyənib, buyurdu: «Doğrudan da, bəzi bəyanlar sehirli və bəzi şerlər hikmətlidir.»[292]

**272.** Yəhya ibn Səidin rəvayət etdiyinə əsasən, Abdullah ibn Ünəys anası, yəni Kəəb ibn Malikin qızı vasitəsilə belə rəvayət edir: «Allahın elçisi (s) Kəəb ibn Malik məsciddə şer oxuyarkən onun yanına gəldi. Peyğəmbər (s) onun simasının (parlaq və bədirlənmiş) ay kimi nurani olduğunu müşahidə etdikdə, buyurdu: «Hansi işlə məşğul idin?» Kəəb dedi: «Şer oxuyurdum». Rəsulallah (s) buyurdu: «Mənim üçün də oxu». Kəəb oxudu və bu beytlərə çatdı:

**Öz tayfamızı müdafiə etmək yolunda,**

**Bütün əzab-əziyyətlərə dözərik**

Allahın elçisi (s) buyurdu: «Öz tayfamızı deyil, öz dinimizi müdafiə etmək üçün» de!»[293]

**273.** İbn Şəhri Aşub yazır: «Bədəvi bir ərəb Mədinə şəhərinə gəldi. O, xalq arasında kimin daha çox kəramətli və

---

[291] «Tarixi-Dəməşq», c: 12, səh: 385; «Kənzul-ummal», c: 13, səh: 335, həd: 36946; «Əl-Qədir», c: 2, səh: 108

[292] «Tarixi-Dəməşq», c: 3, səh: 455, həd: 772; «Kənzul-ummal», c: 3, səh: 859, həd: 8956.

[293] «Tarixi-Dəməşq», c: 50, səh: 195, həd: 10642; «Əs-Sirətun-nəbəviyyə», İbn Hişam, c: 3, səh: 143; «Kənzul-ummal», c: 3, səh: 866, həd: 8973 (İbn Cərir rəvayət edir).

comərd olduğunu soruşduqda, ona imam Hüseyni (ə) göstərdilər. Bədəvi ərəb məscidə daxil oldu. Bu zaman imam Hüseyn (ə) orada namaz qılırdı. O, İmamın (ə) qarşısında dayanıb, bu beytləri oxudu:

**Sənə bel bağlayan heç kəs naümid olmadı,**
**Qapını döyən heç kim köməksiz qalmadı.**
**Sən səxavətli və bizim güvənc yerimizsən,**
**Atan isə çirkin əməlli insanları öldürən.**
**Sənin babaların olmasaydı əgər,**
**Cəhənnəmdə yanardı bütün bəşər.**

İmam Hüseyn (ə) namazını qılıb qurtardıqdan sonra buyurdu: «Qənbər! Hicazdan gələn mallardan bir miqdar qalıbmı?» Qənbər dedi: «Bəli, dörd min dirhəm qalıb». İmam (ə) buyurdu: «Pulu mənə ver.» İndi burada ona bizdən daha çox ehtiyacı olan bir şəxs var».

Sonra İmam (ə) çiyninə atdığı paltarı çıxarıb, pulu ona bükdü. Utanaraq bədəvi ərəbi çölə çıxarıb, pulu ona verərkən bu şeri oxudu:

**Bu pulu al, məni bağışla,**
**Bil ki, mən sənə qarşı mehribanam.**[294]

## *8.17 HEÇ BİR ZƏRURƏT OLMADAN MƏSCİDDƏ YATMAQ*

**274. Məhəmməd peyğəmbər (s):** «Ayağa qalxın, məsciddə yatmayın!»[295]

**275.** Cabir rəvayət edir: «Məsciddə uzanmışdıq. Bu vaxt Allahın Rəsulu (s) içəri daxil oldu. Əlindəki təzə xurma

[294] «Mənaqib», İbn Şəhri Aşub, c: 4, səh: 65; «Biharul-ənvar», c: 44, səh: 190, həd: 2.

[295] «Əl-Musənnəf», Əbdur-Rəzzaq», c: 1, səh: 422, həd: 1655; «Mənaqib», Kufi, c: 2, səh: 462, həd: 957 (Hər iki hədisi Cabir rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 663, həd: 20801.

ağacının budağı ilə bizi yavaşca vuraraq, buyurdu: «Məsciddə yatırsınız, bilmirsiniz ki, burada yatmaq olmaz?!»[296]

**276.** Əbuzər rəvayət edir: «Məsciddə yatmışdım. Allahın elçisi (s) yanıma gəldi. Ayağı ilə yavaşca vuraraq, buyurdu: «Səni məsciddə yatmış görürəm?!» Dedim: «Ey Allahın Rəsulu (s)! Göz qapaqlarım mənə qələbə çaldı (istər-istəməz mürgülədim).»[297]

**277. Məhəmməd peyğəmbər (s):** «Kim məsciddə üzrsüz səbəbə yatarsa, Allah-Təala onu davamlı bir xəstəliyə düçar edər.»[298]

**278. Rəsulallah (s):** «Kim cümə günü məsciddə mürgüləsə, öz yerini dəyişsin.»[299]

### *8.18 MƏSCİDƏ TÜPÜRMƏK*

**279. İmam Əli (ə):** «Peyğəmbər (s) məscidə tüpürməyi qadagan etdi.»[300]

**Məhəmməd peyğəmbər (s) buyurmuşdur:**

---

[296] «Tarixul-Mədinə», c: 1, səh: 37; «Tarixi-Dəməşq», c: 42, səh: 139; «Mənaqib», Xarəzmi, səh: 109, həd: 116; «Kənzul-ummal», c: 8, səh: 325, həd: 23126 (Əbdür-Rəzzaqın «Musənnəf» kitabina istinadən); «Kəşful-ğummə», c: 1, səh: 152; «Biharul-ənvar», c: 37, səh: 260, həd: 18.

[297] «Sunəni-Darəmi», c: 1, səh: 346, həd: 1371; «Musnədi-İbn Hənbəl», c: 8, səh: 88, həd: 21440; «Səhihi-İbn Həbban», c: 15, səh: 52, həd: 6668; «Tarixi-Dəməşq», c: 1, səh: 146; «Şərhi-Nəhcul-bəlağə», c: 3, səh: 57; «Kənzul-ummal», c: 5, səh: 786, həd: 14384 (İbn Cərirə istinadən).

[298] «Cameul-əxbar», səh: 179, həd: 434.

[299] «Əvaliul-lai», c: 1, səh: 158, həd: 139; Sunəni-Əbu Davud, c: 1, səh: 292, həd: 1119; «Musnədi-İbn Hənbəl», c: 2, səh: 270, həd: 4875; «Səhihi-İbn Həbban», c: 7, səh: 32, həd: 2792; «Əs-Sunənil-kubra», c: 3, səh: 336, həd: 5925 (Bütün hədisləri İbn Ömər rəvayət edir); «Əl-Mucəmul-kəbir», c: 7, səh: 247, həd: 7004 (Səmurə rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 741, həd: 21189.

[300] «Mən la yəhzəruhul-fəqih», c: 4, səh: 4, həd: 4968 (Hər iki hədisi Zeyd imam Sadiq (ə) vasitəsilə o həzrətin ata-babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 84, səh: 12, səh: 89.

**280.** Ümmətimin yaxşı və pis əməlləri mənə göstərildi. Ümmətimin saleh əməlləri arasında, yol üzərindəki (gediş-gəlişə çətinlik törədən) maneələri aradan qaldırmağı, bəd əməlləri arasında isə məscidə tüpürməyi gördüm.[301]

**281.** Məscidə tüpürmək yanlış hərəkətdir. Kəffarəsi isə tüpürcəyi təmizləməkdir.[302]

**282.** Kim məscidə tüpürərsə, onu təmizləməlidir! Onun kiminsə bədəninə və ya paltarına toxunaraq, əziyyət verməsinə, yol verilməməlidir.[303]

**283.** Abdullah ibn Ömərdən belə rəvayət olunur: «Allahın Rəsulu (s) məsciddə namaz qılırdı. O həzrət (s) qiblə tərəfdə (yerə) tüpürcək atıldığını gördü. Peyğəmbər (s) namazını qılıb, qurtardıqdan sonra buyurdu: «Sizlərin hər biri namaz qılarkən öz Tanrınızla minacat edir və Allah-Təala da sizə doğru üz çevirir. Deməli, qibləyə sarı və onun ətrafına ağız suyu atmaq olmaz!»

Peyğəmbər (s) bir çubuq alıb, oradakı tüpürcəyi təmizlədi. Sonra isə ətirli maye ilə oranı yudu.»[304]

---

[301] «Səhihi-Muslim», c: 1, səh: 390, həd: 57; «Sunəni-İbn Macə», c: 2, səh: 1214, həd: 3683; «Musnədi-İbn Hənbəl», c: 8, səh: 131, həd: 21606; «Səhihi-İbn Xəzimə», c: 2, səh: 276, həd: 1308; «Əs-Sunənul-kubra», c: 2, səh: 414, həd: 3590; «Musnədi-Təyasili», səh: 65, həd: 483 (Bütün hədisləri Əbuzər nəql edir); «Kənzul-ummal», c: 7, səh: 672, səh: 200846.

[302] «Səhihi-Buxari», c: 1, səh: 161, həd: 405; «Səhihi-Muslim», c: 1, səh: 390, həd: 56; «Sunəni-Əbu Davud», c: 1, səh: 128, həd: 475; «Musnədi-İbn Hənbəl», c: 4, səh: 365, həd: 12889; «Əs-Sunənil-kubra», c: 2, səh: 413, həd: 3588 (Ənəs rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 664, həd: 20804; «Təhzibul-əhkam», c: 3, səh: 256, həd: 712 (İmam Əli (ə) rəvayət edir).

[303] «Musnədi-İbn Hənbəl», c: 1, səh: 378, həd: 1543; «Səhihi-İbn Xəzimə», c: 2, səh: 277, həd: 1311; «Əl-Musənnəf», İbn Əbu Şeybə, c: 2, səh: 261, həd: 1; «Şöbul-iman», c: 7, səh: 517, həd: 11179 (Bütün hədisləri Səid ibn Əbi Vəqqas rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 664, həd: 20808.

[304] «Musnədi-İbn Hənbəl», c: 2, səh: 275, həd: 4908; «Əs-Sunənil-kubra», c: 2, səh: 415, həd: 3595 (Ənəs rəvayət edir); «Əl-Musənnəf»,

**Məhəmməd peyğəmbər (s) buyurmuşdur:**

**284.** Bəndə məscidə tüpürdükdə, məscidin sütunları, dərinin od üzərində gərildiyi kimi gərilib, lərzəyə gələr. Amma onu udsa (və yaxud gizlətsə), Allah-Təala yetmiş iki xəstəliyi ondan uzaqlaşdırar və ona iki milyon savab yazar.[305]

**285.** Məscidə tüpürüldükdə, oranın sütunları, dərinin od üzərində gərildiyi kimi, gərilib, lərzəyə gələr.[306]

**286.** Kim məscidə hörmət etmək məqsədilə (oraya tüpürməyib) ağzının suyunu udsa (gizlətsə), bu onun saglamlığına və xəstəliklərdən amanda qalmasına səbəb olar.[307]

**287. İmam Əli (ə):** «Kim məscidə ehtiram qoymaq və hörmət göstərmək məqsədilə oraya tüpürməsə, Qiyamət günü Allahın hüzuruna əməl dəftəri sağ əlinə verildiyi halda, sevinc içərisində gedər. Şallaq altında hansı hissləri keçirirsinizsə, məscid də, oraya tüpürüldükdə sanki belə hisslər kecirir.»[308]

**288. İmam Sadiq (ə):** «Kim məsciddə burun və ağız suyunu boşaltmaq əvəzinə onu udsa (və yaxud gizlətsə),

---

Əbdur-Rəzzaq», c: 1, səh: 430, həd: 1682; «Kənzul-ummal», c: 8, səh: 174, həd: 22438

[305] «Əl-Firdəvs», c: 1, səh: 291, həd: 1145 (Ənəs ibn Malik rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 665, həd: 3595

[306] «Məcazatün-Nəbəviyyə», səh: 211, həd: 173; «Biharul-ənvar», c: 83, səh: 364, həd: 19; «Əl-Musənnəf», Əbdur-Rəzzaq», c: 1, səh: 433, həd: 1691; «Əl-Musənnəf», İbn Əbu Şeybə, c: 2, səh: 260, həd: 9; «Tarixul-Mədinə», c: 1, səh: 26; «Kənzul-ummal», c: 8, səh: 317, həd: 23092.

[307] «Səvabul-əmal», səh: 35, həd: 1 (Təlhə ibn Zeyd imam Sadiq (ə) vasitəsilə imam Baqirdən (ə) nəql edir); «Əl-Məhasin», c: 1, səh: 127, həd: 145; «Biharul-ənvar», c: 84, səh: 13, həd: 90.

[308] «Dəaimul-İslam», c: 1, səh: 149; «Təhzibul-əhkam», c: 3, səh: 256, həd: 713 (İsmayıl ibn Müslim əş-Şəiri imam Sadiq (ə) vasitəsilə o həzrətin babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 83, səh: 381, həd: 50.

xəstəliyə düçar olmaz. Allah (məscidə hörmət edib, oraya tüpürmədiyi üçün) ona şəfa verər.»[309]

## *8.19 PİS İYLİ YEMƏKLƏR YEDİKDƏN SONRA MƏSCİDƏ GETMƏK*

**289.** Cabir rəvayət edir: «Allahın Rəsulu (s) bizi soğan və tərə yeməkdən çəkindirdi. Amma biz dözə bilməyərək onlardan yedik. Belə olduqda, O, buyurdu: «Heç kəs bu pis iyli tərəvəzlərdən yedikdən sonra bizim məscidimizə yaxınlaşmasın! Çünki mələklər də insanların narahat olduğu hər bir şeyə narahat olurlar.»[310]

**290.** Məhəmməd ibn Müslim rəvayət edir: «İmam Baqirdən (ə) sarımsaq yemək barəsində soruşdum. O həzrət (ə) belə buyurdu: «Allahın Rəsulu (s) insanları sarımsaq yeməkdən pis iyinə xatir çəkindirib. Buyurub: «Kim bu pis iyli tərəvəzi yesə, bizim məscidə yaxınlaşmasın! Məscidə gəlmədikdə isə sarımsaq yemək olar.»[311]

**291. İmam Sadiq (ə):** «Peyğəmbər (s) buyurdu: «Heç kim bu göyərtidən (sarımsaq) yediyi halda məscidimizə gəlməsin!» Amma onun haram olduğunu buyurmadı.[312]

---

[309] «Təhzibul-əhkam», c: 3, səh: 256, həd: 714; «Səvabul-əmal», səh: 35, həd: 2 (Hər iki hədisi Abdullah ibn Sənan rəvayət edir); «Biharul-ənvar», c: 84, səh: 13, həd: 90.

[310] «Səhihi-Muslim», c: 1, səh: 394, həd: 72; «Musnədi-İbn Hənbəl», c: 5, səh: 169, həd: 15015; «Əs-Sunənil-kubra», c: 3, səh: 108, həd: 5053; «Kənzul-ummal», c: 15, səh: 267, həd: 40419; «Əd-Dəavat», səh: 159, həd: 439; «Biharul-ənvar», c: 66, səh: 251, həd: 15.

[311] «Əl-Kafi», c: 6, səh: 374, həd: 1; «Təhzibul-əhkam», c: 9, səh: 96, həd: 419; «Mən la yəhzəruhul-fəqih», c: 3, səh: 358, həd: 4269; «İləluş-şərayə», səh: 519, həd: 1; «Biharul-ənvar», c: 66, səh: 247, həd: 2; «Musnədi-İbn Hənbəl», c: 4, səh: 122, həd: 11583 (Əbu Səid rəvayət edir).

[312] «Təhzibul-əhkam», c: 3, səh: 255, həd: 418; «İləluş-şərayə», səh: 520, həd: 3; «Əl-Məhasin», c: 2, səh: 331, həd: 2132 (Bütün hədisləri David ibn Fərqət imam Sadiqdən (ə) nəql edir); «Biharul-ənvar», c: 66, səh: 250, həd: 13; «Səhihi-Muslim», c: 1, səh: 393, həd: 68; «Əs-Sunənil-kubra», c: 3, səh: 107, həd: 5050 (Hər iki hədisi İbn Ömər rəvayət edir).

**292.** Əbu Səid Xudri belə rəvayər edir: «Rəsulallahın (s) hüzurunda soğan və sarımsaq barəsində söhbət açılanda:« Ey Allahın elçisi! Bu tərəvəzlərin ən pis qoxulusu, sarımsaqdır. Onu yeməyi haram buyurursan?»-deyə soruşuldu. Peyğəmbər (s) buyurdu: «Onu yeyin, amma nə qədər ki, ağzınızdan iyi getməyib, məscidə yaxılaşmayın!»[313]

**293. İmam Əli (ə):** Hər kim, pis qoxulu bir şey yesə, heç vaxt (o halda) məscidə yaxınlaşmasın.[314]

**294.** Həsən Zəyyat rəvayət edir: «Həcc əməllərini qurtardıqdan sonra Mədinə şəhərinə gedib, imam Baqiri (ə) axtardım. Mənə onun Yənbu məntəqəsində olduğunu söylədilər. Oraya getdim. İmam (ə) buyurdu: Ey Həsən! Buraya mənim üçün gəlmisən?» Dedim: «Bəli, sənə qurban olum! Səni görmədən buradan getmək istəmədim». İmam (ə) buyurdu: Mən bu göyərtidən (sarımsaq) yemişdim və ona görə də Peyğəmbərin məscidindən uzaq olmaq istədim.»[315]

## *8.20 MƏSCİDDƏ ALVER ETMƏK*

**295. Məhəmməd peyğəmbər (s):** «Kiminsə məsciddə alverlə məşğul olduğunu gödükdə ona deyin: «Allah ticarətini faydalı, səmərəli etməsin!»[316]

---

[313] «Sunəni-Əbu Davud», c: 3, səh: 360, həd: 3823; «Kənzul-ummal», c: 15, səh: 267, həd: 40911.

[314] «Təhzibul-əhkam», c: 3, səh: 255, həd: 708 (Əbu Bəsir rəvayət edir); «Xisal», səh: 630, həd: 10 (Əbu Bəsir və Məhəmməd ibn Müslim imam Sadiq (ə) vasitəsilə o həzrətin babalarından (ə) nəql edir); «Tuhəful-uqul», səh: 119.

[315] «Əl-Kafi», c: 6, səh: 375, həd: 3; «Əl-Məhasin», c: 2, səh: 331, həd: 2131; «Biharul-ənvar», c: 66, səh: 250, həd: 12.

[316] «Sunəni-Tirmizi», c: 3, səh: 611, həd: 1321; «Sunəni-Darəmi», c: 1, səh: 347, həd: 1373; «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 2, həd: 65, həd: 2339; «Səhihi-İbn Xəzimə», c: 2, səh: 274, həd: 1305; «Səhihi-İbn Həbban», c: 4, səh: 528, həd: 1650; «Əs-Sunənil-kubra», c: 2, səh: 627, həd: 4345; «Kənzul-ummal», c: 7, səh: 666, həd: 20817.

### *8.21 MƏSCİDDƏ MEYİD NAMAZI QILMAQ*

**296.** Əbu Bəkr ibn İsa ibn Əhməd Ələvi rəvayət edir: «Məsciddə idim. Bu zaman oraya bir cənazə gətirdilər. Mən ona namaz qılmaq istədikdə, imam Kazım (ə) yanıma gəldi. Əlini sinəmə qoyaraq məni məsciddən çıxana qəbər itələyib, apardı. Buyurdu: «Ey Əbu Bəkr! Məsciddə meyid namazı qılınmaz!»[317]

### *8.22 MƏSCİDDƏ HƏDD İCRA ETMƏK[318]*

**297.** Əmr ibn Şüeyb babaları vasitəsilə nəql edir: «Allahın elçisi (s) məsciddə hədd icra etməyi qadağan etmişdir.»[319]

**298. Məhəmməd peyğəmbər (s):** «Günahkarları məscidlərdə cəzalandırmaq olmaz!»[320]

### *8.23 DİGƏR MƏKRUH ƏMƏLLƏR*

**299. Məhəmməd peyğəmbər (s):** «Məsciddə qılınclar qınlarından çıxmaz, oxlar atılmaz, Allaha and içilməz, yarım günlük istirahət etmək istəyən qonaqlara mane olmaq olmaz! Məscidlər nəqqaşlıq və şüşə ilə bəzədilmiş bina şəkilində tikilməz! Ümumiyyətlə, məscidlər əmin-amanlıq məkanıdır. Səxavət və kəramətlə şərəf tapmışdır.»[321]

---

[317] «Əl-Kafi», c: 3, səh: 182, həd: 1; «Təhzibul-əhkam», c: 3, səh: 326, həd: 1016.

[318] Gunahkarı cəzalandırmaq.

[319] «Sunəni-İbn Macə», c: 2, səh: 867, həd: 2600; «Kənzul-ummal», c: 7, səh: 669, həd: 20831 (İbn Ömər rəvayət edir); «Dəaimul-İslam», c: 1, səh: 149 (İmam Əli (ə) rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 381, həd: 51.

[320] «Sunəni-Tirmizi», c: 4, səh: 19, həd: 1401,; «Sunəni-İbn Macə», c: 2, səh: 867, həd: 2599; «Əl-Mustədrəku-ələs-səhiheyn», c: 4, səh: 410, həd: 8104; «Əs-Sunənil-kubra», c: 8, səh: 70, həd: 15966 (Bütün hədisləri İbn Abbas rəvayət edir); «Musnədi-İbn Hənbəl», c: 5, səh: 301, həd: 15579 (Həkim ibn Hizam rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 669, həd: 20829; «Əl-Məqnəə», səh: 783; «Əvaliul-lai», c: 1, səh: 189, həd: 268.

[321] «Əl-Mucəmul-kəbir», c: 2, səh: 139, həd: 1589 (Cübeyr ibn Mətəm rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 672, həd: 20850.

**300. Rəsulallah (s):** «Bəzi işlər məscidə layiq deyil: Məscidi keçid yoluna çevirmək. Orada qılıncları qınlarından çıxarmaq olmaz, günahkarlar cəzalandırılmaz, kimdənsə qisas alınmaq. Məscidi bazar etmək qadağandır.»[322]

**301. İmam Əli (ə):** «Allahın Rəsulu (s) məsciddə günahkarları cəzalandırmağı, uca səslə danışmağı, itirdiyini tapmaq üçün elan verməyi, qılıncları qınından çıxarmağı, ox atmağı, alver etməyi, qiblə tərəfdə silah asmağı və nizə düzəltməyi qadağan etmişdir.»[323]

**302. Məhəmməd peyğəmbər (s):** «Körpə uşaqları və dəlilərinizi məsciddən uzaqlaşdırın. Məsciddə ticarət etməyin.»[324]

**303.** Məhəmməd ibn Müslim rəvayət edir: «İmam Baqir (ə) (ya imam Sadiq (ə)) buyurdu: «Peyğəmbər (s) məsciddə qılınc çəkməyi, nizə düzəltməyi qadağan etdi. O həzrət (s) buyurdu: «Şübhəsiz, məscidlər belə işlər üçün deyil, başqa məqsədlər üçün inşa edilmişdir.»[325]

**304.** Əmr ibn Şüeyb babalarından belə nəql edir: «Allahın Rəsulu (s) məsciddə alver etməyi, itirilən şeylər üçün elan verməyi və şer oxunmağı qadağan etdi.»[326]

---

[322] «Sunəni-İbn Macə», c: 1, səh: 247, həd: 748 (İbn Ömər nəql edir); «Kənzul-ummal», c: 7, səh: 667, həd: 20820.

[323] «Dəaimul-İslam», c: 1, səh: 149; «Biharul-ənvar», c: 83, səh: 381, həd: 51.

[324] «Təhzibul-əhkam», c: 3, səh: 254, həd: 702 (Əbdül-Həmid imam Kazımdan (ə) rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 237, həd: 715; «Əl-Cəfəriyyat», səh: 51; «Nəvadir», Ravəndi, səh: 241, həd: 495 (Hər iki hədisi imam Kazım (ə) babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 83, səh: 349, həd: 2; «Sunəni-İbn Macə», c: 1, səh: 247, həd: 750; «Əs-Sunənil-kubra», c: 10, səh: 177, həd: 20268; «Əl-Mucəmul-kəbir», c: 22, səh: 57, həd: 136 (Bütün hədisləri Vasilə ibn Əsqəf rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 670, həd: 20834

[325] «Əl-Kafi», c: 3, səh: 369, həd: 8; «Təhzibul-əhkam», c: 3, səh: 259, həd: 724; «Biharul-ənvar», c: 83, səh: 350.

[326] «Sunəni-Əbu David», c: 1, səh: 283, həd: 1079; «Sunəni-İbn Macə», c: 1, səh: 247, həd: 749; «Sunəni-Tirmizi», c: 2, səh: 139, həd: 322;

**305.** Allah-Təala mənə belə vəhy etdi: «Ey peyğəmbərlərin və xalqa xəbərdarlıq edənlərin qardaşı! Ümmətinə xəbərdarlıq et! Onlardan heç kim bəndələrimdən birinin haqqı boynunda olduğu halda evlərimdən (məscid) heç birinə daxil olmasın! Çünki ona qarşımda namaz qıldığı halda olsa da, nə qədər ki, mənim bəndəmin haqqını qaytarmayıb, nifrin (qarğış, bəddua) edərəm. Amma bəndəmin haqqını ödəsə, onun eşidən qulqları, görən gözləri olaram. O, mənim dostlarım və seçilmiş yaxınlarımdan birinə çevrilər. Behiştdə peyğəmbərlər, siddiqlər (düzgün əməlli və doğru danışan, sədaqətli insanlar), şəhidlər və saleh əməlli insanlarla birgə Mənim qonşum olar.»[327]

**306.** Allah-Təala peyğəmbərlərindən birinə belə vəhy etdi: «Nə üçün bəndələrim günahkar qəlbləri, pak olmayan əlləri ilə evlərimə (məscid) daxil olurlar?! Mənə lovğalıqmı edirlər?! Yoxsa Məni aldatmaqmı istəyirlər?! İzzət və şərəfimə and olsun, onları elə bir bəlaya mübtəla edərəm ki, dözümlü və səbirli şəxs belə ona tab gətirə bilməz! Belə insanların arasından, yalnız qərq olduğu zaman dua edən (tövbə edən) kəslər qurtular və nicat tapar.»[328]

**307. İmam Əli (ə): «**Allah-Təala məsih İsa ibn Məryəmə (ə) belə vəhy etdi: «Bəni-İsrail zadəganlarına de: «Evlərimə (məscid), yalnız təmiz qəlblər, məsum baxışlar və günaha bulaşmamış, pak əllərlə daxil olun! Bəndələrimdən birinin

---

«Musnədi-İbn Hənbəl», c: 2, səh: 667, həd: 7010 (Abdullah ibn Ömər rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 669, həd: 20830.

[327] «İddətud-dai», səh: 129; «Əlamud-din», səh: 136; «Tənbihul-xəvatir», c: 1, səh: 53 (Hər iki hədisi Hüzeyfə rəvayət edir); «Biharul-ənvar», c: 84, səh: 257, həd: 55; «Tarixi-Dəməşq», c: 65, səh: 44, həd: 13182 (Hüzeyfə rəvayət edir); «Kənzul-ummal», c: 15, səh: 933, həd: 43600.

[328] «Hilyətul-ovliya», c: 3, həd: 48; «Əl-Firdəvs», c: 1, səh: 145, həd: 517 (Hər iki hədisi Ənəs rəvayət edir).

haqqını tapdalayan heç bir kəsin duasını (nə qədər ki, onun haqqını əta etməyib) qəbul etməyəcəyəm!»[329]

### *C. MƏCİDDƏ HARAM OLAN ƏMƏLLƏR*

### *8.24 MƏSCİDİ MURDARLAMAQ*

**308. Məhəmməd peyğəmbər (s):** «Məscidlərinizi hər cür natəmizlikdən uzaq saxlayın.»[330]

**309. Rəsulallah (s):** «Agah olun! Məscidlər nəcis və murdara uyğun deyil! Məscidlər, yalnız Allahı yada salmaq, namaz qılmaq və Quran oxumaq üçündür.»[331]

### *8.25 CƏNABƏTLİ VƏ HEYZLİ ŞƏXSİN MƏSCİDDƏ DAYANMASI*

**Qurani-kərim:** «Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər və cünub olduğunuz zaman – yol ötən müsafirlər müstəsnadır – qüsl edənədək namaza (namaz qılınan yerlərə) yaxınlaşmayın!»[332]

**310. İmam Əli (ə):** («**Yol ötən müsafirlər müstəsnadır**» ayəsini şərh edərkən) Məqsəd budur ki, cənabətli şəxs məsciddən keçib-gedə bilər, amma orada otura bilməz.»[333]

---

[329] «Fəlahus-sail», səh: 93, həd: 28; «Tənbihul-xəvatir», c: 2, səh: 244 (Hər iki hədisi Novf rəvayət edir); «Fəthul-əbvab», səh: 290; «Biharul-ənvar», c: 93, səh: 319, həd: 27.

[330] «Vəsailuş-şiə», c: 3, səh: 504, həd: 6410.

[331] «Səhihi-Muslim», c: 1, səh: 237, həd: 100; «Musnədi-İbn Hənbəl», c: 4, səh: 381, həd: 12983; «Əs-Sunənil-kubra», c: 2, səh: 578, həd: 4142; «Təfsiri-Qurtubi», c: 12, səh: 269 (Bütün hədisləri Ənəs rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 661, həd: 20793.

[332] «Nisa» surəsi, ayə: 43.

[333] «Dəaimul-İslam», c: 1, səh: 149; «Biharul-ənvar», c: 83, səh: 382, həd: 51; «Sunəni-Darəmi», c: 1, səh: 280, həd: 1157; «Əl-Musənnəf», İbn Əbu Şeybə, c: 1, səh: 171, həd: 3 (Hər iki hədisi Əbu Übeydə rəvayət edir).

**311. İmam Baqir (ə):** «(Həmin ayənin şərhi zamanı) Məqsəd budur ki, cənabətli olan halda namaz qılınan yerlərə (məscid), yalnız keçib-getmək surətilə daxil olun.»[334]

**312.** Zürarə və Məhəmməd ibn Müslim belə rəvayət edir: «İmam Baqirə (ə) dedim: «Heyzli və cənabətli şəxs məscidə daxil ola bilərmi?» Buyurdu (ə): «Heyzli və cənabətli şəxs, keçib-getmək məqsədi istisna olmaqla, başqa heç bir niyyətlə məscidə daxil ola bilməz! Allah-Təala buyurur: «Cünub olduğunuz zaman – yol ötən müsafirlər müstəsnadır – qüsl edənədək namaza (namaz qılınan yerlərə) yaxınlaşmayın!»[335]

**313. Məhəmməd peyğəmbər (s):** «Heç bir cənabətli və heyzli şəxsə məscidə daxil olmaq olmaz!»[336]

**314. Rəsulallah (s):** «Allah-Təala mənim üçün üç xüsusiyyəti bəyənilməmiş saydı. Mən də, övladlarımın arasında olacaq özümdən sonrakı canişinlərimə və onların ardıcıllarına bu xüsusiyyətləri bəyənilməmiş sayıram ... (onlardan biri də) məscidə cənabətli halda daxil olmaqdır.»[337]

---

[334] «Məcməul-bəyan», c: 2, səh: 81.

[335] «İləluş-şərayə», səh: 288, həd: 1; «Təfsiri-Qummi», c: 1, səh: 139 (İmam Sadiq (ə) rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 87, həd: 191.

[336] «Sunəni-İbn Macə», c: 1, səh: 212, həd: 645; «Əs-Sunənil-kubra», c: 7, səh: 104, həd: 13400; «Əl-Mucəmul-kəbir», c: 23, səh: 374, həd: 883; «Mənaqib», Xarəzmi, səh: 320, həd: 325 (Bütün hədisləri Ümm Sələmə rəvayət edir); «Kənzul-ummal», c: 7, səh: 7, həd: 20825; «Tuhəful-uqul», səh: 430 (İmam Rza (ə) Peyğəmbərdən (s) nəql edir); Şərhul-əxbar, c: 2, səh: 181, həd: 521; «Mənaqib», İbn Şəhri Aşub, c: 1, səh: 194 (Hər iki hədisi Ümm Sələmə rəvayət edir); «Biharul-ənvar», c: 39, səh: 30, həd: 11.

[337] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 188, həd: 575; «Xisal», səh: 327, həd: 19 (İshaq ibn Əmmar imam Sadiqdən (ə) rəvayət edir); «Əmali-Səduq», səh: 118, həd: 104 (Qiyas ibn İbrahim imam Sadiq (ə) vasitəsilə o həzrətin babalarından (ə) nəql edir); «Əl-Məhasin», c: 1, səh: 73, həd: 31 (Süleyman Deyləmi imam Sadiqdən (ə) rəvayət edir); «Biharul-ənvar», c: 79, səh: 277, həd: 1.

**315. İmam Baqir (ə):** Cənabətli və heyzli şəxs ... keçib-getmək məqsədilə məscidə daxil ola bilər, lakin orada otura bilməz! İki daha əzəmətli, hörmətli məscidlərə yaxınlaşmamalıdır.»[338]

**316. İmam Baqir (ə):** «Kim Məscidül-həramda və ya Məscidün-Nəbidə yatarsa və yuxuda ikən boynuna cənabət qüslü gələrsə, təyəmmüm etməlidir. O, məscidi tərk edərək qüsl almadan, orada təyəmmümsüz hərəkət edə bilməz. Heyzli qadın da belə etməlidir. Başqa məscidlərdə isə orada oturmadan kecib gedə bilərlər.»[339]

**317. İmam Sadiq (ə):** «Boynunda cənabət qüslü olan şəxs, bütün məscidlərdən (orada oturmamaq şərtilə) keçib-gedə bilər. Lakin Məscidül-həram və Məscidün-Nəbidə buna icazə verilmir.»[340]

### *8.26 CƏNABƏTLİ ŞƏXSİN VƏ YA HEYZLİ QADININ MƏSCİDƏ BİR ŞEY QOYMASI*

**318.** Abdullah ibn Sənan nəql edir: «İmam Sadiqdən (ə) soruşdum: «Cənabətli və heyizli şəxs məsciddən öz malını – əşyasını götürə bilərmi?» Buyurdu (ə): «Bəli, lakin (belə şəraitdə) məscidə bir şey qoya bilməz.»[341]

**319.** Zürarə nəql edir: «İmam Baqirdən (ə) soruşdum: «Necə olur ki, heyzli qadın məscidə qoyduğu şeyi götürə bilər, amma oraya bir şey qoya bilməz?» İmam (ə) buyurdu:

---

[338] «Təhzibul-əhkam», c: 1, səh: 371, həd: 1132 (Məhəmməd ibn Müslim rəvayət edir).

[339] «Əl-Kafi», c: 3, səh: 73, həd14; «Təhzibul-əhkam», c: 1, səh: 407, həd: 1270 (Hər iki hədisi Əbu Həmzə rəvayət edir).

[340] «Əl-Kafi», c: 3, səh: 50, həd: 3 (Cəmil ibn Dərrac rəvayət edir).

[341] «Əl-Kafi», c: 3, səh: 51, həd: 8; «Təhzibul-əhkam», c: 1, səh: 125, həd: 338; «Əvaliul-lai», c: 3, səh: 28, həd: 74; «Vəsailuş-şiə», c: 1, səh: 491, həd: 1.

«Çünki heyzli şəxs əlindəki malı başqa bir yerə də qoya bilər, amma məsciddəki malını, təbii ki, oradan götürməlidir.»[342]

[342] «Əl-Kafi», c: 3, səh: 106, həd: 1; «Təhzibul-əhkam», c: 1, səh: 397; həd: 1233; «Vəsailuş-şiə», c: 2, səh: 583, həd: 1.

## *9-CU FƏSİL: MƏSCİDİ SÖKMƏK*

**Qurani-kərim buyurur: «Əgər Allah insanların bir qismini digər qismi ilə (müşrikləri möminlərlə) dəf etməsəydi, sözsüz ki, içərisində Allahın adı çox zikr olunan soməələr (rahiblərin yaşadığı monastırlar), kilsələr, məbədlər və məscidlər dağılıb gedərdi (darmadağın edilərdi).[343]**

**Allahın məscidlərində Onun adının çəkilməsinə maneçilik törədənlərdən və onların xarab edilməsinə, dağılmasına çalışanlardan daha zalım kim ola bilər?! Halbuki, onlar oraya (məscidlərə), ancaq qorxa-qorxa girməli idilər. Onları dünyada rüsvayçılıq, Axirətdə isə böyük əzab gözləyir! »[344]**

**320. Məhəmməd peyğəmbər (s):** «Zalım şəxsin hakimiyyəti zamanı ... məscidlər dağıdılar, ilahi sünnə və dini dəyərlər tərk edilər».[345]

---

[343] «Həcc» surəsi, ayə: 40.
[344] «Bəqərə» surəsi, ayə: 114.
[345] «Tuhəful-uqul», səh: 332; «Biharul-ənvar», c: 75, səh: 348, həd: 49.

## *10-CU FƏSİL: ƏN DƏYƏRLİ MƏSCİDLƏR*

## *10.1 MƏSCİDÜL-HƏRAM*

**Qurani-kərim: «Həqiqətən, insanlar üçün ilk bina olunan ev (məbəd), Məkkədəki evdir ki, o, şübhəsiz, bütün aləmlərdən ötrü bərəkət və doğru yol qaynağıdır.[346] Orada aydın nişanələr, İbrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır (təhlükədən kənardır). (Yemək, azuqə, sağlamlıq və minik baxımından) yoluna qüvvəsi çatan hər bir kəsin həccə gedib, o evi (Kəbəni) ziyarət etməsi insanların Allah qarşısında borcudur! Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyil!»[347]**

**321. Məhəmməd peyğəmbər (s):** «Allah-Təalanın yanında ən hörmətli, ən sevimli və qiymətli məscid, Məscidül-həramdır.[348]

**322. Rəsulallah (s):** «Məscidül-həramın mənim məscidimə (Məscidün-Nəbiyə) olan üstünlüyü, mənim məscidimin başqa məscidlərə olan üstünlüyü kimidir.»[349]

**323.** Əbuzər rəvayət edir: «Soruşdum:

– Ey Allahın Rəsulu! Yer üzərində ilk məscid hansı məscid olmuşdur?

Buyurdu (s):

– Məscidül-həram.

– Bəs sonra hansı məscid olmuşdur?

---

[346] «Ali-İmaran» surəsi, ayə: 96.

[347] «Ali-İmran» surəsi, ayə: 97.

[348] «Əl-Mustədrəku-ələs-səhihəyn», c: 4, səh: 531, həd: 8490; «Əl-Mucəmul-kəbir», c: 3, səh: 174, həd: 3035; «Musnədi-Təyasili», səh: 144, həd: 1069; «Təfsiri-Qurtubi», c: 13, səh: 235 (Bütün hədisləri Əbi Sərixə Ənsari rəvayət edir); «Kənzul-ummal», c: 14, səh: 624, həd: 39739; «Biharul-ənvar», c: 6, səh: 300.

[349] «Əxbari-Məkkə», Ərzəqi, c: 2, səh: 64 (Əmr ibn Şüeyb rəvayət edir).

– Məscidül-əqsa.

– Bu iki məscidin tikilmə tarixi arasındakı fasilə nə qədərdir?

– Qırx il.[350]

**324.** Əbu Həmzə Somali rəvayət edir: «Məscidül-həramda olarkən, imam Baqirdən (ə) soruşdum: «Allah-Təala hansı səbəbə Məscidül-həramı «ətiq» (qiyməti qədim bir şey) adlandırıb?» Buyurdu (ə): «Yer üzərində bu evdən başqa, (Allahın xəlq etdiyi) hər bir evin öz sahibi və sakinləri var. Bu azad evin sahibi, yalnız Allah-Təaladır. Allah-Təala, onu bütün varlıqlardan əvvəl yaratdı və sonra yer kürəsini xəlq edib, onun altına yerləşdirdi.»[351]

**325.** Səlam Hənnat bir kişinin vasitəsilə rəvayət edir: «İmam Sadiqdən (ə) fəzilətli məscidlər haqqında soruşdum. Buyurdu (ə): «Məscidül-həram və Məscidün-Nəbi (fəzilətli məscidlərdir).»[352]

**326.** Müaviyə ibn Əmmar rəvayət edir: «İmam Sadiq (ə) buyurdu: «Məscidül-hərama girdikdə ayaqyalın, təmkinlə, vüqarla və təvazökarlıqla daxil ol. Bil ki, hər kim oraya təvazökarlıqla daxil olsa, inşallah, bağışlanar». Soruşdum: «Təvazökarlıq nədir?» Buyurdu (ə): «Təmkinli olmaqdır. Oraya lovğa və özündənrazı halda daxil olma. Məscidin qapısına yaxınlaşdıqda dayan və belə de: Allahın rəhmət və bərəkəti və bizim salamımız sənədir, ey Peyğəmbər! Allahın adı və Allahın yardımı ilə. Mən Allahdanam və Allahın

---

[350] «Səhihi-Buxari», c: 3, səh: 1231, həd: 3186; «Səhihi-Muslim», c: 1, səh: 370, həd: 1; «Sunəni-İbn Macə», c: 1, səh: 248, həd: 753; «Sunəni-Nəsai», c: 2, səh: 32; «Musnədi-İbn Hənbəl», c: 8, səh: 109, həd: 21524; «Əs-Sunənil-kubra», c: 2, səh: 607, həd: 4263; «Kənzul-ummal», c: 12, səh: 199, həd: 34655.

[351] «Əl-Kafi», c: 4, səh: 189, həd: 5; «İləluş-şərayə», səh: 399, həd: 2; «Biharul-ənvar», c: 99, səh: 58, həd: 13.

[352] «Təfsiri-Əyyaşi», c: 2, səh: 279, həd: 13; «Biharul-ənvar», c: 100, səh: 405, həd: 62.

istədiyi kimi olsun. Peyğəmbərlərə və ilahi elçilərə (s) salam olsun! Allahın Rəsuluna salam olsun! İbrahimə (ə) salam olsun! Aləmlərin rəbbinə salam olsun.

Məscidə daxil olduqda, əllərini göyə qaldırıb, üzünü Kəbəyə çevirərək, de: İlahi, mən burada Həcc əməllərini yerinə yetirmək istəyirəm. Tövbəmi qəbul etməyini, xətalarımı bağışlamağını və günahlarımın ağırlığını çiyinlərimdən götürməyini xahiş edirəm. Həmd olsun Allaha ki, mənə öz dəyərli Evini ziyarət etməyi nəsib etdi. İlahi, hüzurunda şəhadət verirəm ki, bu, Sənin çox şərəfli evindir. Sən bu evi, insanlara ziyarət, əmin-əmanlıq, bərəkət məkanı və onları doğru yola yönəltmək üçün yaratdın. İlahi, bu Sənin bəndən, bu torpağın və bu da Evindir. Sənin rəhmətinin sorağı ilə, əmr və göstərişlərinə itaət edərək buraya gəlmişəm. Cəzalandırmağından qorxduğum halda, acizanə şəkildə sənə yalvarıram. İlahi, rəhmət qapılarını mənim üzümə aç və məni Sənə itaət etməyə və razı olduğun hər bir yola doğru yönəlt.»[353]

**327. İmam Baqir (ə):** «Kim, Məscidül-həramda bir vacib namazı yerinə yetirərsə, Allah-Təala onun indiyədək qıldığı bütün namazlarını və bundan sonra ömrünün axırınadək qılacağı hər bir namazı qəbul edər.[354]

## *10.2 PEYĞƏMBƏRİN (S) MƏSCİDİ*

**328. Məhəmməd peyğəmbər (s): «M**əscidimdə qılınan bir rəkət namaz, digər məscidlərdə qılınmış min rəkət namaza bərabərdir. Bu hökm, alnız Məscidül-harama aid deyil. Orada

---

[353] «Əl-Kafi», c: 4, səh: 401, həd: 1; «Təhzibul-əhkam», c: 5, səh: 100, həd: 327; «Vəsailuş-şiə», c: 9, səh: 321, həd: 1.

[354] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 228, həd: 681 (Əbu Həmzə Somali rəvayət edir); «Vəsailuş-şiə», c: 3, səh: 536, həd: 1.

(Məscidül-həram) qılınan hər namaz, min rəkət namazdan daha da üstündür.»[355]

**329. Rəsulallah (s):** «Məscidül-həram istisna olmaqla, məscidimdə qılınan hər bir namaz, başqa məscidlərdə qılınan on min namaza bərabərdir. Çünki bu məsciddə qılınan hər namaz, başqa məscidlərdə qılınan yüz min namaza bərabərdir.[356]

**330.** Əbu Bəkr Xəzrəmi rəvayət edir: «İmam Sadiq (ə) mənə belə buyurdu: «Bacardığın qədər Peyğəmbərin məscidində daha çox namaz qıl. Doğrusu, orada istədiyin miqdarda namaz qıla bilməyəcəksən (Hər nə qədər bu şərafətli məsciddə namaz qılsan, yenə də azdır).»[357]

### *10.3 MƏSCİDÜL-ƏQSA*

**Qurani-kərim: «Bəzi ayələrimizi (qüdrətimizə dəlalət edən qəribəlikləri və əcaiblikləri) göstərmək üçün bəndəsini (Peyğəmbəri (s) bir gecə (Məkkədəki) Məscidül-həramdan ətrafını mübarək etdiyimiz (bərəkət verdiyimiz) Məscidül-əqsaya (Beytül-müqəddəsə) aparan**

---

[355] «Təhzibul-əhkam», c: 6, səh: 15, həd: 32 (İshaq ibn Əmmar rəvayət edir); «Kamiluz-ziyarat», səh: 60, həd: 40 (Müaviyə ibn Əmmar rəvayət edir və hər iki hədis imam Sadiqdən (ə) rəvayət olunur); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 228, həd: 682; «Biharul-ənvar», c: 99, səh: 241, həd: 9; «Səhihi-Muslim», c: 2, səh: 1012, həd: 506; «Sunəni-Tirmizi», c: 2, səh: 147, həd: 325; «Sunəni-İbn Macə», c: 1, səh: 450, həd: 1404; «Əs-Sunənil-kubra», c: 5, səh: 403, həd: 10276; «Musnədi-İbn Hənbəl», c: 2, səh: 232, həd: 4646 (İbn Ömər rəvayət edir); «Kənzul-ummal», c: 12, səh: 234, həd: 34819.

[356] «Səvabul-əmal», səh: 50, həd: 1 (Məsədə ibn Sədəqə imam Sadiq (ə) vasitəsilə o həzrətin babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 99, səh: 241, həd: 6; «Hilyətul-ovliya», c: 8, səh: 46; «Tarixi-Dəməşq», c: 26, səh: 246, həd: 5558 (Hər iki hədisi Ənəs rəvayət edir); «Kənzul-ummal», c: 12, səh: 195, həd: 34633.

[357] «Kamiluz-ziyarat», səh: 43, həd: 10; «Biharul-ənvar», c: 99, səh: 381, həd: 8.

**Allah pakdır, müqəddəsdir! O, doğrudan da, (hər şeyi) eşidəndir, görəndir!»**[358]

**331. Məhəmməd peyğəmbər (s):** «Süleyman ibn Davud (ə) Beytül-müqəddəsi tikib-qurtardıqdan sonra Allah-Təaladan üç arzu dilədi: İlahi hökmləri ilə həmahəng olan mühakimə etmək qüdrəti, ondan sonra gələcək heç bir kəsə əta olunmayacaq olan hökmranlıq və bu məscidə gəlib namaz qılan hər kəsin, anasının bətnindən yenicə doğulan körpə uşaq kimi pak olması (günahlarının bağışlanması).[359]

**332.**Meymunə Rəsulallaha belə dediyini rəvayət edir:

– Ey Allahın Rəsulu, Beytül-müqəddəs haqqında bizə nəzərini söylə.

Buyurdu (s):

– (Beytül-müqəddəs) Qiyamət gününün bərpa olacağı məkandır. Oraya gedin və namaz qılın! Çünki orada qılınan bir namaz, başqa məscidlərdə qılınan min namaza bərabərdir.

– Bəs əgər oraya getmək imkanımız olmasa, nə edək?

– Oranı işıqlandırmaq üçün yağ göndər. Kim belə etsə sanki, oranı ziyarət etmişdir.[360]

**333. İmam Əli (ə):** «Dörd məkan Behiştin yer üzərindəki saraylarından sayılır: Məscidül-həram, Məscidün-Nəbi, Beytül-müqəddəs və Kufə məscidi.»[361]

---

[358] «İsra» surəsi, ayə: 1.

[359] «Sunəni-İbn Macə», c: 1, səh: 451, həd: 1408; «Sunəni-Nəsai», c: 2, səh: 34; «Musnədi-İbn Hənbəl», c: 2, səh: 590, həd: 6655; «Əl-Mustədrəku-ələs-səhiheyn», c: 2, səh: 471, həd: 3642; «Tarixi-Dəməşq», c: 22, səh: 294, həd: 4946 (Bütün hədisləri Abdullah ibn Əmr ibn As rəvayət edir); «Kənzul-ummal», c: 11, səh: 496, həd: 32333.

[360] «Sunəni-İbn Macə», c: 1, səh: 451, həd: 1407; «Musnədi-İbn Hənbəl», c: 10, səh: 448, həd: 27697; «Əs-Sunənil-kubra», c: 2, səh: 619, həd: 4316; «Əl-Mucəmul-kəbir», c: 25, səh: 32, həd: 54; «Kənzul-ummal», c: 12, səh: 285, həd: 35061.

## *10.4 QUBA MƏSCİDİ*

**Qurani-kərim: «(Ya Rəsulum!) Orada (Zirar məscidində) heç vaxt namaz qılma! İlk gündən binası təqva (Allahdan qorxub pis əməllərdən çəkinmək) üzərində qurulmuş məscid (Quba məscidi) namaz qılmağına daha layiqdir. Orada paklanmağı sevən insanlar vardır. Allah pak olanları (özlərini cismən təmizləyənləri, mənəvi qüsurlardan, çirkinliklərdən qorumağa çalışanları) sevər!»**[362]

**334.** Hələbi rəvayət edir: «İmam Sadiqdən (ə) «Təqva üzərinə bina olunmuş məscid»in (hansı məscid olması) haqqında soruşdum. Buyurdu (ə): «Bu, Quba məscididir.»[363]

**335.** Zürarə, Həmran və Məhəmməd ibn Müslim rəvayət edir: «İmam Baqir (ə) və imam Sadiq (ə) Quba məscidi haqqında nazil olmuş bu ayəni «**İlk gündən təqva (Allahdan qorxub pis əməllərdən çəkinmək) üzərində əsası qoyulan məsciddə (Quba məscidi) namaz qılmaq daha yaxşıdır**» - şərh edərkən buyurdu: «Məqsəd, (Quba məscidini) Zirar məscidi ilə müqayisə etməkdir.»[364]

**Məhəmməd peyğəmbər (s) buyurmuşdur:**

---

[361] «Əmali-Tusi», səh: 369, həd: 788 (Əli ibn Əli ibn Rəzin (Dueyl Xəzainin Qardaşı) imam Rza (ə) vasitəsilə o həzrətin babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 102, səh: 270, həd: 1.

[362] «Tövbə» surəsi, ayə: 108.

[363] «Əl-Kafi», c: 3, səh: 296, həd: 2; «Təhzibul-əhkam», c: 3, səh: 261, həd: 736; «Təfsiri-Əyyaşi», c: 2, səh: 111, həd: 135; «Biharul-ənvar», c: 21, səh: 256, həd: 4.

[364] «Təfsiri-Əyyaşi», c: 2, səh: 111, həd: 136; «Biharul-ənvar», c: 21, səh: 256, həd: 5.

**336.** Kim məscidimə (Quba məscidinə) gəlib, orada iki rəkət namaz qılsa, bir Həcci-ümrə ziyarətinin savabını qazanmış halda (evə) dönər.[365]

**337.** Quba məscidində namaz qılmaq, bir Həcci-ümrə ziyarətinə bərabərdir.[366]

**338.** Kim layiqli şəkildə dəstəmaz alaraq Quba məscidinə gəlib, orada dörd rəkət namaz qılsa, sanki bir Həcci-ümrə ziyarətini yerinə yetirmişdir.[367]

**339.** İbn Ömər rəvayər edir: «Allahın Rəsulu (s) Quba məscidinə həm piyada və həm də miniklə gedərdi. Və orada iki rəkət namaz qılardı.»[368]

## *10.5 KUFƏ MƏSCİDİ*

**Məhəmməd peyğəmbər (s) buyurmuşdur:**

**340.** Merac gecəsi məni dünya səmasına apardıqda, Kufə məscidini göstərdilər. Dedim: «Ya Cəbrayıl! Bu nədir?» Dedi: «Bu, olduqca xeyir-bərəkətli bir məsciddir. Allah-Təala onu əhli (orada ibadət edən və oranı layiqincə qiymətləndirən

---

[365] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 229, həd: 686; «Kamiluz-ziyarat», səh: 66, həd: 51 (İmam Sadiq (ə) rəvayət edir); «Əl-Məzarul-kəbir», səh: 98; «Biharul-ənvar», c: 100, səh: 215, həd: 9.

[366] «Sunəni-Tirmizi», c: 2, səh: 146, həd: 324; «Sunəni-İbn Macə», c: 1, səh: 452, həd: 1411; «Əl-Mustədrəku-ələs-səhiheyn», c: 1, səh: 662, həd: 1792; «Əs-Sunənil-kubra», c: 5, səh: 408, həd: 10295; «Əl-Mucəmul-kəbir», c: 1, səh: 210, həd: 570; «Əl-Musənnəf», İbn Əbu Şeybə, c: 2, səh: 267, həd: 1; «Musnədi-Əbu Yəla», c: 13, səh: 117, həd: 7172; (Bütün hədisləri Üsəyd ibn Zəhir əl-Ənsari rəvayət edir); «Kənzul-ummal», c: 12, səh: 263, həd: 34962.

[367] «Əl-Musənnəf», İbn Əbu Şeybə, c: 7, səh: 565, həd: 2; «Əl-Mucəmul-kəbir», c: 6, səh: 75, həd: 5561; «Tarixi-kəbir», c: 8, səh: 379, həd: 3389; Trixi-Mədinə, c: 1, səh: 41 (Hər iki hədisi Səhl ibn Hənif rəvayət edir); «Kənzul-ummal», c: 12, səh: 264, həd: 34968.

[368] «Səhihi-Muslim», c: 2, səh: 1016, həd: 516; «Səhihi-Buxari», c: 1, səh: 399, həd: 1136; «Sunəni-Tirmizi», c: 2, həd: 37; «Musnədi-İbn Hənbəl», c: 2, səh: 326, həd: 5218; «Əs-Sunənil-kubra», c: 5, səh: 407, həd: 10293; «Əl-Mustədrəku-ələs-səhiheyn», c: 1, səh: 662, həd: 1793

həqiqi bəndələri) üçün seçib və bu məscid, Qiyamət günü onlara şəfaət edəcək.»[369]

**341.** Büraqa mindirilərək meraca aparıldıqda, Kufə məscidinin yanından keçdim. Mənimlə birlikdə olan Cəbrayıl dedi: «Ey Məhəmməd! Burada yerə en və namaz qıl!» Aşağı enib, namaz qıldım. Dedim: «Ey Cəbrayıl! Bura haradır?» Dedi: «Ey Məhəmməd! Bura Kufədir və bu da Kufə məscididir. Mən onu iyirmi dəfə dağıdılmış halda və iyirmi dəfə də abad şəkildə görmüşəm. Bu müddət arasında olan fasilə 500 il olmuşdur.»[370]

**342.** Sanki Kufə məscidini Qiyamət günü ehram bağlamış halda, orada iki rəkət namaz qılan şəxs barəsində şəhadət verdiyini müşahidə edirəm.[371]

**İmam Əli (ə) buyurmuşdur:**

**343.** Dörd məkan Behiştin yer üzərindəki saraylarından sayılır: Məscidül-həram, Məscidün-Nəbi, Beytül-müqəddəs və Kufə məscidi.[372]

**344.**Bu məsciddə müstəhəbb namaz qılmaq, Peyğəmbərlə (s) birlikdə bir həcci-ümrə ziyarəti etməyə və bir vacib namaz qılmaq isə Rəsulallahla (s) birgə bir Həcc ziyarəti əncam vetməyə bərabərdir. Burada min peyğəmbər və onların min canişini namaz qılmışdır.[373]

---

[369] «Əl-Məzarul-kəbir», səh: 126, həd: 7 (Abdullah ibn Məsud rəvayət edir); «Biharul-ənvar», c: 100, səh: 394, həd: 27.

[370] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 231, həd: 695.

[371] «Əl-Məzarul-kəbir», səh: 130, həd: 13 (Məaz ibn Cəbəl rəvayət edir); «Biharul-ənvar», c: 100, səh: 396, həd: 32.

[372] «Əmali-Tusi», səh: 369, həd: 788, Əli ibn Əli ibn Rəzin (Dueyl Xəzainin qardaşı imam Rza (ə) vasitəsilə o həzrətin babalarından (ə) nəql edir); «Biharul-ənvar», c: 102, səh: 270, həd: 1.

[373] «Təhzibul-əhkam», c: 6, səh: 32, həd: 61; «Kamiluz-ziyarat», səh: 72, həd: 62 (Hər iki hədisi Əsbəğ ibn Nəbatə rəvayət edir); «Cameul-əxbar», səh: 177, həd: 425; «Rovzətul-cinan», səh: 449; «Biharul-ənvar», c: 100, səh: 400, həd: 48

**345.** (Kufə məscidinin fəziləti haqqında olan hədisdə buyurur) Nuh (ə) gəmisini bu məsciddə (onun məkanında) düzəltdi, burada təndirdən su çıxdı, Nuhun evi və məscidi də elə bu yerdə idi.[374]

**346.** Kufə məscidi müsəlmanların dörd (məşhur) məscidlərindən dördüncüsüdür. Fikrimcə, orada iki rəkət namaz qılmaq, başqa məscidlərdə on rəkət namaz qılmaqdan daha üstündür.[375]

**347.** Əsbə ibn Nobatə rəvayət edir: «Bir gün Əmirəl-mömininlə (ə) birlikdə Kufə məscidində oturmuşdum. O Həzrət (ə) buyurdu: «Ey kufəlilər! Allah-Təala sizə elə bir hədiyyə (nemət) veribdir ki, başqalarına əta etməyib. Bu (nemət), sizin namaz qıldığınız yerdir (məsciddir). Bu məscid Adəmin (ə), Nuhun (ə), İdrisin (ə) evi və İbrahimin (ə), Xızrın (ə) namaz qıldığı yer olmuş və həmçinin, mənim namaz qıldığım məkandır. Bu məscid, Allah-Təalanın məscid əhli üçün seçdiyi dörd məsciddən biridir. Sanki mən onun (Kufə məscidinin) Qiyamət günü ehram bağlayaraq öz əhlini və orada namaz qılan şəxsləri şəfaət etdiyini görürəm. Onun şəfaəti rədd olunmur! Bir gün gələcək ki, Həcərül-əsvəd (Kəbədəki «qara daş») onun divarında yerləşdiriləcək. Şübhəsiz, bir gün gələcək ki, bura mənim övladlarımdan birinin – Məhdinin (ə.c.) və bütün möminlərin namaz qıldığı yer olacaq. Yer üzündəki bütün mömin insanlar, ya buraya gələcək, ya da bu məscidi sevəcəklər. Bu məscid barəsində səhlənkarlıq etməyin! Orada namaz qılmaqla Allah-Təalaya daha da yaxın olun. Arzu-diləklərinizin yerinə yetməsi üçün buraya üz çevirin. Əgər insanlar onun (həqiqi) dəyərini

---

[374] «Təfsiri-Əyyaşi», c: 2, səh: 147, həd: 24 (Süleyman rəvayət edir); «Biharul-ənvar», c: 100, səh: 387, həd: 9; «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 231, həd: 693.

[375] «Əl-Məzarul-kəbir», səh: 128, həd: 9 (Şəbi rəvayət edir); «Biharul-ənvar», c: 100, səh: 395, həd: 29; «Kənzul-ummal», c: 2, səh: 436, həd: 4433 (Əbi Şeyx rəvayət edir).

bilsəydilər, hər bir yerdən qarın və buzun üzərindən keçməklə də olsa belə, həyacan və təlaşla ona sarı üz gətirərdilər.»[376]

**348. İmam Sadiq (ə):** «Əmirəl-möminin Kufə məscidində olarkən bir kişi ona sarı gəlib, dedi: «Sənə Allahın salamı, rəhməti və xeyir-bərəkəti olsun, Ey Əmirəl-möminin! (O həzrət salamın cavabını verdi.) Sənə qurban olum. Məscidül-əqsaya getmək niyyətindəyəm. İstədim ki, səninlə görüşüb, xüdahafizləşim». Buyurdu: «Bu səfərə getməkdə məqsədin nədir?» Dedi: «Savab qazanmaq istəyirəm». İmam (ə) buyurdu: «(Səfər üşün aldığın) minik vasitəsini sat, yol azuqəni istifadə et və elə bu məsciddə namaz qıl. Burada vacib namaz qılmaq, (Allah dərgahında) qəbul olunmuş Həccə, müstəhəbb namaz qılmaq isə (Allah dərgahında) qəbul olunmuş həcci-ümrəyə bərabərdir. Onun on iki santimetrliyi (belə) bərəkətlidir. Sağ tərəfi bərəkət, sol tərəfi isə hiylədir. Bunların arasında isə yağ çeşməsi, süd bulağı, su çeşməsi və möminlər üçün pak bir bulaq var. Nuhun gəmisi buradan hərəkət etdi. Nəsr, Yəğus və Yəquq bütləri buradaydı. Yetmiş peyğəmbər və onların yetmiş canişini ki, mən də onlardan biriyəm, burada namaz qılmışdır. (Əlini sinəsinə qoyduğu halda) Kim hacətinin qəbul olması üçün orada dua etsə, Allah-Təala onun duasını qəbul edər və çətinliyini aradan qaldırar.»[377]

**349.** Həbbət əl-Ürənni rəvayət edir: «Həzrət Əlinin (ə) yanında oturmuşdum. Bir kişi onun hüzuruna gəlib, dedi: «Ey Əmirəl-möminin! Bu, mənim miniyim və bu da (yol) azuqəmdir. Bu evə (Beytül-müqəddəsə) getmək istəyirəm».

---

[376] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 231, həd: 696; «Əmali-Səduq», səh: 298, həd: 334; «Rovzətul-vaizin», səh: 369; «Biharul-ənvar», c: 100, səh: 389, həd: 14.

[377] «Əl-Kafi», c: 3, səh: 491, həd: 2; «Kamiluz-ziyarat», səh: 80, həd: 76 (Hər iki hədisi İsmayıl ibn Zeyd Mövla Abdullah ibn Yəhya əl-Kahili rəvayət edir); «Təhzibul-əhkam», c: 3, səh: 251, həd: 689 (Abdullah ibn Yəhya əl-Kahili rəvayət edir); «Biharul-ənvar», c: 100, səh: 403, həd: 59.

Buyurdu (ə): «Azuqəni istifadə et, miniyini sat və bu məscidə (Kufə məscidinə) üz gətir. Çünki o, dörd (əzəmətli) məsciddən biridir. Orada iki rəkət namaz qılmaq, başqa məscidlərdə on rəkət namaz qılmaqdan daha üstündür.»[378]

**350. İmam Baqir (ə):** «Əgər insanlar Kufə məscidinin nəyə qadir olduğunu anlasaydılar, azuqə və minik hazırlayaraq uzaq məsafələrdən ona sarı üz gətirərdilər. Orada bir vacib namaz qılmaq, bir Həcc ziyarətinə və bir müstəhəbb namaz qılmaq isə bir Həcci-ümrə ziyarətinə bərabərdir.»[379]

**351.** Hənnan ibn Sədir rəvayət edir: «İmam Baqirin (ə) hüzurunda idim. Elə bu vaxt, bir kişi içəri daxil olaraq, salam verib, oturdu. İmam (ə) ona buyurdu:

– Hansı məntəqədənsən?

Kişi dedi:

– Mən Kufəliyəm, sizi sevir və məhəbbət bəsləyirəm.

– Bütün namazlarını Kufə məscidində qılırsan? Xeyr.

– Doğrudan da sən xeyir-bərəkətdən məhrum qalmısan.[380]

**352.** Əbu Übeydə Həzza rəvayət edir: «İmam Baqir (ə) buyurdu: «Ey Əbu Übeydə! Hətta iməkləyərək getməli olsan belə, Kufə məscidində namaz qılmağı tərk etmə. Çünki orada

---

[378] Mucəmul-buldan, c: 4, səh: 492; «Şərhi-Nəhcul-bəlağə», c: 19, səh: 132; «Kənzul-ummal», c: 2, səh: 436, həd: 4432 (Əbu Şeyx rəvayət edir); «Əl-Ğayat», c: 2, səh: 413; «Əl-Məzarul-kəbir», səh: 127 (Hər iki hədisi Həbbətül Ərni və Meysəmi Təmmar rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 359; həd: 12.

[379] «Təhzibul-əhkam», c: 6, səh: 32, həd: 60; «Əl-Məzari-Mufid», səh: 7, həd: 1; «Kamiluz-ziyarat», səh: 71, həd: 60 (Bütün hədisləri Nəcm ibn Hətim rəvayət edir); «Cameul-əxbar», səh: 177, həd: 424; «Biharul-ənvar», c: 83, səh: 376, həd: 45.

[380] «Kamiluz-ziyarat», səh: 77, həd: 70; «Biharul-ənvar», c: 100, səh: 401, həd: 53.

namaz qılmaq, başqa məscidlərdə qılınan yetmiş namaza bərabərdir.»[381]

**353. İmam Baqir (ə):** «Kufə məscidi Behişt bağlarından biridir. Min yetmiş peyğəmbər orada namaz qılmışdır. Onun sağ tərəfi rəhmət, sol tərəfi isə hiylə və məkrdir. Musanın (ə) əsası, Yunusun (ə) kələm gülü (balığın qarnından xilas olduqdan sonra onun kölgəsində daldalanmışdı) və Süleymanın (ə) üzüyü orada idi. Məhz Kufə məscidində Nuhun (ə) gəmisi düzəldildi, təndirdən su çıxmağa başladı. Kufə məscidi Babilin ən mühüm nöqtəsi və peyğəmbərlərin məkanıdır.»[382]

**354.** Həmma ibn Zeyd Harisi rəvayət edir: «İmam Sadiqin (ə) hüzurunda idim və onun evi Kufə camaatı ilə dolu idi. Onların arasından bir nəfər İmama (ə) belə sual verdi: «Ey peyğəmbər övladı! Mən Kufə məscidindən uzağam və (elə buna görə də) orada namaz qılmaq istəmirəm» İmam (ə) buyurdu: «Oraya get. Əgər camaat onun nə qədər fəzilət daşıdığını bilsəydilər, iməkləməklə də olsa, oraya üz tutardılar». Kişi dedi: «Axı mənim işim çoxdur.» İmam (ə) buyurdu: «O məscidə get və bacardığın qədər oranı tərk etmə. Sənə məscidin sağ tərəfinə, yerindən qazılıb çıxarılmış qapıların yanına getməyi məsləhət görürəm. İbrahim (ə) orada namaz qılmışdır. Həmçinin, məscidin beşinci sütununun yanına da get. Cəbrayıl orada namaz qılmışdır. And olsun o Allaha ki, varlığım onun əlindədir. Əgər camaat mənim bu

---

[381] «Kamiluz-ziyarat», səh: 77, həd: 71; «Biharul-ənvar», c: 100, səh: 400, həd: 52.

[382] «Əl-Kafi», c: 3, səh: 493, həd: 9; «Təhzibul-əhkam», c: 3, səh: 252, həd: 691; «Təfsiri-Əyyaşi», c: 2, səh: 147, həd: 23; «Əl-Məzarul-kəbir», səh: 128, həd: 6 (Bütün hədisləri Əbu Übeydə rəvayət edir); «Rovzətul-vaizin», səh: 450; «Biharul-ənvar», c: 100, səh: 389, həd: 13.

məscidin fəzilət və üstünlükləri haqqında bildiklərimdən xəbərdar olsaydılar, oraya yığışıb, izdiham yaradardılar.»[383]

**355. İmam Sadiq (ə):** «Kufə məscidində bir namaz qılmaq, (başqa məscidlərdə qılınan) min namaza bərabərdir.»[384]

**356.** Harun ibn Xaricə rəvayət edir: «İmam Sadiq (ə) mənə buyurdu:

– Ey Harun ibn Xaricə! Evinlə Kufə məscidinin arasında nə qədər məsafə var; bir mil məsafə olarmı?

Dedim:

– Xeyr.

– Bütün namazlarını orada qılırsanmı?

– Xeyr.

– Əgər mən ona yaxın bir yerdə yaşasaydım, bütün namazlarımı orada qılardım. Bilirsənmi o yerin nə qədər fəziləti var? Bütün əməlisaleh bəndələr və ya peyğəmbərlər Kufə məscidində namaz qılmışlar. Hətta Peyğəmbər (s) meraca aparılarkən Cəbrayıl o Həzrətə (s) dedi: «Ey Peyğəmbər! Bilirsənmi haradasan? Sən Kufə məscidindəsən». Rəsulallah (s) buyurdu: «Allahdan mənə izn istə ki, oraya daxil olub, iki rəkət namaz qılım.

O, Allahdan icazə istədi və Allah-Təala ona icazə verdi. Doğrudan da, ora Behişt bağlarından biridir. Onun içi, əvvəli və axırı da Behişt bağlarındandır. Orada qılınan hər vacib namaz min namaza bərabərdir. Orada qılınan hər müstəhəbb namaz beş yüz namaza bərabərdir. Orada sadəcə oturmaq, hətta Quran oxumasan və zikr söyləməsən belə, ibadətdir.

---

383 «Əl-Məzarul-kəbir», səh: 128, həd: 10; «Biharul-ənvar», c: 100, səh: 395, həd: 30.

384 «Təhzibul-əhkam», c: 6, səh: 33, həd: 63; «Əl-Məzari-Mufid», səh: 9, həd: 4; «Kamiluz-ziyarat», səh: 73, həd: 64 (Bütün hədisləri Xalid əl-Qəlasi rəvayət edir); Səvabql-əmal, səh: 51, həd: 3 (Müfəzzəl ibn Ömər rəvayət edir); «Cameul-əxbar», səh: 178, həd: 430; «Biharul-ənvar», c: 100, səh: 397, həd: 36.

Əgər camaat onun nə qədər fəzilət daşıdığını bilsəydi, iməkləməklə də olsa, ora üz tutardı.[385]

**357.** Müfəzzəl ibn Ömər rəvayət edir: «İmam Sadiqlə (ə) birlikdə Əbu Əbbas Səffahın yanına gedərkən Kufədə idim. Künasə məntəqəsinə çatdıqda Həzrət buyurdu: «Əmim Zeydi burada edam ediblər».

Sonra yolumuza davam etdik və yağsatanların yanına yetişdikdə, atdan endi və buyurdu:

– Aşağı düş. Bura, qədim Kufə məscidinin yerləşdiyi məkandır. İlk olaraq Adəmin (ə) məscid tikdiyi məkandır. Bu (müqəddəs) məkana miniklə daxil olmaq istəmirəm.

Dedim:

– Kim buranın xəritəsini (yerini) dəyişdi?

– İlk olaraq Nuhun (ə) tufanı zamanı dağıldı. Sonra isə İran və Ərəb padşahlarının tərəfdarları, sonra da Ziyad ibn Əbu Süfyan tərəfindən dağıdıldı.

– Kufə və onun məscidi Nuhun (ə) dövründə mövcud idi?

– Bəli, ey Müfəzzəl! Nuhun (ə) və onun tayfasının məskunlaşdığı kənd (ilə buranın fasiləsi) Fərat çayından (indiki) Kufənin qərb hissəsinə qədər olan məsafə qədər idi. Nuh (ə) xarrat idi və Allah-Təala onu seçib, peyğəmbərlik məqamına ucaltdı. Nuh (ə) gəmi düzəldib, su üzərində hərəkət etdirən ilk şəxsdir. O, 950-il öz qövmünü Allaha ibadət etməyə çağırırdı. Lakin ona rişxənd edərək, ələ-salırdılar. Onların belə etdiyini gördükdə, nifrin (qarğış) edərək buyurdu: «**Ey Rəbbim! Yer üzündə bir nəfər belə kafir qoyma! Çünki onları (sağ) buraxsan, onlar Sənin**

---

[385] «Əl-Kafi», c: 3, səh: 490, həd: 1; «Təhzibul-əhkam», c: 3, səh: 250, həd: 688; «Əl-Məhasin», c: 1, səh: 128, həd: 149; «Təfsiri-Əyyaşi», c: 2, səh: 277, həd: 6; «Əl-Ğarat», c: 2, səh: 413; «Biharul-ənvar», c: 100, səh: 398, həd: 39.

**bəndələrini yoldan çıxardacaq, ancaq pozğun və kafir (oğul-uşaq) doğub-törədəcəklər.**»[386]

Sonra Allah-Təala Nuha (ə) vəyh etdi: «Tez bir zamanda geniş bir gəmi düzəlt.» Belə olduqda Nuh (ə) Kufə məscidində öz əlləri ilə gəmi düzəltdi. O, gəmini tikmək üçün lazım olan ləvazimatı uzaq yerlərdən gətirirdi. Bu minvalla o, gəmini tikməyi bacardı.[387]

**358.** Müfəzzəl ibn Ömər rəvayət edir: «İmam Sadiqdən (ə) soruşdum: «Kufə məscidi qədim məsciddirmi?» Buyurdu (ə): «Bəli, elədir. Ora peyğəmbərlərin namaz qıldıqları məkandır. Allahın Rəsulu (s) da, meraca getdikdə orada namaz qılmışdır. Cəbrayıl (ə) ona dedi: «Ey Məhəmməd! Bura sənin baban Adəmin və (başqa) peyğəmbərlərin namaz qıldığı məkandır. Aşağı en və orada namaz qıl».

Peyğəmbər (s) aşağı enib, orada namaz qıldı. Sonra Cəbrayıl Rəsulallahı (s) asimana apardı.»[388]

**359.** Həsən ibn Əli ibn Əbu Həmzə, Əbu Bəsir vasitəsilə rəvayət edir: «İmam Sadiqin (ə) belə buyurduğunu eşitdim: «Kufə məscidi necə də, gözəl bir məsciddir! Orada min peyğəmbər və onların min canişini namaz qılmışdır. Orada təndirdən çeşmə coşdu və Nuh (ə) gəmisini orada düzəltdi. Onun sağ tərəfi ilhai-rizvani (Behişti), sol tərəfi məkr və hiylə, arası isə Behişt bağlarından biridir».

Əbu Bəsirdən soruşdum: «Onun Sol tərəfinin məkr və hiylə olmasından məqsəd nədir?» Dedi: «Məqsəd, Şeytanın evləridir (İmam Hüseynin (ə) qanını axıdan Kufə hökumətinin sarayları).»[389]

---

[386] «Nuh» surəsi, ayə: 26-27.

[387] «Əl-Kafi», c: 8, səh: 279, həd: 421; «Təfsiri-Əyyaşi», c: 2, səh: 144, həd: 19; «Biharul-ənvar», c: 100, səh: 385, həd: 6.

[388] «Əl-Kafi», c: 8, səh: 281, həd: 421; «Təfsiri-Əyyaşi», c: 2, səh: 146, həd: 21; «Biharul-ənvar», c: 100, səh: 387, həd: 7.

[389] «Təhzibul-əhkam», c: 6, səh: 31, həd: 57; «Əl-Məzari-Mufid», səh: 5, həd: 1; «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 231, həd: 693; «Səvabul-

**360. İmam Rza (ə):** «Kufə məscidində təkbaşına bir namaz qılmaq, başqa məscidlərdə camaatla qılınan yetmiş namazdan daha da fəzilətlidir.»[390]

**361. İmam Rza (ə):** «Kufə məscidi Nuhun (ə) evidir (evinin yerləşdiyi yerdədir). Kim oraya yüz dəfə daxil olsa, Allah-Təala onu yüz dəfə bağışlayar. Çünki Nuhun (ə) bu duası onun haqqında qəbul olmuşdur: «**Ey Rəbbim! Məni, ata-anamı, mənim evimə (yaxud məscidimə) mömin kimi daxil olan kimsəni və (Qiyamət gününə qədər olacaq) bütün mömin kişiləri və qadınları bağışla. Zalımların isə ancaq və ancaq həlakını (ölümünü) artır!**»[391]

### *10.6 SƏHLƏ MƏSCİDİ*

**362.** Əbu Bəkr Xəzrəmi rəvayət edir: «İmam Baqirə (ə) dedim: «Allahın hərəmi (Məscidül-həram) və Peyğəmbərin hərəmindən (Məscidün-Nəbi) sonra hansı məkan fəzilətlidir?» Buyurdu (ə): «Ey Əbu Bəkr! Kufə pak və müqəddəs bir şəhərdir. Orada rəsul və nəbi peyğəmbərlərin, onların əməlisaleh canişinlərinin qəbirləri yerləşir. Bundan başqa, Səhlə məscidi də mübarək bir məsciddir. Hər bir peyğəmbər orada namaz qılmışdır. İlahi ədalət orada bərpa olunacaq, Tanrı qiyamçısı orada baş qaldıracaq və onun ardınca digər qıyamçılar da ayağa qalxacaqlar. Orada peyğəmbərlərin,

---

əmal», səh: 50, həd: 1; «Əl-Ğarat», c: 2, səh: 803; «Cameul-əxbar», səh: 178, həd: 429 (Bütün hədisləri Əbu Bəsir rəvayət edir); «Biharul-ənvar», c: 83, səh: 377, həd: 45.

[390] «Səvabul-əmal», səh: 50, həd: 2; «Kamiluz-ziyarat», səh: 78, həd: 72; (Hər iki hədisi Məhəmməd ibn Sənan rəvayət edir); «Biharul-ənvar», c: 100, səh: 397, həd: 34.

[391] «Nuh» surəsi, ayə: 28.

«Əl-Ğarat», c: 2, səh: 857; «Fərihətul-qura», səh: 104 (Hər iki hədisi Əbu Şüeyb əl-Xorasani nəql edir); «Biharul-ənvar», c: 100, səh: 262, həd: 14.

onların canişinlərinin və əməlisaleh insanların evləri yerləşir.»[392]

**363. İmam Sadiq (ə):** «Çətinliyi olan hər bir kəs Səhlə məscidinə gəlib, orada məğrib və işa namazları arasında iki rəkət namaz qılaraq Tanrıdan yardım diləsə, Allah-Təala onun çətinliyini həll edər.[393]

**364. İmam Sadiq (ə):** «Kufədə «Səhlə» adlandırılan bir məscid var. Əmim Zeydin oraya yolu düşəndə, bu məsciddə namaz qılıb, Allaha pənah apardı. Allah-Təala iyirmi il onu qorudu. Bu məscid, atlının (Xızırın (ə) endiyi yer və İdris peyğəmbərin (ə) evidir. Ona hər dəfə bir çətinlik üz gətirəndə, bu məscidə gələrək, məğrib və işa namazları arasında (müstəhəbb) namaz qılar, Tanrıya yalvarardı. Allah-Təala da onun bütün çətinliklərinə yol açardı.»[394]

**365.** Əbdür-Rəhman ibn Kəsir rəvayət edir: «İmam Sadiqin (ə) Əbu Həmzə Somaliyə belə buyurduğunu eşitdim:

– Ey Əbu Həmzə! Əmim Zeydin gecələr (ibadət etmək üçün) ayağa qalxdığını görmüsənmi?

Dedi:

– Bəli.

– Süheyl məscidində namaz qılırdı?

– Süheyl məscidi haradadır? məqsədiniz Səhlə məscididir?

– Bəli. Əgər orada iki rəkət namaz qılıb Allaha pənah aparsaydı, bir daha onu qoruyardı.

– Atam-anam sənə qurban olsun! Bu Səhlə məscididirmi?

---

[392] «Təhzibul-əhkam», c: 6, səh: 31, həd: 57; «Əl-Məzari-Mufid», səh: 5, həd: 1; «Kamiluz-ziyarat», səh: 76, həd: 69; «Rovzətul-vaizin», səh: 449; «Biharul-ənvar», c: 100, səh: 440, həd: 17.

[393] «Təhzibul-əhkam», c: 6, səh: 38, həd: 77; «Əl-Məzari-Mufid», səh: 14, həd: 3; «Əl-Məzarul-kəbir», səh: 134, həd: 5, «Biharul-ənvar», c: 100, səh: 440, həd: 20.

[394] «Əl-Kafi», c: 3, səh: 495, həd: 3; «Təhzibul-əhkam», c: 3, səh: 252, həd: 693; «Qisəsul-ənbiya», səh: 80, həd: 62 (Əmmar əl-Yəqzan rəvayət edir); «Biharul-ənvar», c: 100, səh: 439, həd: 16.

– Bəli. İbrahimin evi oradadır. O Həzrət (ə) buradan Əmaliqəyə sarı yola düşdü. İdrisin (ə) də dərzilik etdiyi ev oradadır. Bu məsciddə yaşıl bir qaya vardır ki, bütün peyğəmbərlərin rəsmləri oradadır. Allah-Təala bütün peyğəmbərləri bu qayanın altındakı torpaqdan yaradıb və Merac da oradadır.[395]

**366.** Əla ibn Rəzin rəvayət edir: «İmam Sadiq (ə) mənə buyurdu: «Sizin yaxınlığınızda yerləşən «Səhlə», bizim isə «Şəra» dediyimiz məsciddə namaz qılırsanmı?» Dedim: «Bəli, sənə qurban olum. Orada namaz qılıram». Buyurdu (ə): «O məscidə get. Çətinliyi olan (dua edib, hacət diləmək üçün) oraya getsə, elə bir çətinlik yoxdur ki, (o, həll olmasını istəsin, amma) Allah-Təala onu dəf etməsin. Orada bir daş vardır ki, üzərinə bütün peyğəmbərlərin və onların canişinlərinin adları yazılıb.»[396]

**367. İmam Sadiq (ə):** «Kufəyə daxil olduqda Səhlə məscidinə get və orada namaz qılıb, Allah-Təaladan mənəvi və dünyəvi hacətlərini istə. Səhlə məscidi İdrisin (ə) namaz qıldığı və dərziliklə məşğul olduğu evdir. Kim orada Allaha sevdiyi şəkildə dua etsə (yaxud istədiyi hacəti diləsə), Allah onun diləyini qəbul edər və Qiyamət günü onu uca məqamlara, hətta İdris (ə) peyğəmbərin məqamınadək ucaldar. Dünyadakı çətinliklərdən və düşmənlərinin şərrindən amanda saxlayar.»[397]

[395] «Təhzibul-əhkam», c: 6, səh: 37, həd: 76; «Əl-Məzari-Mufid», səh: 12, həd: 1; «Kamiluz-ziyarat», səh: 75, həd: 68; «Biharul-ənvar», c: 100, səh: 436, həd: 8; «Əl-Kafi», c: 3, səh: 494, həd: 1; «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 232, həd: 697.

[396] «Qurbul-isnad», səh: 159, həd: 582; «Biharul-ənvar», c: 100, səh: 437, həd: 9.

[397] «Qisəsul-ənbiya», səh: 80, həd: 2 (İsmayıl ibn Mehran rəvayət edir); «Biharul-ənvar», c: 100, səh: 434, həd: .

**368. İmam Sadiq (ə):** «Bu məscid (Səhlə məscidi) bizim sahibimizin dostları ilə birgə qiyama qalxdığı vaxt (yerləşəcəyi) məkandır.»[398]

**369.** Əbu Bəsir rəvayət edir: «İmam Sadiq (ə) buyurdu: «Ey Əba Məhəmməd! Sanki indi Qaimin (ə.c.) öz ailəsi ilə birlikdə Səhlə məscidində yerləşdiyini görürəm». Soruşdum: «Ora Onun mənzilidirmi?» Buyurdu (ə): «Bəli, ora İdrisin (ə) də mənzilidir. Allah-Təalanın göndərdiyi bütün peyğəmbərlər orada namaz qılıb. Kim orada qalsa, sanki Allahın Rəsulunun evində qalıbdır. Hər bir mömin kişi və qadın oranı sevər. Hər gecə-gündüz Tanrı mələkləri oraya sığınıb, ibadətlə məşğul olurlar.

Ey Əba Məhəmməd! Əgər mən sizə yaxın olsaydım, bütün namazlarımı o məsciddə qılardım. Bizim Qaim (ə.c.) qiyama qalxdıqda, Allah-Təala, Peyğəmbərinin (s) və bizim hamımızın intiqamını (düşmənlərimizdən) alacaq.»[399]

### *10.7 XƏYF MƏSCİDİ*

**370. Məhəmməd peyğəmbər (s):** «Xeyf məscidində yetmiş peyğəmbər və həmçinin, Musa (ə) namaz qılmışdır.»[400]

**371. İmam Baqir (ə):** «Xeyf məscidində yetmiş peyğəmbər və nəbi namaz qılmışdır.»[401]

---

[398] «Əl-Kafi», c: 3, səh: 495, həd: 2; «Təhzibul-əhkam», c: 3, səh: 252, həd: 692; «Əl-İrşad», c: 2, səh: 380; «Əl-Ğeybə», Tusi, səh: 471, həd: 488; «Əl-Məzarul-kəbir», səh: 134, həd: 4; «Biharul-ənvar», c: 100, səh: 439, həd: 15.

[399] «Qisəsul-ənbiya», səh: 80, həd: 63; «Biharul-ənvar», c: 100, səh: 435, həd: 3.

[400] «Əl-Mucəmul-kəbir», c: 11, səh: 358, həd: 12283; «Əl-Mucəmul-əvsət», c: 5, səh: 312, həd: 5407; «Tarixi-Dəməşq», c: 61, səh: 167, həd: 12573; «Kənzul-ummal», c: 12, səh: 228, həd: 34793.

[401] «Əl-Kafi», c: 4, səh: 214, həd: 7; «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 230, həd: 688 (Hər iki hədisi Cabir rəvayət edir); «Biharul-ənvar», c: 14, səh: 464, həd: 33.

**372. İmam Baqir (ə):** «Kim Minada yerləşən Xeyf məscidini tərk etməzdən qabaq yüz rəkət namaz qılsa, yetmiş ilin ibadətinin savabını və hər kəs yüz dəfə Allaha həmd-səna oxusa, bir qulu azad etməyin savabını və hər kim yüz dəfə Allahın bir olmasını etiraf etsə, bir nəfərə həyat verməyin savabını qazanar. Kim orada yüz dəfə Allaha şükür etsə, sanki Kufə və Bəsrənin xəracını Allah yolunda sədəqə vermişdir.»[402]

**373. İmam Sadiq (ə):** «Minadakı Xəyf məscidində namaz qıl. Allah Rəsulunun (s) səcdəgahı, məscidin ortasında yerləşən minarənin kənarında idi. Bu minarə qabaq səmtdən qibləyə tərəfdir və onunla arasındakı məsafə otuz ziradır. Onun sağ-sol və arxası birlikdə otuz ziradır. Əgər imkanın varsa, orada namaz qıl. Çünki orada min peyğəmbər namaz qılıb. Bu məscidin Xəyf adlandırılmasının səbəbi, onun nisbətən hündür bir məkanda tikilməsidir. Belə tikililər (ərəb dilində) xəyf adlanır.»[403]

### *10.8 QƏDİR MƏSCİDİ*

**374. İmam Sadiq (ə):** «Qədir məscidində namaz qılmaq müstəhəbdir. Çünki Peyğəmbər (s) Əmirəl-mömininі (ə) burada imamət məqamına ucaltdı. Bura, Allah-Təalanın haqqı aşkar etdiyi yerdir.»[404]

**375.** Əbdür-Rəhman ibn Həccac rəvayət edir: «İmam Kazımdan (ə) səfərdə olarkən, gündüz vaxtı Qədir-xum məscidində namaz qılmaq barəsində soruşdum. Buyurdu (ə):

---

[402] «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 230, həd: 689 (Əbu Həmzə Somali rəvayət edir).

[403] «Əl-Kafi», c: 4, səh: 519, həd: 4; «Təhzibul-əhkam», c: 5, səh: 274, həd: 939 (Müaviyə ibn Əmmar rəvayət edir); «Mən la yəhzəruhul-fəqih», c: 1, səh: 230, həd: 690.

[404] «Əl-Kafi», c: 4, səh: 567, həd: 3; «Təhzibul-əhkam», c: 6, səh: 19, həd: 42; «Mən la yəhzəruhul-fəqih», c: 2, səh: 559, həd: 3142 (Bütün hədisləri ibn Əban rəvayət edir); «Biharul-ənvar», c: 37, səh: 173, həd: 56.

«Orada namaz qıl. Bu iş çox fəzilətlidir. Atam həmişə mənə bunu (orada namaz qılmağı) tapşırardı.»[405]

## *10.9 FƏTH MƏSCİDİ*

**376.** Cabir ibn Abdullah rəvayət edir: «Peyğəmbər (s) Fəth məscidində üç gün dua edərdi: bazar, bazar ertəsi və cümə axşamları. Cümə axşamı iki namazın arasında olan fasilədə O həzrətin (s) duası qəbul olduqda, sevindi.»[406]

## *10.10 FƏZİX MƏSCİDİ*

**377. İmam Baqir (ə):** «Həzrət Peyğəmbər (s) xurma şərablarının dağıdıldığı gün bu məsciddə əyləşdiyinə görə, (xalq arasında) oranı «Fəzix məscidi», yəni «Xurma şərabı məscidi» adlandırdılar. Çünki ən çox dağıdılıb tökülən şərab, xurma şərabı idi.[407]

**378.** Leys əl-Muradi rəvayət edir: «İmam Sadiqdən (ə) bu məscidin nə üçün «Fəzix» adlandırılması haqqında soruşdum. Buyurdu (ə): «Xurma ağacının bir növü də, «fəzix» adlandırılır. Elə buna görə də, bu məscidə «Fəzix» deyirlər.»[408]

**379.** Əmmar ibn Musa rəvayət edir: «İmam Sadiqlə (ə) birlikdə Fəzix məscidinə daxil oldum. Buyurdu (ə): «Ey Əmmar bu çuxuru görürsənmi?» Dedim: «Bəli. Buyurdu (ə): «Cəfərin həyat yoldaşı (sonralar Həzrət Əlinin (ə) həyat

---

[405] «Əl-Kafi», c: 4, səh: 566, həd: 1; «Təhzibul-əhkam», c: 6, səh: 18, həd: 41; «Mən la yəhzəruhul-fəqih», c: 2, səh: 559, həd: 3143.

[406] «Musnədi-İbn Hənbəl», c: 5, səh: 87, həd: 14569; «Əl-Ədəbul-mufrət», səh: 211, həd: 704; «Ət-Təbəqatul-kubra», c: 2, səh: 73; «Tarixul-Mədinə», c: 1, səh: 58.

[407] «Təfsiri-Qummi», c: 1, səh: 181 (Əbu Carud nəql edir); «Biharul-ənvar», c: 66, səh: 488, həd: 21.

[408] «Əl-Kafi», c: 4, səh: 561, həd: 5; «Təhzibul-əhkam», c: 6, səh: 18, həd: 40; «İləluş-şərayə», səh: 459, həd: 1; «Əl-Məhasin», c: 2, səh: 66, həd: 1186; «Biharul-ənvar», c: 100, səh: 214, həd: 5.

yoldaşı oldu) övladları ilə birlikdə burada oturmuşdu. O, ağlayırdı. Övladları ondan soruşdular:

– Ana nə üçün ağlayırsan?

Dedi:

– Əmirəl-möminin üçün.

– Nə üçün bizim atamıza deyil, ona ağlayırsan.

– Bu siz düşündüyünüz kimi ağlamaq (yas saxlamaq) deyil. Əmirəl-mömininin mənə sölədiyi bir sözü xatırladım, ona görə ağlayıram.

– O, nə sözdür?

– Mən və Əmirəl-möminin (ə) bu məsciddə əyləşmişdik. O, mənə buyurdu: «Bu çuxuru görürsənmi?» «Bəli.»-dedim. Buyurdu (ə): «Mən Allahın Rəsulu (s) ilə birlikdə burada oturmuşdum. O Həzrət (s) başını çiynimə qoyub, mürgüləməyə başlabı. Yavaş-yavaş dərin yuxuya getdi. Beləcə, əsr namazının vaxtı gəlib-çatdı. Onun başını çiynimdən qaldırmağa urəyim gəlmədi. Ona mane olmaq istəmədim. Əsr namazının (fəzilətli) vaxtı keçdi. Sonra Peyğəmbər (s) yuxudan ayıldı və soruşdu: «Ey Əli! Namaz qıldınmı?» «Xeyr.»-dedim. Buyurdu (s): «Nə üçün?» Dedim: «Sizə mane olmaq istəmədim.»

Allahın Rəsulu (s) ayağa qalxıb, üzü qibləyə dayandı. Əllərini səmaya qaldıraraq, buyurdu: «Pərvərdigara! Günəşi əvvəlki vaxtına qaytar ki, Əli namazını (vaxtında) qıla bilsin.»[409]

### *10.11 HƏDİSLƏR MƏCMUƏSİ*

**380. Məhəmməd peyğəmbər (s):** «Dörd şey kamilliyə və dörd şey də günahların bağışlanmasına səbəb olar... Günahların bağılanmasına səbəb olan amillər ibarətdir: Ramazan ayında oruc tutmaq, Allahın evinə həcc ziyarətinə

[409] «Əl-Kafi», c: 4, səh: 652, həd: 7; «Qisəsul-ənbiya», səh: 291, həd: 388; «Biharul-ənvar», c: 100, səh: 216, həd: 15.

getmək, Allah Rəsulunun (s) məscidinə getmək və Beytül-müqəddəs məscidinə getmək.»[410]

**381. İmam Əli (ə):** «Yalnız üç məscidin ziyarəti üçün səfərə çıxılar: Məscidül-həram, Məscidün-Nəbi və Kufə məscidi.»[411]

**382. İmam Baqir (ə):** «Kufədə nifrin olinmuş (lənətlənmiş) məscidlər və (bununla yanaşı) fəzilətli məscidlər vardır. Bərəkətli və fəzilətli məscidlər bunlardır: Ğəna məscidi. And olsun Allaha ki, bu məscidin qibləsi dəqiq və torpağı pakdır. Onu mömin bir şəxs tikibdir. Qiyamət günü gəlib çatmamış onun kənarında iki bulaq və onun da yanında iki bağ yaranar. Bu məscid əhli hamılıqla lənətlənibdir və onların məscidə bir bağlılığı yoxdur.

Bəni Zəfər (Səhlə) məscidi, Xəmra məscidi və Cufa məscidi ki, indi ondan əsər-əlamər belə yoxdur.»[412]

**383. İmam Baqir (ə):** «(Fəzilətli) dörd məscid bunlardır: Məscidül-həram, Məscidün-Nəbi, Beytül-müqəddəs və Kufə məscidi. Ey Əbu Həmzə! Bu məscidlərdə qılınan hər vacib namaz bir Həcc ziyarətinə bərabərdir. Bu məscidlərdə qılınan hər müstəhəbb namaz isə bir Həcci-ümrə ziyarətinə bərabərdir.»[413]

